Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz. İnsan və vətəndaş hüquqları və azadlıqları dedikdə, Konstitusiyanın III Fəslində təsbit edilmiş əsas insan və vətəndaş hüquqları və azadlıqları, eləcə də həmin hüquqlardan irəli gələn və sahəvi qanunlarla tənzim olunan digər "törəmə" hüquqlar nəzərdə tutulur. Cəmiyyətin və dövlətin mənafeləri dedikdə, ayrılıqda götürülmüş bir fərd üçün deyil, böyük bir insan qrupu – cəmiyyət, yaxud dövlət üçün ictimai münasibətlərin nizamlanmasını, təmin etmək, sosial ədalətə nail olmaq, birgəyaşayış qaydalarına hörmət edilməsi və s. bu kimi məqsədlər baxımından arzu olunan, ümumi maraqlara cavab verən proseslərin və bu proseslərin nəticələrinin məcmusu başa düşülür. Şəxsiyyətin ləyaqəti dedikdə, hər hansı bir insanın özünə, özünün davranışına, mənəvi və əxlaqi dünyagörüşünə, cəmiyyətdə tutduğu mövqeyinə özünün verdiyi qiymət başa düşülür. Bu anlayış öz məzmununa görə şərəf anlayışına çox yaxındır. İnsanın şərəfi, ləyaqəti və nüfuzu hüququn ən ali bəşəri dəyərlərindən hesab olunur. İnsanın şərəfi, ləyaqəti və nüfuzu bir-biri ilə sıx surətdə bağlı olan mənəvi, əxlaqi və sosial dəyərlər olduğuna görə bu dəyərlər dövlət tərəfindən müdafiə olunur. Konstitusiya fikir və söz, məlumat və yaradıcılıq azadlıqlarını həyata keçirərkən hər kəsdən qanunlara riayət etməsini və başqalarının hüquqlarına hörmətlə yanaşmasını tələb edir.

Konstitusiyanın 29-cu maddəsinin I hissəsinə əsasən, hər kəsin mül-

kiyyət hüququ vardır. Mülkiyyət hüququnun hər kəsə aid edilməsi, onun həm vətəndaşlara, həm əcnəbilərə, həm də vətəndaşlığı olmayan şəxslərə məxsus olması anlamı verir. Bununla belə, nəzərə almaq lazımdır ki, torpaq üzərində mülkiyyət hüququna münasibətdə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən məhdudiyyətlər nəzərdə tutuluşdur. Belə ki, Torpaq Məcəlləsinin 48-ci maddəsinin müddəalarına əsasən, Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləri torpaq sahələrini mülkiyyət, istifadə və icarə hüququnda əldə edə bilərlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər [6, s. 100].

Əvvəldə qeyd edildiyi kimi, Azərbaycan Respublikasında mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Ş.M.Əliyevin verdiyi şərhə görə, bu normadan iki məna irəli gəlir. Birincisi, xüsusi mülkiyyət hüququ insan və vətəndaşın hüquq və azadlıqlarının bir növü kimi hüquq sisteminə yalnız qanunla daxil edilə bilər. Digər orqanın qəbul etdiyi başqa bir akt belə hüquqi qüvvəyə malik deyildir. İkincisi, xüsusi mülkiyyət hüququ qanunun mühafizəsi altındadır. Xüsusi mülkiyyət hüququnun qanunun mühafizəsi altında olması haqqında konstitusion müddəa digər qanunlarda (cinayət, mülki, inzibati və s. qanunvericilikdə) öz inkişafını tapmalıdır [6, s. 102].

İstənilən hüququn, o cümlədən mülkiyyət hüququnun real olması üçün dövlət tərəfindən onun mühafizə və müdafiə mexanizmləri nəzərdə tutulmalıdır. Hüququn mühafizə mexanizmi müxtəlif hüquqi sanksiyalar təhdidi altında onun pozumlası və məhdudlaşdırılmasını xəbərdar etməli, bu hüququn pozulması və ya məhdudlaşdırılmasından öncə işləməli və ümumiyyətlə, hüquq pozuntularına qabaqlayıcı təsir göstərməlidir. Hüquq müdafiə mexanizmləri isə artıq pozulmuş və ya qanunsuz olaraq məhdudlaşdırılmış hüququn bərpa edilməsi üçün zəruri hüquqi vasitə və imkanları təmin etməlidir.

Konstitusiyanın 29-cu maddəsinin III hissəsinin birinci cümləsinə əsasən, hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Lakin bu normadan heç də belə məna çıxmır ki, hər kəs hər cür daşınar və daşınmaz əmlaka sahib ola bilər. Həmin müddəa təfsir olunan zaman əmlakın mülki dövriyyədə olması, onun mülki dövriyyəsinin məhdudlaşdırılması və mülki dövriyyədən çıxarılması institutlarına da mütləq müraciət edilməlidir. Mülki dövriyyə dedikdə, əmlakın (əmlak hüquqlarının) əqdlər və ya hüquqi faktlar əsasında, yaxud digər qanuni əsaslarla bir subyektdən digər subyektə keçməsi prosesi başa düşülür. Əgər daşınar, yaxud daşınmaz əmlak sərbəst mülki dövriyyədədirsə, o, qanuni əsaslarla əldə edilə və özgəninkiləşdirilə bilər. Lakin nəzərə almaq lazımdır ki, hüquqi rejim baxımından heç də bütün əmlak növlərinin mülki dövriyyəsi sərbəst deyildir. Belə ki, sərbəst mül-

ki dövriyyədə olan əmlakla yanaşı, mülki dövriyyəsi məhdudlaşdırılmış və mülki dövriyyədən çıxarılmış əmlak növləri də mövcuddur ki, bu əmlak növlərinə sahib olmaq hüququ heç də hər kəsə məxsus deyildir.

Dövlət tərəfindən mülki dövriyyəsi məhdudlaşdırılmış və mülki dövriyyədən çıxarılmış əmlakların dairəsinin müəyyən edilməsi müxtəlif fəaliyyət sahələrinin xüsusi nizamlama metodları (qadağaların, xüsusi şərtlərin, tələblərin, müəyyən məhdudiyyətlərin müəyyən edilməsi) tələb etməsi, ictimai qaydanın, hüquq qaydasının, dövlət təhlükəsizliyinin, iqtisadi təhlükəsizliyin təmin edilməsi, əhalinin həyat və sağlamlığının qorunması və s. ilə bağlıdır.

Mülki dövriyyəsi məhdudlaşdırılmış əmlak dedikdə, yalnız xüsusi icazə əsasında müəyyən subyektlərin malik ola biləcəyi əmlak başa düşülür. Belə hüquqi rejimi olan əmlak növlərinin siyahısı Azərbaycan Respublikasının "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" 23 dekabr 2003-cü il Qanunu ilə müəyyən edilir.

Mülki dövriyyədən çıxarılmış əmlak dedikdə isə, ümumiyyətlə, fiziki və hüquqi şəxslər tərəfindən alınıb-satılmasına, əldə edilməsinə, özgəninkiləşdirilməsinə yol verilməyən əmlak başa düşülür. Belə hüquqi rejimə malik əmlakın dairəsi Azərbaycan Respublikasının "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" 23 dekabr 2003-cü il tarixli Qanunu ilə nizamlanır. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Mülkiyyət hüququ subyektin ona mənsub olan əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan hüququdur. Mülkiyyət hüququ üç ünsürdən ibarətdir: sahiblik, istifadə və sərəncam hüququndan. Sahiblik hüququ əmlaka faktiki sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadə hüququ əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda – gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər. Sərəncam hüququ əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. Bu üç elementdən birinin olmaması mülkiyyətə tam sahiblik hüququnun olmaması deməkdir [2, s. 154; 4, s. 211].

Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. MM-in 203-cü maddəsinə əsasən, qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla həyata keçirilən aşağıdakı tədbirlərdən başqa, əmlakın mül-

kiyyətçidən məcburi alınmasına yol verilmir:

- öhdəliklər üzrə tutmanın əmlaka yönəldilməsi (MM-in 205.1-ci maddəsinə əsasən, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa və ya məhkəmə qərarına əsasən həyata keçirilir);
- qanuna görə həmin şəxsə mənsub ola bilməyən əmlakın özgəninkiləşdirilməsi (MM-in 206.2-ci maddəsinə əsasən, dövlət orqanının ərizəsi üzrə məhkəmənin çıxardığı qərara əsasən məcburi satılaraq satış pulu keçmiş mülkiyyətçiyə verilməli və ya dövlət mülkiyyətinə verilərək dəyəri keçmiş mülkiyyətçiyə ödənilməlidir);
- sahənin alınması ilə əlaqədar daşınmaz əmlakın özgəninkiləşdirilməsi (MM-in 207.1-ci maddəsinə görə, torpaq sahəsində olan binalara, qurğulara və ya digər daşınmaz əmlaka mülkiyyət hüququna xitam verilmədən həmin sahənin dövlət ehtiyacları üçün alınmasının mümkün olmadığı hallarda dövlət bu əmlakı satınalma yolu ilə ala bilər);
- təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması (MM-in 208.1-ci maddəsinə görə, belə sərvətlər məhkəmənin qərarına əsasən dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alına bilər);
- rekvizisiya (MM-in 209.1-ci maddəsinə görə, rekvizisiya qaydasında mülkiyyətçidən əmlak müvafiq dövlət orqanlarının qərarı ilə alına bilər);
- müsadirə (MM-in 212-ci maddəsinə əsasən, CM-də və İXM-də nəzərdə tutulmuş hallarda məhkəmə qərarı ilə həyata keçirilir).

Göründüyü kimi, MM-də əmlakın mülkiyyətçidən məcburi alınmasına yol verilən halların heç də hamısı məhkəmə qərarı ilə bağlı deyildir. Bunun ən bariz nümunəsi rekvisiziya institutudur, çünki MM-ə görə, o, müvafiq dövlət orqanlarının qərarı əsasında həyata keçirilə bilər. Rekvizisiya institutu MM-in 209-cu maddəsi ilə nizamlanır. Hüquq ədəbiyyatında qanunun bu müddəası birmənalı qarşılanmır. Bəziləri bu müddəanın Konstitusiyanın 29-cu maddəsində bəyan edilmiş "heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz" tezisinə zidd olduğunu iddia edirlər. Digərləri isə göstərirlər ki, bu müddəa Konstitusiyanın 24-cü maddəsində nəzərdə tutulmuş "hüquqlar və azadlıqlar başqa şəxslər qarşısında vəzifələri də əhatə edir" tezisi ilə həmahəngdir. Həqiqətən bir nəfərin hüququnun gözlənilməsi naminə çoxsaylı başqa şəxslərin hüquqlarının pozulmasına yol vermək olmaz. Məhz bu baxımdan rekvizisiyanın cəmiyyətin mənafeyi üçün həyata keçirilməsini nəzərdə tutan şərh olunan maddədə (MM-in 209-cu maddəsi nəzərdə tutulur) müəyyənləşdirilmiş norma Konstitusiyaya zidd deyildir [3, s. 419].

Konstitusiyanın 29-cu maddəsinin IV hissəsinin ikinci cümləsinə əsasən, əmlakın tam müsadirəsinə yol verilmir. Azərbaycan Respublikasının cari qanunvericliyində müsadirə institutunun iki növü mövcuddur: inzibati tənbeh növü kimi inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın

bilavasitə obyekti olmuş predmetin müsadirəsi və cinayət-hüquqi xarakterli tədbir kimi xüsusi müsadirə.

İXM-in 26-cı maddəsinin müddəalarna görə, inzibati xəta törətmiş şəxsin xüsusi mülkiyyətində olan, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi İXM-in Xüsusi hissəsində nəzərdə tutulmuş hallarda həmin predmetin məcburi qaydada və ödənişsiz dövlətin mülkiyyətinə keçməsindən ibarətdir. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi yalnız hakim tərəfindən tətbiq edilir. Əsas dolanacaq mənbəyi ov olan şəxslərin odlu silahı, döyüş sursatı və digər ov alətləri müsadirə edilə bilməz.

CM-in 99-1-ci və 99-2-ci maddələrinin müddəalarına əsasən, xüsusi müsadirə cinayət-hüquqi tədbiri aşağıda göstərilən əmlakın məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasıdır:

- şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla);

- şəxsin cinayət yolu ilə əldə etdiyi əmlak, habelə həmin əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla);

- cinayət yolu ilə əldə edilmiş əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi;

- terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak.

Yuxarıda sadalanan əmlak istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində cinayət törətmiş şəxsə məxsus olan digər əmlak məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilir. Xüsusi müsadirə edilməli olan əmlakın başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi hallar dedikdə, belə əmlakın məhv edilməsi, istifadəyə yararsız vəziyyətə düşməsi və s. hallar başa düşülür.

Konstitusiyanın 29-cu maddəsinin IV hissəsinin üçüncü cümləsinə əsasən, dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. 2009-cu il martın 18-də keçirilmiş ümumxalq səsverməsinin (referendumun) nəticəsində Konstitusiyanın 29-cu maddənin IV hissəsindən "dövlət ehtiyacları" sözlərindən sonra "və ya ictimai ehtiyaclar" sözləri çıxarılmışdır.

İstər Konstitusiyada, istərsə də Azərbaycan Respublikasının qanunvericilik aktlarında "dövlət ehtiyacları" anlayışı açıqlanmır. Belə bir vəziy-

yət hüququn tətbiqi prosesində göstərilən anlayışın genişləndirici təfsirinə şərait yaradır ki, bu da öz növbəsində vətəndaşların mülkiyyət hüququnun pozulmasına səbəb ola bilər. Mülkiyyət hüququ ilə bağlı belə təhlükələrin aradan qaldırılması məqsədilə, dövlət ehtiyacları üçün mülkiyyət hüququnun məhdudlaşdırılması hüdudlarını müəyyən edən xüsusi qanunun qəbul edilməsinə böyük ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, 20 aprel 2010-cu il tarixində Azərbaycan Respublikasının "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanunu qəbul edilmişdir. Həmin Qanun Azərbaycan Respublikasında torpaqların dövlət ehtiyacları üçün alınması, bununla bağlı kompensasiyanın məbləğinin hesablanması və ödənilməsi qaydalarını, habelə bu sahədə tərəflər arasında yaranan digər münasibətləri tənzimləyir. Bununla belə, digər daşınar və daşınmaz əmlakların dövlət ehtiyacları üçün alınması prosedurlarını nizamlayan sahəvi qanunvericlik hələ ki mövcud deyildir.

Konstitusiyanın özündə mülkiyyətin dövlət ehtiyacları üçün özgəninkiləşdirilməsinin yeganə şərti qismində onun dəyərinin ödənilməli olması göstərilmişdir. Bu şərtin özünün isə iki meyarı müəyyən edilmişdir: dəyər qabaqcadan ödənilməlidir; dəyər ədalətli olmalıdır.

Konstitusiyanın 29-cu maddəsinin V hissəsinə əsasən, xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur. Qeyd etmək lazımdır ki, 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) nəticəsində Konstitusiyanın 29-cu maddəsində V hissə VII hissə hesab edilmişdir və yeni məzmunda V və VI hissələr əlavə edilmişdir. Xüsusi mülkiyyətin sosial öhdəliyə səbəb olması xüsusi mülkiyyətin sosial funksiyasından irəli gəlir. Bu funksiyaya görə, mülkiyyətçi özünün xüsusi mülkiyyətində olan əmlakdan elə bir tərzdə istifadə etməlidir ki, bu istifadə cəmiyyətin ümumi rifahına xidmət etsin.

Konstitusiyanın 29-cu maddəsinin VI hissəsinə əsasən, sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.

MM-in 169.2-ci maddəsinə əsasən, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi mülkiyyətçinin torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyildirsə və ya həddsiz yüksək məsrəflər hesabına mümkündürsə, bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan tam ödənilməsi şərti ilə mülkiyyətçi həmin tədbirlərin həyata keçirilməsinə icazə verməlidir.

Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə əsasən isə dövlət vərəsəlik hüququna təminat verir.

Son illərdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (bundan sonra – KM) mülkiyyət hüququnun toxunulmazlığı və müdafiəsi ilə əlaqədar bir sıra prinsipial əhəmiyyəti olan hüquqi mövqelər bildirilmişdir

[1]. Bu hüquqi mövqeləri özündə əks etdirən qərarlar qismində KM-in Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 03 iyun 2013-cü il tarixli, "A.Daşdəmirovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 01 iyul 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 27 may 2021-ci il tarixli, "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32 və 36-cı maddələri baxımından həmin Məcəllənin 37.3-cü maddəsinin şərh edilməsinə dair" 23 iyul 2021-ci il tarixli, "X. Mirzəliyevin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 noyabr 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 17 sentyabr 2021-ci il tarixli, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1 və 31.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 01 iyul 2022-ci il tarixli, ""Palladium Defence and Security Solutions" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 16 sentyabr 2022-ci il tarixli qərarlarını xüsusi vurğulamaq olar.

Qeyd edilən qərarlarda nümayiş etdirilmiş hüquqi mövqeləri aşağıdakı kimi ümumiləşdirməyi mümkün hesab edirik. Belə ki, KM-in müvafiq qərarlarındakı izahına görə, əşya hüquqları tam əşya hüququ (mülkiyyət hüququ) və məhdud əşya hüquqları (servitut, uzufrukt, tikintiyə vərəsəlik, girov və ipoteka) olaraq iki əsas qrupa ayrılmaqla belə bir xüsusiyyətə malikdirlər ki, bu hüquqlardan istifadə edilməməsi onların aradan qalxmasına səbəb olmur və hər kəsə qarşı tələbin irəli sürülmə imkanı da hər hansı bir müddətlə məhdudlaşdırılmır. Əşya hüquqlarının iddia müddətinə tabe olmaması prinsipi hüququn hamılıqla qəbul edilən ümumi prinsiplərindən biridir və Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin, 60-cı maddəsinin I hissəsinin və 71-ci maddəsinin II hissəsinin müddəalarının təmin edilməsinə xidmət edir.

Əşya hüququ obyektiv hüquq olaraq şəxsə məxsus əşyaya bilavasitə təsir etmək yolu ilə öz maraqlarını təmin etmək imkanının realizəsi ilə əlaqədar yaranan münasibətləri tənzim edən hüquq normalarının məcmusundan ibarətdir. Subyektiv hüquq olaraq isə əşya hüququ şəxsə məxsus əşya üzərində onun birbaşa hakimiyyətini müəyyən edən hüquq olmaqla təmin etdiyi səlahiyyətlərin həcmi baxımından tam əşya haqqı və məhdud əşya haqları kimi təsnif edilir. Ən mühüm əşya hüquqlarından olan mülkiyyət hüququ əşya üzərində tam həcmdə səlahiyyət təmin etdiyindən tam əşya hüququ adlandırılır. Mülki Məcəllənin 152.1-ci maddəsinə əsasən, mülkiyyət hüququ

subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. Vurğulanmalıdır ki, mülkiyyət hüququnu digər əşya haqlarından fərqləndirən başlıca xüsusiyyət hər üç səlahiyyətin bir şəxsdə (mülkiyyətçidə) cəmləşməsində, o cümlədən əşyanın hüquqi müqəddəratını müəyyən etmək (əşyaya sərəncam vermək) səlahiyyətinin məhz mülkiyyət hüququ ilə təmin olunmasındadır. Mülki Məcəllənin 138.1-ci maddəsinə uyğun olaraq, əşyaya mülkiyyət hüququnun qanun və ya əqd əsasında məhdudlaşdırılması da mümkündür ki, bu əşyanın yüklülüyü adlandırılır. Mülkiyyətçi bağladığı əqdlərlə, o cümlədən girov (ipoteka) müqaviləsi üzrə ona məxsus əşya üzərində mülkiyyət hüququnu yüklü edə bilər.

Mülkiyyət hüququnun əhəmiyyətinə baxmayaraq, o mütləq deyil və məhdudlaşdırıla bilər. Nəzərə almaq lazımdır ki, Konstitusiyada mülkiyyət hüququ təsbit edilməklə yanaşı, onun ümumi və xüsusi məhdudiyyətlərinin hədləri də müəyyən olunmuşdur. Belə ki, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusion hüququn mahiyyətini dəyişməməlidir. Dövlət mülkiyyət hüququnun səmərəli həyata keçirilməsinə qanunsuz müdaxilələrdən çəkinməli və onların qarşısını almalıdır.

Mülkiyyət hüququ mülkiyyətçinin ona məxsus əmlak üzərində mümkün davranış həddi olmaqla sahiblik, istifadə və sərəncam hüquqlarının məcmusundan ibarətdir. Sahiblik hüququ əşyanı öz təsərrüfatında saxlamaqla ona faktiki sahiblik edilməsini, istifadə hüququ əşyadan təyinatına uyğun istifadə olunmaqla onun faydalı xassələrinin hasil edilməsini, sərəncam hüququ isə əşyanın hüquqi müqəddəratının müəyyən edilməsini nəzərdə tutur. Sərəncam hüququ yalnız mülkiyyətçiyə məxsus ola bildiyi halda, sahiblik və istifadə hüquqları mülkiyyətçi olmayan digər şəxslərə də məxsus ola bilər. Mülkiyyət hüququ yalnız qanunvericilikdə nəzərdə tutulan hüquqi faktın və ya belə faktların məcmusunun mövcudluğu halında yaranır.

Bir qayda olaraq, bir əşya üzərində bir şəxsin mülkiyyət hüququ olur və bu, fərdi mülkiyyət adlanır. Bir əşya üzərində birdən çox mülkiyyət hüququ olduqda, ümumi mülkiyyət halı yaranır. Mülki Məcəllənin 213-cü maddəsinə əsasən, iki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur. Əşya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilməklə (paylı mülkiyyət) və ya belə paylar müəyyənləşdirilmədən (birgə mülkiyyət) ümumi mülkiyyətdə ola bilər.

Hüquqi dövlət və demokratik cəmiyyətdə mülkiyyət hüququ toxunulmazdır və onun subyekti qismində bir və ya bir neçə şəxs çıxış edə bilər. Yəni əmlak eyni vaxtda bir neçə şəxsə məxsus ola bilər və mülki qanun-

vericilikdə bu münasibətlər ümumi mülkiyyətə dair normalarla tənzimlənir. Konstitusiya mülkiyyət hüququnu təsbit etməklə yanaşı, bu hüququn effektiv vasitələrlə təmin olunmasına da zəmanət vermişdir. Demokratik cəmiyyətdə mülkiyyətin tam həcmdə müdafiəsi hüquqi dövlətə xas olan ali dəyərlərdən biri kimi qiymətləndirilir.

Mülkiyyət hüququ Azərbaycan Respublikasında nəinki mülkiyyətçinin hüquqi təsbit olunmuş geniş səlahiyyətləridir (ona məxsus olan əmlaka faktiki sahib olmaq, öz tələbatlarının təmin olunması üçün təyinatından asılı olaraq bu əmlakdan istədiyi kimi istifadə etmək, əmlakın hüquqi müqəddəratını öz iradəsinə görə müəyyən etmək), həm də qüvvədə olan qanunvericiliyin çərçivəsində digər şəxslərin hüquq və qanunla qorunan maraqlarını pozmadan mülkiyyətçinin dövlət tərəfindən təminat altına alınmış həmin əmlak üzərində üstünlüyünə üçüncü şəxslərin müdaxiləsini aradan götürmək, bu zaman öz mülahizəsinə görə və maraqlarına uyğun hərəkət etmək səlahiyyətidir.

Ayrılmaz və bölünməz əsas insan və vətəndaş hüquq və azadlıqlarından biri kimi mülkiyyət hüququna verilən təminat mülki hüquq münasibətləri iştirakçılarına onu hüquqi bərabərlik, mülkiyyətin toxunulmazlığı prinsiplərinə uyğun əmlak müstəqilliyi, iradə azadlığı şəraitində həyata keçirmək imkanının yaradılmasını, pozulduğu təqdirdə isə məhkəmədə müdafiəsini nəzərdə tutur. Eyni zamanda, belə müdafiə yalnız mülkiyyətçi ilə məhdudlaşmayaraq mülki dövriyyənin digər iştirakçılarının əmlakla bağlı qanuni əsaslarla mövcud hüquqlarının da (mübahisəli əmlakın sahibləri, istifadəçiləri) öz təsir dairəsilə əhatələndiyini ehtiva edir.

Konstitusiyada mülkiyyət toxunulmaz elan edilməklə, azad sahibkarlıq fəaliyyətinə təminat verilməklə, məntiqi zərurət olaraq mülki dövriyyədə müqavilə azadlığı da tanınır. Belə ki, fiziki və hüquqi şəxslərin mülkiyyətlə bağlı mənafeləri məhz mülkiyyət hüququndan sərbəst istifadə etməklə, azad surətdə müqavilələr bağlamaqla reallaşdırıla bilər. Konstitusiya Məhkəməsi Plenumunun bununla bağlı formalaşdırdığı hüquqi mövqeyə əsasən, hüquqi dövlətdə mülki dövriyyə sahəsində hüquq münasibətlərinin tənzimlənməsi hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi, mülkiyyətin toxunulmazlığı və müqavilə azadlığı, bu münasibətlərin subyektlərinin hüquqi statusu müəyyənləşdirilərkən ictimai və xüsusi maraqların tarazlığı, onların hüquqlarının həyata keçirilməsi və mümkün məhdudlaşdırma şərtlərinin müəyyənləşdirilməsi zamanı mütənasiblik və tarazlıq meyarlarının gözlənilməsi prinsiplərinə əsaslanmalıdır.

KM-in hüquqi mövqeyinə görə, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələblərinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusiya hüququnun mahiyyətini dəyişməməlidir. Xüsusən mülkiyyət

hüququ ilə bağlı mübahisələrin həllində məhkəmələr formal mülahizələrdən çıxış etməməli, məsələləri qanunvericiliyin onlara verdiyi bütün mümkün hüquqi vasitələrdən istifadə edərək tam və hərtərəfli araşdırmalıdırlar. Mülkiyyət hüququna müdaxilə qanuni hədlər daxilində olmaqla ciddi ictimai zərurətdən irəli gəlməli və Konstitusiya prinsiplərindən kənara çıxmamalıdır. Dövlət orqanlarının fəaliyyəti zamanı əsas vəzifələrindən biri hər kəsin hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasıdır. Bu baxımdan dövlət orqanlarına həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsi nəticəsində fiziki və ya hüquqi şəxsin hüquqlarının, o cümlədən mülkiyyət hüquqlarının tam həcmdə reallaşdırılmasının əsassız olaraq məhdudlaşdırılmasının yolverilməzliyi də xüsusi əhəmiyyət kəsb edir.

Mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusion hüququn mahiyyətini dəyişməməlidir. Bu cür məhdudiyyətin mümkünlüyü və onun xarakteri layiqli həyat səviyyəsi də daxil olmaqla konstitusion əhəmiyyətli dəyərlərin müdafiəsi ilə şərtləndirilməlidir. Vətəndaşın sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısının dövlətin sosial sahədə konstitusion məqsədləri sırasında göstərilməsi və Konstitusiyada heç kəsin yaşadığı mənzildən qanunsuz məhrum olunmasının mümkünsüzlüyünün müəyyən edilməsi mənzil münasibətləri sahəsində dövlətin siyasətinin vacibliyinə və konstitusiya əhəmiyyətli olduğuna dəlalət edir. Ona görə konstitusiya əsasları olan dövlətin mənzil siyasəti üzrə qəbul etdiyi qərarlar Konstitusiyadan irəli gələn şərtlərə riayət olunmaqla, mülkiyyət hüququnun məhdudlaşdırılması üçün əsas kimi çıxış edə bilər. Lakin hər bir halda belə məhdudiyyət qarşıya qoyulmuş məqsədə ağlabatan şəkildə mütənasib olmaqla mülkiyyətçinin üzərinə fərdi və həddən artıq yük qoymamalıdır.

Hesab edirik ki, mülkiyyət hüququnun toxunulmazlığından və müdafiə edilməsindən bəhs edərkən bu hüququn "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına (bundan sonra – Konvensiya) və həmin Konvensiyanın rəsmi təfsiri hesab edilən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – İHAM) müvafiq presedent hüququnda formalaşmış hüquqi mövqelərə nəzər yetirməmək mümkün deyil.

Mülkiyyətin müdafiəsi hüququ Konvensiyanın 1 saylı Əlavə protokolunun 1-ci maddəsində təsbit edilmişdir. İHAM-ın hüquqi mövqeyinə görə, 1 saylı Əlavə protokolun 1-ci maddəsindəki "mülkiyyət" kateqoriyası muxtar anlayışdır, yəni bu termin fərqli yerli qanunlarla, rəsmi təfsir orqanları və s. verilən definisiyalarla bağlı deyil və müstəqil şəkildə təfsir olunmalıdır. Bu kontekstdə İHAM-ın hüquqi mövqeyi ondan ibarətdir ki, dövlətin daxili qanunvericiliyi konkret marağa "hüquq", hətta "mülkiyyət hüququ" kimi baxmasa da bu, həmin marağa bəzi hallarda 1 saylı Əlavə pro-

tokolun təsir dairəsinə düşən mülkiyət qismində baxılmasını istisna etmir. İHAM-ın təfsirində “mülkiyyət” kateqoriyası həm maddi aləmdə mövcud olan mülkiyyəti, həm də aktivləri, tələb hüquqlarını və qanuni gözləntiləri ehtiva edir, özündə həm *in rem*, həm də *in personam* hüquqları birləşdirir, o, həm daşınar, həm daşınmaz əmlak, həm də digər əmlak maraqlarını əhatə edir [7; 8].

Bundan əlavə, 1 saylı Əlavə Protokolun 1-ci maddəsi mülkiyyətin “müdafiəsi” hüququ adlanır. Bu isə o deməkdir ki, hansı mülkiyyətin “müdafiə” kateqoriyasının təsiri altına düşməsi məsələsi də İHAM-ın presedent hüququnun predmetidir. Bu anlamda, *Von Maltzan & others v. Germany*, *Anheuser-Busch Inc. v. Portugal*, *Marckx v. Belgium*, *Pressos Compania Naviera S.A. & others v. Belgium* və s. bu kimi presedentlərdə ifadə edilmiş hüquqi mövqelərə əsasən, 1 saylı Əlavə Protokolun 1-ci maddəsinin müddəaları “mövcud olan” mülkiyyətə şamil edilir. Bu zaman “mövcud olma” dedikdə, maddi aləmdə mövcudluq, mülkiyyətin mütləq konkret əşya kimi çıxış etməsi başa düşülməməlidir. Belə ki, mülkiyyət təkcə real əşya kimi deyil, mühasibat işində istifadə olunan qeyri-maddi aktivlər, tələb hüququ və qanuni gözlənti kimi də çıxış edə bilər. Odur ki, mülkiyyətin mövcudluğu dedikdə, onun bir hüquq olaraq mövcudluğu və pozulduğu anda mülkiyyətçiyə məxsus olması başa düşülür. Bu təfsir *Des Fours Walderode v. the Czech Republic*, *Zhigalev v. Russia, Nerva & others v. the United Kingdom*, *Malhous v. the Czech Republic*, *Stretch v. the United Kingdom*, *Gratzinger & Gratzingerova v. the Czech Republic, Pine Valley Developments Ltd. & others v. Ireland* və s. bu kimi presedentlərdən irəli gəlir. Qeyd edilən təfrisə görə, əgər şəxs öz mülkiyyət hüququnun pozulması barədə şikayət edirsə, o, ilk növbədə, belə bir hüququn ona məxsus olmasını, hüququn mövcudluğunu sübut etməlidir. Mülkiyyətçiyə həqiqətən məxsus olan və bu mənada, real mövcud olan mülkiyyət hüququndan fərqli olaraq, mülkiyyət hüququnun tanınacağına dair “ümid”, eləcə də əvvəlcədən müəyyənləşdirilmiş şərtin yerinə yetirilməməsi ilə əlaqədar öz qüvvəsini itirmiş “şərtli tələb” 1 saylı Əlavə protokolun 1-ci maddəsinin təsiri altına və müdafiə olunan “mülkiyyət” anlayışının əhatə dairəsinə düşmür. İHAM-ın presedent hüququnda 1 saylı Əlavə Protokolun 1-ci maddəsinin təsiri altına düşməyən “ümid” və bu maddənin təsiri altına düşən “qanuni gözlənti” kateqoriyaları fərqləndirilir. Presedent hüququnda “qanuni gözlənti” kimi tanınmış maraqların hamısı ağlabatan şəkildə əsaslandırılmış hüquqi aktda nəzərdə tutulmuşdur, möhkəm qanuni (hüquqi) əsaslara malikdir və mülkiyyətlə əlaqəlidir. Gözləntinin “qanuni” olması üçün, o, sadəcə ümidlə müqayisədə daha konkret xarakter kəsb etməli, onun əsasını hüquq norması, hüquqi akt, yaxud məhkəmə qərarı təşkil etməlidir.

Presedent hüququnda 1 saylı Əlavə protokolun 1-ci maddəsinin təsiri

baxımından “mülkiyyət” termininin təsiri altına düşən və düşməyən bir sıra digər maraqlar haqqında da hüquqi mövqelər ifadə edilmişdir. Məsələn, *Parrillo v. Italy* işində Avropa Məhkəməsi birmənalı şəkildə bildirmişdir ki, insan embrionları 1 saylı Əlavə protokolun 1-ci maddəsinin müddəaları mənasında “mülkiyyət” anlayışı ilə eyniləşdirilə bilməz, çünki həmin maddə, ilk növbədə, iqtisadi fəaliyyət sferasına aiddir. Bundan fərqli olaraq, borcun mülkiyyət anlayışı ilə əhatə olunub-olunmaması məsələsində İHAM daha detallı meyarlar tətbiq edilməli olması qənaətindədir. Məsələn, *Yuriy Nikolayevich Ivanov v. Ukraine*, *Burdov v. Russia*, *Stran Greek Refineries & Stratis Andreadis v. Greece* və s. bu kimi işlərdə İHAM qeyd etmişdir ki, əgər borc məhkəmənin qərarı ilə ödənilə bilməsi üçün kifayət qədər həcmdə müəyyən edilmişdirsə, mülkiyyət hesab edilir, bunun əksinə olaraq, əgər məhkəmənin qərarı ilə tanınmış borc yekun xarakter kəsb etmirsə və bunun nəticəsi olaraq, dərhal ödənilə bilməzsə, “icra üçün kifayət qədər müəyyən edilmiş” hesab oluna bilməz və bu səbəbdən, mülkiyyət hesab edilə bilməz.

Presedent hüququna görə, konkret situasiyalarda aşağıda sadalananlar da 1 saylı Əlavə protokolun 1-ci maddəsi baxımından mülkiyyət hesab oluna bilər:

- əqli mülkiyyət, patent hüququ, eləcə də müəlliflik hüquqları (*Anheuser-Busch Inc. v. Portugal*, yaxud *Smith Kline & French Laboratories Ltd v. the Netherlands* presedentləri);
- sosial təminatlar və pensiyalar (*Müller v. Austria*, *Wessels-Bergervoet v. the Netherlands*, *Stec & others v. the United Kingdom* presedentləri);
- kommersiya fəaliyyəti ilə məşğul olmağa hüquq verən lisenziya (*Bimer S.A. v. Moldova* presedenti);
- şirkətlərin səhmləri (*Olczak v. Poland* presedenti);
- ərizəçinin peşə fəaliyyəti nəticəsində formalaşdırılmış müştəri bazası (*Lederer v. Germany* presedenti);
- əmlakın arendası (*Stretch v. the United Kingdom*, *Bosphorus Hava Yolları Turizm ve Ticaret Anonim Şirketi v. Ireland*, *Di Marco v. Italy* presedentləri).

Mülkiyyət hüqununun təminatı baxımından İHAM-ın presedent hüququnda şəxsiyyətin öz mülkiyyətindən maneəsiz istifadə hüququna böyük əhəmiyyət verilsə də, maneəsiz istifadə hüququ, heç bir hüdud olmadan istifadəni, yəni hüdudsuz istifadəni nəzərdə tutmur. Belə ki, şəxsiyyətin öz mülkiyyətindən maneəsiz istifadə etməsi hüququ aşağıdakı hallarda məhdudlaşdırıldıqda İHAM bu məhdudlaşdırmanı yolverilən hesab edir (*Broniowski v. Poland*, *Bruncrona v. Finland*, *Immobiliare Saffi v. Italy* və s. presedentlər):

- bunu ictimai maraqlar tələb etdikdə;
- bunun üçün qanunla müəyyən edimiş şərtlərə əməl edildikdə;
- bu, mülkiyyətdən istifadə üzərində dövlət nəzarəti qaydasında həyata

keçirildikdə.

Dövlətin mülkiyyət hüququna hörmət etmək vəzifəsi sonuncu üçün həm pozitiv, həm də neqativ öhdəliklər yaradır. Mülkiyyət hüququnun təminatı ilə bağlı dövlətin neqativ öhdəliyi 1 saylı Əlavə protokolunun 1-ci maddəsinin mahiyyətindən, pozitiv öhdəliyi isə Konvensiyanın özünün 1-ci maddəsinin mahiyyətindən irəli gəlir. Belə ki, İHAM-ın rəsmi təfsirində 1 saylı Əlavə protokolunun 1-ci maddəsinin əsas məqsədi şəxsiyyəti onun öz mülkiyyətindən maneəsiz istifadə etmək hüququna dövlətin haqsız müdaxilə etməsindən qorumaqdır. Göründüyü kimi, bu yanaşma dövlət üçün neqativ öhdəlik müəyyən edir – şəxsiyyətin mülkiyyəti hüququna haqsız müdaxilə etməmək.

Lakin nəzərə almaq lazımdır ki, Konvensiyanın özünün 1-ci maddəsinə əsasən, Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün Konvensiyada müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər. Avropa Məhkəməsinin rəsmi təfsirində bu müddəa Konvensiyada nəzərdə tutulan hüquqların səmərəli həyata keçirilməsini təmin etməkdən ötrü dövlət üçün bir sıra pozitiv öhdəliklər, yəni konkret tədbirlər görmək vəzifəsi də yarada bilər.

Odur ki, İHAM tərəfindən Konvensiyanın 1 saylı Əlavə protokolunun 1-ci maddəsi Konvensiyanın özünün 1-ci maddəsi ilə bir arada nəzərdən keçirildikdə, bir qayda olaraq, belə nəticə çıxarılır ki, şəxsiyyətin öz mülkiyyətindən maneəsiz istifadə etmək hüququndan real və səmərəli şəkildə istifadə edə bilməsi üçün dövlətdən təkcə bu hüquqa haqsız müdaxilə etməmək tələb edilmir, bunun üçün bəzən dövlətdən pozitiv müdafiə tədbirlərinin görülməsi də tələb oluna bilər. Bununla əlaqədar olaraq, İHAM hesab edir ki, bəzi hallarda müıkiyyətçi öz hüququndan real və səmərəli şəkildə istifadə edə bilmək üçün, haqlı olaraq, dövlətdən müəyyən tədbirlərin görülməsini gözləyə də bilər, yəni dövlətədən haqlı gözləntilərə malik olar bilər. Bununla belə, qeyd etmək zəruridir ki, 1 saylı Əlavə protokolun 1-ci maddəsi kontekstində dövlətin pozitiv və neqativ öhdəlikləri arasındakı sərhəddi dəqiqliklə müəyyən etmək bəzən çətin olur. Bəzi hallarda bu və ya digər öhdəliyin dövlət üçün pozitiv xarakter kəsb etməsini, yaxud neqativ xarakter kəsb etməsini müəyyən etmək mümkün olmur. Odur ki, İHAM bu kimi dilemmaların həlli üçün hər iki situasiyada eyni bir meyarın, yəni vahid "ədalətli balans" meyarının tətbiq edilməli olması qənaətinə gəlmişdir. Başqa sözlə, İHAM belə qənaətə gəlmişdir ki, iş üzrə bu və ya digər öhdəliyin dövlətin pozitiv və ya neqativ öhdəliyinə aid edilməli olması məsələsi haqqında birmənalı yanaşmanın mövcud olub-olmamasından asılı olmayaraq, mülkiyyətin hüququnun pozulub-pozulmamasının qiymətləndirilməsi üçün vahid meyar tətbiq edilməlidir. Həmin vahid meyar qismində də "ədalətli balans" ideyası çıxış edir. "Ədalətli balans" meyarı tələb edir ki,

hər bir konkret iş üzrə ayrılıqda götürülmüş bir şəxsiyyətin maraqları ilə bütövlükdə cəmiyyətin maraqları müəyyən "rəqabət" vəziyyətində nəzərdən keçirilsin. İHAM hesab edir ki, qeyd edilən "rəqabət" həll edilərkən şəxsiyyətin mülkiyyət hüququ və cəmiyyətin maraqları arasında tarazlığa nail olunub-olunmamasına diqqət yetirilməlidir. Avropa Məhkəməsi, həmçinin hesab edir ki, istər pozitiv öhdəliklər, istərsə də neqativ öhdəliklər konktekstində dövlət mülkiyyət hüququna hər zaman müəyyən hüdudlarda müdaxilə etməyə haqlıdır (*Öneryıldız v. Turkiye*, *Kotov v. Russia*, *Keegan v. Ireland*, *Hatton & others v. the United Kingdom* presedentləri).

**ƏDƏBİYYAT**


1. Abdullayev, F.S. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri: [2 cilddə] / F.S. Abdullayev. – Bakı, c. 2. – 2018. – 572 s.
2. Cəfərov, İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi / İ.M. Cəfərov. – Bakı: Hüquq ədəbiyyatı, – 2013. – 724 s.
3. Əsgərov, İ.Q. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin Kommentariyası: [2 cilddə] / İ.Q. Əsgərov. – Bakı: Qanun, – c. 1. – 2014. – 948 s.
4. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A. Əsgərov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2011. – 760 s.
5. Xəlilov, Y.F. Azərbaycan Respublikası Konstitusiyasının preambulası və ümumi müddəalarının şərhi / Y.F. Xəlilov. – Bakı: Qanun, – 2007. – 248 s.
6. Алиев, Ш.М. Научно-практический комментарий к Конституции Азербайджанской Республики / Ш.М. Алиев. – Баку: Юридическая Литература, – 2000. – 728 с.
7. Кириенков, П.О. Защита права собственности по европейскому праву: / дисс. кандидата юридических наук / – Москва, 2012. – 187 с.
8. Савельева, Е.Г. Защита права собственности как одного из основополагающих прав человека: международно-правовые аспекты: / дисс. кандидата юридических наук / – Москва, 2013. – 146 с.


## НЕКОТОРЫЕ СУЖДЕНИЯ О НЕПРИКОСНОВЕННОСТИ И ЗАЩИТЫ ПРАВА НА СОБСТВЕННОСТЬ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


**Д.Р.ДАВУДОВ**


**РЕЗЮМЕ**


В статье рассмотрены некоторые вопросы одного из основных конституционных прав – права на собственность. Автор в основном сфокусировался на сущности положения о неприкосновенности собственности. Кроме того, в статье представлены некоторые суждения, связанные с гарантиями и защитой права на собственность. Автором была предпринята попытка толкования рассмотренных им конституционных, отраслевых национальных норм, а также международно-правовых норм.



**Ключевые слова:** право на собственность, права человека, Конституция, Европейский суд, прецедентное право, законодательство, толкование, правовая позиция, неприкосновенность, защита, анализ.

## SOME JUDGMENTS ON THE INVIOLABILITY AND PROTECTION OF THE RIGHT TO PROPERTY IN THE REPUBLIC OF AZERBAIJAN

**D.R.DAVUDOV**

**SUMMARY**

The article considers some issues of one of the main constitutional rights – the right to property. The author mainly focused on the essence of the provision on the inviolability of property. In addition, the article presents some judgments related to guarantees and protection of the right to property. The author attempted to interpret the constitutional, sectoral national norms considered by him, as well as international legal norms.

**Keywords:** right to property, human rights, Constitution, European Court, case law, legislation, interpretation, legal position, inviolability, protection, analysis.

**UOT 34:349.2**

# ƏMƏK FUNKSİYASININ HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN PRİNSİPLƏRİ HAQQINDA

**V.A.HÜSEYNLİ**
***vasif.a.huseyn@gmail.com***
***Bakı Dövlət Universiteti***

*Məqalədə əmək müqaviləsinin əsas şərtlərindən biri kimi işçinin əmək funksiyasının hüquqi tənzimlənməsinin prinsipləri tədqiq olunmuşdur. Ümumi hüquq nəzəriyyəsinin və əmək hüquq elminin hüququn prinsiplərinə dair müddəaları əmək sferasının inkişafının müasir tendensiyaları nəzərə alınaraq işçinin əmək funksiyasının hüquqi tənzimlənməsinin aşağıdakı prinsipləri fərqləndirilmişdir:*

*1) əmək müqaviləsində təsbit edilmiş işçi və işəgötürənin qarşılıqlı iradə ifadəsi əsasında əmək funksiyasının müəyyən olunmasının müqavilə xarakteri haqqında prinsip;*

*2) kadr potensialından səmərəli istifadəyə kömək edən əmək funksiyasının müəyyənliyi (davamlılığı) prinsipi;*

*3) işçilərdən peşəsinə, vəzifəsinə, ixtisasına uyğun istifadə prinsipi.*

*Bu prinsiplər bir-biri ilə qarşılıqlı şərtlənir və sıx bağlıdır.*

*Azərbaycan Respublikasının müasir əmək qanunvericiliyində sadalanan prinsiplər qüvvədə olan AR ƏM-də təsbit edilmiş və əmək hüququnun konstitusion və əsas prinsipləri ilə şərtlənir.*

*Məqalədə eyni zamanda əməyin azadlığı, bərabərlik, əmək funksiyasının müəyyən olunmasının müqavilə xarakteri və s. prinsiplərin mahiyyəti açıqlanmışdır. Fikrimizcə, işçinin əmək funksiyasının müəyyənliyi prinsipinin məzmunu AR ƏM-in aşağıdakı normalarında açıqlanır: 1)işçinin əmək müqaviləsi ilə müəyyən olunmuş əmək funksiyasına daxil olmayan işlərin, xidmətlərin yerinə yetirilməsindən imtina etmək hüququ, belə işləri, xidmətləri icra etdikdə isə əlavə əmək haqqının verilməsini tələb etmək hüququ təsbit edilmişdir (AR ƏM-ni 9-cu maddəsinin "ə" bəndi); 2)işəgötürən işçinin əmək funksiyasının, yəni əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə, ixtisas, yaxud peşə üzrə yerinə yetirməli olduğu müvafiq işin və ya göstərməli olduğu xidmətin dairəsini dəqiq və birmənalı müəyyən etməlidir (AR ƏM-in 57-ci maddəsinin birinci hissəsi); 3) əmək funksiyasının dəyişdirilməsinə yalnız tərəflərin qarşılıqlı razılığı ilə yol verilir. Birtərəfli qaydada əmək funksiyasının dəyişdirilməsinə, onun dairəsinin azaldılmasına və ya artırılmasına yol verilmir (AR ƏM-in 57-ci maddəsinin üçüncü hissəsi).*

*AR ƏM-in 57-ci maddəsində təsbit olunmuş əmək funksiyasının müəyyənliyi prinsipi işəgötürənin üzərinə işçiyə şərtləşdirilmiş əmək funksiyası üzrə iş təqdim etmək vəzifəsi qoyur və ona bu funksiyanın yerinə yetirilməsini tələb etmək hüququ verir (AR ƏM-in 11-ci*

*maddəsinin birinci hissəsinin "c" bəndi; AR ƏM-in 12-ci maddəsinin birinci hissəsinin "a" bəndi).*

**Açar sözlər**: əmək, işçi, əmək müqaviləsi, əmək funksiyası, hüquq, hüquqi tənzimləmə, prinsip, hüququn prinsipləri, əmək hüququnun prinsipləri, əmək funksiyasının hüquqi tənzimlənməsinin prinsipləri

"Prinsip" (prinsipium) latın sözü olub, etimoloji mənası "ilkin", "əsas", "başlanğıc", "əsas müddəa", "rəhbər ideya", "əsas davranış qaydası" terminlərinin mənası ilə eyniyyət təşkil edir.

Məlumdur ki, hüququn prinsipləri bütövlükdə hüququn, xüsusən də əmək hüququnun vahidliyi üçün son dərəcə əhəmiyyət kəsb edir. Belə ki, onlar hüquqi tənzimləmənin mənasını və hüquq normalarının sistemi kimi hüququn ümumi inkişaf istiqamətini müəyyən edir.

Hüququn prinsipləri – hüququn mahiyyətini, sosial həyatını və məqsədyönlülüyünü ifadə edən rəhbər başlanğıclar, ideyalar, əsaslardır (3, s.51).

Fəaliyyət sahəsinə görə ənənəvi olaraq prinsiplərin aşağıdakı növləri fərqləndirilir:

- ümumhüquqi prinsiplər (hüququn bütün sistemi üçün əhəmiyyətlidir);
- sahələrarası prinsiplər (hüquq sistemində bir neçə hüquq sahəsi üçün əhəmiyyətlidir);
- sahəvi (əsas) prinsiplər (hüququn konkret hər hansı bir sahəsi üçün əhəmiyyətlidir);
-hüquq sahəsinin institutlarının prinsipləri (hüquq sahəsinin bir institutu üçün əhəmiyyətlidir) (15, s.52).

Fikrimizcə, əmək hüququnun sahəvi prinsiplərinin mahiyyəti ən dolğun şəkildə aşağıdakı tərifdə ifadə olunur: "Əmək hüququnun prinsipləri əmək münasibətlərinin və onlarla bilavasitə sıx bağlı olan digər münasibətlərin tənzimlənməsində dövlətin məqsədlərini ifadə edən, ümumi məcburi normalarda təsbit edilmiş əsas başlanğıc ideyalardır" (14, s.493).

Sahəvi prinsiplərin məzmunu ayrı-ayrı institutların prinsipləri ilə daha konkret açıqlanır və tamamlanır. Əmək hüququ sahəsində alimlər əmək funksiyasının hüquqi tənzimlənməsi prinsiplərinə həmişə diqqət yetirmişlər (4, s.336; 6, s.49; 5, s.56). Əmək hüququ elminin işləyib hazırladığı bu prinsiplərə dair fikirlərin təhlili əmək sferasının inkişafının müasir tendensiyalarını nəzərə almaqla əmək funksiyasının hüquqi tənzimlənməsinin aşağıdakı prinsiplərini fərqləndirməyə imkan verir:

1) əmək müqaviləsində təsbit edilmiş işçi və işəgötürənin qarşılıqlı iradə ifadəsi əsasında əmək funksiyasının müəyyən olunmasının müqavilə xarakteri haqqında prinsip;

2) kadr potensialından səmərəli istifadəyə kömək edən əmək funksiyasının müəyyənliyi (davamlılığı) prinsipi;

3) işçilərdən peşəsinə, vəzifəsinə, ixtisasına uyğun istifadə prinsipi.

Bu prinsiplər bir-biri ilə qarşılıqlı şərtlənir və sıx bağlıdır.

Azərbaycan Respublikasının müasir əmək qanunvericiliyində sadalanan prinsiplər qüvvədə olan AR ƏM-də təsbit edilmiş və əmək hüququnun konstitusion və əsas prinsipləri ilə şərtlənir.

Hazırda əmək hüququnun ən mühüm prinsiplərindən biri Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin II hissəsində təsbit olunmuş əməyin azadlığı prinsipidir: "Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır" (1, s.14).

Əməyin azadlığı dedikdə "1) işləmək və ya işləməmək seçimini azad və müstəqil surətdə etmək imkanı; 2) hüquqi nöqteyi-nəzərdən əmək vəzifələrinin müqavilə xarakteri, müdiriyyəti müvafiq şəkildə məlumatlandırdıqdan sonra iş yerini dəyişdirmək hüququ, müəyyən edilmiş pensiya yaşına çatdıqdan sonra işləmək hüququ və sair ilə ifadə olunan fəaliyyət növünü və ya peşəni sərbəst seçmək imkanı; 3) məcburi əməyin qadağan edilməsi" başa düşülür (12, s.96).

Bu konstitusion prinsip maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını (AR ƏM-in 2-ci maddəsinin üçüncü hissəsinin dördüncü abzası) ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsinə dair əmək hüququnun əsas prinsipinə çevrilir və öz növbəsində əmək müqaviləsinin azadlığı prinsipi ilə tamamlanır. Çünki yalnız əmək müqaviləsinin tərəfləri bu müqaviləni bağlamaq, dəyişdirmək və ləğv etmək hüququna malikdirlər.

Əmək azadlığı prinsipi ilə Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin IV və V hissələrində ifadə edilmiş məcburi əməyin qadağan olunması, işçini hər hansı qaydada və üsulla zor tətbiq etməklə onun əmək funksiyasına daxil olmayan işi (xidmətləri) yerinə yetirməyə məcbur etmək, habelə əmək münasibətlərinə xitam verməklə hədələməni qadağan edən prinsiplə sıx bağlıdırlar. Hərbi və ya fövqəladə vəziyyətlə əlaqədar müvafiq qanunvericilik əsasında, habelə qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrası zamanı müvafiq dövlət orqanlarının nəzarəti altında yerinə yetirilən işlərdə məcburi əməyə yol verilir (AR ƏM-in 17-ci maddəsinin ikinci hissəsi).

AR Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrində təsbit olunmuş hamının qanun qarşısında bərabərliyi konstitusion prinsipinə və BƏT-in "Əmək və məşğulluq sahəsində ayrı-seçkiliyin qadağan edilməsi haqqında" 111 nömrəli Konvensiyasına (1958-ci il) uyğun olaraq, AR ƏM-in 16-cı madəsində əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi

və bərabərhüquqlu vəziyyətin təmin edilməsi prinsipi öz əksini tapmışdır. Qeyd etdiyimiz prinsip işçinin peşəkar keyfiyyətləri ilə bağlı olmayan üstünlüklərin və ya məhdudiyyətlərin müəyyən olunmasına yol verməyən müvafiq normativ hüquqi aktlarda təsbit olunan təminatlarla tamamlanır. Qanunvericiliklə əmək müqavilələrinin bağlanması qaydasına dair vahid tələblər və əmək müqaviləsi bağlanarkən təminatlar müəyyən olunmuşdur.

Milli qanunvericiliyin bu normaları beynəlxalq hüququn və beynəlxalq əmək hüququnun "İnsan hüquqları haqqında Ümumi Bəyannamə", BƏT-in "Əmək sahəsində təməl prinsiplər və hüquqlar və onların reallaşdırılması mexanizmi haqqında" Bəyannaməsi; BƏT-in "İcbari və ya məcburi əmək haqqında" 29 nömrəli Konvensiyası (1930-cu il) və s. kimi aktlarda təsbit olunan, hamılıqla qəbul edilmiş prinsip və normalarına əsaslanır.

AR Konstitusiyasının 147-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir (1, s.57). Öz növbəsində əmək, sosial-iqtisadi məsələlərlə əlaqədar Azərbaycan Respublikasının bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının əmək qanunvericiliyinin sisteminə daxil edilmişdir (AR ƏM-in 1-ci maddəsi).

Əmək hüququnun prinsiplərinin sisteminə təsir göstərən mühüm konstitusion prinsiplərdən biri də bərabərlik prinsipidir. Hüquq ədəbiyyatında qeyd olunan mövqeyə görə, bərabərlik prinsipi hüquqi dövlət quran Azərbaycan Respublikasının qanun qarşısında bərabərliyi müəyyən edən və şəxsi keyfiyyətlərindən asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsini təmin edən təməl prinsipdir. Məhz qanun qarşısında bərabərlik prinsipinin Azərbaycan Respublikasında hüquqi dövlətin əsasını təşkil etməsi və bu ölkədə hər bir insanın hüquq və azadlıqlarının müdafiəsinin təminatı olması fikri ilə razılaşmaq lazımdır. Burada dövlətin və cəmiyyətin cəmiyyətdə ayrı-seçkiliyə və qeyri-bərabərliyə qarşı bütövlükdə mübarizəsi sahəsində səyləri böyük əhəmiyyət kəsb edir. Bərabərlik prinsipinin müdafiəsi təkcə dövlətin vəzifəsi deyil, həm də hər bir insanın məsuliyyətidir. Hər birimiz digər insanların hüquq və azadlıqlarını tanımalı, ona hörmət etməli, eləcə də cəmiyyətdə istənilən ayrı-seçkilik və qeyri-bərabərlik hallarına qarşı mübarizə aparmalıyıq (16, s.84).

Beynəlxalq normalar əmək münasibətlərinin hüquqi tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu normalar əmək funksiyası ilə bağlı məsələləri də tənzimləyən Azərbaycan Respublikası əmək qanunvericiliyinin təkmilləşdirilməsi üçün möhkəm özül rolunu oynayan əmək hüququ sahəsində qanunvericiliyi unifikasiya etməyə imkan verən beynəlxalq sosial standartları müəyyən edir.

İşçi ilə işəgötürənin əmək müqaviləsində təsbit edilmiş qarşılıqlı iradə ifadəsinə əsaslanan əmək funksiyasının müəyyən olunmasının müqavilə xarakteri haqqında prinsipi tədqiq edərkən hazırkı işin birinci paraqrafında göstərildiyi kimi insanın əmək qabiliyyəti həm də tərəflər arasında əmək müqaviləsinin bağlanılması ilə reallaşdığını qeyd etmək vacibdir. S.N.Ereminanın fikrincə, "əmək hüququ elmində bu forma şəxsin əmək hüququnun reallaşdırılmasının aktiv forması kimi nəzərdən keçirilir" (7, s.21).

A.M.Qasımovun qeyd etdiyi kimi müəlliflərin bir qismi əmək müqaviləsinin bağlanması dedikdə, tərəflərin (işçi və işəgötürənin) əmək müqaviləsinin bütün məcburi (icbari) şərtləri barəsində razılıq əldə etməsi başa düşülür. Digərləri hesab edir ki, "əmək müqaviləsinin bağlanması işçi ilə işəgötürən arasında əmək münasibətlərinin rəsmiləşdirilməsinə yönəlmiş xüsusi prosedurdur" (8, s.182). Fikrimizcə, ikinci mövqe daha əsaslı hesab olunmalıdır.

Əmək funksiyasının müqavilə tənzimlənməsi prinsipi əmək müqaviləsinin azadlığı prinsipini tamamlayır və AR ƏM-in 3-cü maddəsinin beşinci bəndində 43-cü maddəsinin ikinci hissəsinin "e" bəndində öz təsbitini tapmışdır. Tərəflər əmək müqaviləsini bağlamalı və qarşılıqlı razılıq üzrə onun əsas şərtlərindən biri olan əmək funksiyasını müəyyən etməlidirlər. Buradan belə çıxır ki, müəyyən səbəblərdən işçi iş yerində olmadıqda işçiyə əlavə iş və ya boş (vakant) vəzifə üzrə iş tapşırmaq zərurəti yaranan hallarda əgər işçi eyni vaxtda həm özünün, həm də əvəzçiliklə boş (vakant) vəzifə üzrə əmək funksiyasını yerinə yetirirsə, bu tərəflərin qarşılıqlı razılığı və əlavə əmək haqqı ödənilməsi ilə mümkündür. İşçi boş (vakant) vəzifəni 3 aydan çox olmamaqla əvəz edə bilər. Bu müddət bitdikdən sonra ya əvəzedici işçi onun razılığı ilə həmin vəzifəyə keçirilir, ya hər iki vəzifə birləşdirilərək əvəzedici işçinin əmək funksiyasının genişləndirilməsi ilə əlaqədar yeni əmək müqaviləsi bağlanılır, ya da boş vəzifəyə yeni işçi götürülür (AR ƏM-in 61-ci maddəsinin üçüncü hissəsi).

Yalnız işçinin razılığı ilə onun əmək müqaviləsinə əlavə və dəyişikliklər edilməklə və ya yeni əmək müqaviləsi bağlamaqla işçiyə əmək müqaviləsində nəzərdə tutulmayan başqa peşə, ixtisas və vəzifə üzrə əmək funksiyalarının yerinə yetirilməsi həvalə olunan bilər. Bu başqa işə keçirmə hesab edilir (AR ƏM-nin 59-cu maddəsi). İşçinin onun razılığı olmadan istehsalat zəruriyyəti və boşdayanma hallarının qarşısını almaq məqsədilə bir ay müddətinə müvəqqəti olaraq başqa işə keçirilə bilər (AR ƏM-in 60-cı maddəsi).

Əmək müqaviləsinin digər şərtləri arasında əmək funksiyası haqqında şərt xüsusi yer tutur. Belə ki, bu əmək müqaviləsinin bir sıra digər əsas şərtlərini – iş yeri, iş vaxtının növü, əmək haqqı, əlavə məzuniyyət hüququ, əmək şəraiti, təminat və kompensasiyalar kimi şərtlərini müəyyən edir ki, bu

da əmək müqaviləsi tərəflərinin əmək funksiyalarını müəyyən etməsinin müqavilə xarakterini vurğulayır.

AR ƏM-in mühüm xüsusiyyəti kimi əmək müqaviləsini kollektiv qaydada bağlamaq imkanının olması Azərbaycan Respublikasının əmək hüquq elmində vurğulanır. AR ƏM-in 46-cı maddəsinin ikinci və üçüncü hissələrində əmək müqavilələrinin bu növünün mahiyyəti açılır, onun tərəfləri konkretləşdirilir, müqavilənin bağlanması və xitam edilməsi qaydası müəyyən edilir (8, s.182).

Kollektiv əmək müqaviləsi iki və daha çox işçi qrupu tərəfindən kollektivin (briqadanın, işçi qrupunun) hər bir üzvünün yazılığı razılığı ilə müvafiq işlərin görülməsi, xidmətlərin göstərilməsi (tikinti-təmir, yükləmə-boşaltma, məişət, ticarət, əkin-biçin, heyvandarlıq işləri) zamanı bağlana bilər. Bu halda işçilər işəgötürənlə kollektiv əmək müqaviləsi bağlamaq üçün bir nümayəndəsini müvəkkil edir (AR ƏM-in 46-cı maddəsinin ikinci hissəsi). Kollektiv əmək müqaviləsi bağlamış işəgötürən kollektivin hər bir üzvü qarşısında AR ƏM və əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərini yerinə yetirməlidir. AR ƏM-də həm də kollektiv əmək müqaviləsi bağlanmış işçilər üçün bu əmək müqaviləsinin yalnız AR ƏM-də nəzərdə tutulan əsaslarla və müəyyən edilmiş qaydada, yəni fərdi əmək müqaviləsi üçün müəyyən edilmiş əsaslar üzrə xitam verilməsi təminatı təsbit edilmişdir (AR ƏM-in 46-cı maddəsinin üçüncü hissəsi).

Fikrimizcə, bu norma olduqca mübahisəlidir. Belə ki, kollektiv əmək müqaviləsinin bağlanılması əmək müqaviləsinin əmək hüququ elmi tərəfindən işlənib hazırlanmış və əmək müqaviləsinin işlərin yerinə yetirilməsi haqqında mülki-hüquqi müqavilələrdən fərqləndirən aşağıdakı mahiyyət əlamətlərinə cavab vermir:

1) işçinin hüquq və vəzifələrinin şəxsi xarakterli olması;
2) işçinin əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını yerinə yetirmək vəzifəsi.

Bundan başqa kollektiv əmək müqaviləsi bağlanarkən əmək funksiyasının müəyyənliyi prinsipi pozulur. Belə ki, AR ƏM-in 46-cı maddəsinin ikinci hissəsində kollektivin (briqadanın, işçi qrupunun) hər bir üzvünün əmək funksiyasının kollektiv əmək müqaviləsində hansı şəkildə göstərilməsi nəzərdə tutulmamışdır.

Göstərilən əlamətlər AR ƏM-in 3-cü maddəsinin 4-1ci bəndində əmək münasibətinin leqal tərifində təsbit edilmişdir. Deməli, AR ƏM-in 46-cı maddəsinin ikinci və üçüncü hissələri 3-cü maddənin 4-1-ci bəndinin norması ilə kolliziya yaradır.

Düşünürük ki, AR ƏM-in 46-cı maddəsinin ikinci və üçüncü hissələri ilə hazırda müəyyən olunmuş şəkildə kollektiv əmək müqaviləsini Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra qısaca olaraq AR MM

adlandırılacaqdır) 39-cu fəsli ilə tənzimlənən podrat müqaviləsindən fərqləndirmək mümkün deyil. Nəzərə alsaq ki, müqavilə bağlanarkən sifarişçinin podratçı qarşısında AR ƏM-in işçiyə münasibətdə işəgötürənin üzərinə qoyduğu heç bir vəzifə və təminat yoxdur, bu halda işəgötürənlər podrat müqaviləsinə üstünlük verəcəklər. Fikrimizcə, belə vəziyyətdə işçilərin hüquqlarının təminatı qismində işəgötürənin tikinti-təmir, yükləmə-boşaltma, məişət, ticarət, əkin və ya heyvandarlıq işlərini mütəmadi həyata keçirmək zərurəti olmayan hallarda müvəqqəti işçi briqadalarının və ya müvəqqəti əmək kollektivlərinin yaradılması vəziyyətdən çıxış yolu sayıla bilər. Belə müvəqqəti işçi briqadalarının və ya müvəqqəti əmək kollektivlərinin yaradılması zamanı işəgötürən hər bir işçi ilə müəyyən vəzifə, peşə, ixtisas, kvalifikasiya üzrə onun konkret əmək funksiyasını göstərməklə müddətli fərdi əmək müqaviləsi bağlayır.

AR ƏM-də əmək azadlığı və məcburi əməyin qadağan edilməsi konstitusion prinsipləri əsasında bu mövzuya bilavasitə aidiyyəti olan əmək müqaviləsi institutunun daha bir prinsipi birbaşa təsbit edilmişdir. Bu, əmək funksiyasının müəyyənliyi prinsipidir ki, onun da məzmunu AR ƏM-in aşağıdakı normalarında açıqlanır:

1) işçinin əmək müqaviləsi ilə müəyyən olunmuş əmək funksiyasına daxil olmayan işlərin, xidmətlərin yerinə yetirilməsindən imtina etmək hüququ, belə işləri, xidmətləri icra etdikdə isə əlavə əmək haqqının verilməsini tələb etmək hüququ təsbit edilmişdir (AR ƏM-in 9-cu maddəsinin "ə" bəndi);

2) işəgötürən işçinin əmək funksiyasının, yəni əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə, ixtisas, yaxud peşə üzrə yerinə yetirməli olduğu müvafiq işin və ya göstərməli olduğu xidmətin dairəsini dəqiq və birmənalı müəyyən etməlidir (AR ƏM-in 57-ci maddəsinin birinci hissəsi);

3) əmək funksiyasının dəyişdirilməsinə yalnız tərəflərin qarşılıqlı razılığı ilə yol verilir. Birtərəfli qaydada əmək funksiyasının dəyişdirilməsinə, onun dairəsinin azaldılmasına və ya artırılmasına yol verilmir (AR ƏM-in 57-ci maddəsinin üçüncü hissəsi).

AR ƏM-in 57-ci maddəsində təsbit olunmuş əmək funksiyasının müəyyənliyi prinsipi işəgötürənin üzərinə işçiyə şərtləşdirilmiş əmək funksiyası üzrə iş təqdim etmək vəzifəsi qoyur və ona bu funksiyanın yerinə yetirilməsini tələb etmək hüququ verir (AR ƏM-in 11-ci maddəsinin birinci hissəsinin "c" bəndi; AR ƏM-in 12-ci maddəsinin birinci hissəsinin "a" bəndi).

Əmək funksiyasının tənzimlənməsinin problemli məsələlərindən biri də həm əmək müqaviləsinin bağlanılarkən, həm də əmək münasibətləri prosesində əmək funksiyasının genişləndirilməsi və dəqiqləşdirilməsidir. Bu

məsələ üzrə elmi nəşrlərdə qeyd olunur ki, "əmək müqaviləsinə işçinin vəzifəsinin, peşəsinin, ixtisasının, kvalifikasiyasının göstərilməsi ilə yanaşı, "işəgötürənin digər tapşırıqlarının yerinə yetirilməsi" ifadəsi olan əmək funksiyası haqqında şərtin daxil edilməsi əmək funksiyasının müəyyənliyi prinsipini pozduğundan, yolverilməzdir" (11, s.15-27; 10, s.25-32).

Fikrimizcə, qeyd olunan mövqeyi dəstəkləmək lazımdır. Belə ki, "işəgötürənin digər tapşırıqlarının yerinə yetirilməsi" ifadəsi əmək funksiyasını "yuyub aparır" və işəgötürənə işçiyə istənilən işi, o cümlədən onun vəzifə, peşə, ixtisas, kvalifikasiyası hüdudlarından kənara çıxan, eləcə də daha aşağı kvalifikasiya üzrə iş həvalə etməyə imkan verir.

Düşünürük ki, AR ƏM-in 57-ci maddəsinin birinci hissəsinin əmək müqaviləsində işçinin əmək funksiyalarının dairəsinin dəqiq və birmənalı müəyyən edilməsi haqqında tələbinə baxmayaraq, işçinin əmək funksiyası "işəgötürənin digər tapşırıqları" ifadəsinin müqaviləyə daxil edilməsi səbəbindən dəqiq və birmənalı müəyyən edilmiş olmayacaqdır. İşçi belə tapşırıqları, əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasına daxil olmayan tapşırıqlar kimi yerinə yetirməkdən imtina etməyə haqlıdır. Eləcə də işçi belə tapşırıqları yerinə yetirərsə, əlavə əmək haqqının ödənilməsini tələb etməkdə haqlıdır. Çünki əmək müqaviləsi bağlanarkən, həmçinin əmək münasibətlərinə xitam edilənədək işəgötürən AR ƏM ilə işçilər üçün müəyyən edilmiş hüquq və təminatların səviyyəsini aşağı salmaq hüququna malik deyil (AR ƏM-in 43-cü maddəsinin üçüncü hissəsi).

Əmək müqaviləsində əmək funksiyası vəzifə, peşə, ixtisas, kvalifikasiya vasitəsilə müəyyən edilir. Əmək müqaviləsində əmək funksiyasına dair göstəriş normativ hüquqi aktlara göndəriş (blanket) xarakteri daşıya bilər. AR ƏM-in 57-ci maddəsinin ikinci hissəsinə görə, "əmək funksiyasının həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş Vahid Tarif-İxtisas Sorğu Kitabçasına əsasən və ya işəgötürən tərəfindən müəyyən edilərək və əmək müqavilələrində təfsilatı ilə göstərilir".

Qeyd olunduğu kimi, hazırda Vahid Tarif-İxtisas Sorğu Kitabçalarının peşə standartları ilə əvəz olunması prosesi gedir. Peşə standartları konkret vəzifəni, peşəni deyil, peşə fəaliyyətinin bu və ya digər növünün funksionallığını təsvir edir ki, bu da müxtəlif vəzifələr üzrə əmək funksiyalarının təkrarlanmasını istisna edir.

Beləliklə, əmək funksiyasının müəyyənliyi prinsipi əmək müqaviləsi ilə Vahid Tarif-İxtisas Sorğu Kitabçasına və ya peşə standartlarına uyğun və ya işəgötürən tərəfindən müəyyən edilmiş, qanunla, yəni məhz əmək müqaviləsi tərəflərinin qarşılıqlı razılığı olmadan əmək funksiyasının dəyişdirilməsinə qadağa ilə təmin olunur.

Elmi ədəbiyyatda əmək funksiyasının müəyyənliyi prinsipinin tədqiq edilməsi ilə əlaqədar olaraq, işçinin səriştəliliyi və işgüzar keyfiyyətləri haq-

qında məsələ qoyulur. Adətən, səriştəlilik dedikdə, konkret işçinin konkret əmək funksiyası üzrə işi keyfiyyətli və uğurla yerinə yetirmək qabiliyyəti başa düşülür.

Avropa Parlamenti və Avropa İttifaqı Şurasının 2008-ci il 23 aprel tarixli Tövsiyəsində səriştəlilik "həm peşəkar, həm də şəxsi inkişafda iş və ya təhsil hallarında bilik, sosial bacarıq və (və ya) metodik qabiliyyətdən istifadə etmək üzrə sübut edilmiş qabiliyyət" kimi başa düşülür (13, s.15). Səriştəlilik işçinin bilməli və bacarmalı olduğu şeylər təsvir edilərkən Vahid Tarif-İxtisas Sorğu Kitabçalarında və peşə standartlarında əks olunur.

Rusiyalı müəlliflərdən S.N.Kudryaşova peşə səriştəliliyi prinsipini əmək funksiyasının tənzimlənməsinin müstəqil prinsipi kimi fərqləndirmişdir (9, s.102).

Lakin fikrimizcə, səriştəlilik əmək funksiyasının məzmununu təşkil edən, əmək müqaviləsində konkretləşən və müstəqil məna kəsb etməyən işçinin konkret vəzifəsinin, peşəsinin, ixtisasının, kvalifikasiyasının xarakteristikalarından biridir. Dəyişən əmək bazarının müasir dinamik şəraitində kadrların düzgün seçilməsi üçün işçilərin səriştəliliyinin əhəmiyyəti peşə standartlarında əmək funksiyalarının (həm ümumiləşdirilmiş, həm də konkret) təsvirində əks olunur ki, bu da işəgötürənlərə iş üçün müraciət edən namizədlər arasından daha yüksək peşəkarlıq səviyyəsinə malik olanları seçmək imkanı verir.

İşçilərin onların peşəsinə, vəzifəsinə, kvalifikasiyasına uyğun istifadə olunması prinsipi əmək funksiyasının müəyyənliyi prinsipi ilə sıx əlaqədardır. Bu prinsip işəgötürənə seçilmiş kadrları daha rasional və səmərəli şəkildə istifadə etməyə imkan verir. Belə ki, işçiyə əmək müqaviləsi ilə şərtlənməyən vəzifə, peşə, ixtisas, kvalifikasiya üzrə işin tapşırılması qaçılmaz olaraq əmək məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Hüquq Yayın Evi, - 2021, - s.14.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, - 2023, - s.14.
3. Məlikova M.F. Hüquq nəzəriyyəsi: Dərslik. - Bakı: Elm və təhsil, - 2023, - s.51
4. Александров Н.Г. Трудовое правоотношение: Монография. - Москва: Проспект, - 2008, - с.336.
5. Гейхман В.Л., Дмитриева И.К. Трудовое право: Учебник для бакалавров. - Москва: Юрайт, - 2012, - с.56.
6. Гинцбург Л.Я. Социалистическое трудовое правоотношение: Монография. - Москва: Наука, - 1977, - с.49
7. Еремина С.Н. Право человека на труд и правовые формы его реализации: Монография. - Москва: Языки славянскойкультуры, - 2013, - с.21.
8. Касумов А.М. Институт трудового договора в праве Азербайджанской Республики и РФ / Труды института государства и права РАН, - 2017, - Т. 12. - № 2, - с.182

9. Кудряшова С.Н. Трудовая функция как условие трудового договора:теория, законодательство, практика: дис. … канд. юр. наук. - Москва, - 2020, - с.102
10. Кужилина Е. Перевод сотрудника на другую работу внутри компании // Трудовое право, - 2018, - № 11, - с.25-32
11. Москалева О. Возложение на работника дополнительных обязанностей // Трудовое право, - 2016, - № 7, - с.15-27
12. Права человека: Учебник для вузов/Отв.ред. Е.А.Лукашева. - Москва: НОРМА-ИНФРА, - 1999, - с.96
13. Рекомендация Европейского Парламента и Совета Европейского Союза от 23.04.2008 г. «Об учреждении европейской квалификационной рамки для обучения в течение всей жизни» // Люксембург: Европейская комиссия. Офис официальных публикаций Европейского сообщества, - 2008, - с.15.
14. Снигирева И.О. Принципы трудового права как основа защиты трудовых прав работников и работодателей // Научные труды. Российская академия юридических наук. Вып. 17. Том 2. - Москва: Юрист, - 2017, - с.493.
15. Трудовое право: Учебник / под ред. О.В.Смирнова, И.О.Снигиревой, Н.Г.Гладкова. - Москва: РГ-Пресс, - 2016, - с.52.
16. Халилов А. И. Принцип равенства в правовом государстве. – Bakı: Qanun, - 2023, - № 3, - с.84.

## О ПРИНЦИПАХ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ФУНКЦИЙ ТРУДОВОГО ПРАВА

**В.А.ГУСЕЙНЛИ**

### РЕЗЮМЕ

В статье исследованы принципы правового регулирования трудовой функции работника как одного из основных условий трудового договора. Положения общей теории права и науки трудового права о принципах права с учетом современных тенденций развития сферы труда выделено следующие принципы правового регулирования трудовой функции работника:

1) принцип о договорном характере установления трудовой функции на основании взаимного волеизъявления работника и работодателя, закрепленного в трудовом договоре;

2) принцип определенности (устойчивости) трудовой функции, что способствует эффективному использованию кадрового потенциала;

3) принцип использования работников в соответствии с их профессией, должностью, квалификацией.

Эти принципы тесно связаны между собой и взаимообусловлены. В современном азербайджанском трудовом законодательстве эти принципы нашли свое закрепление в действующем Трудовом кодексе АР и обусловлены конституционными и основными принципами трудового права.

В статье также раскрыта сущность принципов свободы труда, равенства, договорного характера определения трудовой функции и др.

На наш взгляд, содержание принципа определенности трудовой функции работника раскрывается в следующих нормах ТК АР: 1) закреплено право работника отказаться от выполнения работ, услуг, не входящих в трудовую функцию, установленную трудовым договором, а при исполнении таких работ, услуг требовать выдачи

соответствующей дополнительной заработной платы (п. «ə» ст. 9 ТК АР); 2)- работодатель должен точно и однозначно определить предусмотренный в трудовом договоре круг трудовой функции работника, соответствующей работы, которую он должен выполнять по одной или нескольким должностям, специальностям или профессиям, либо услуг, которые должны быть оказаны (ч. 1 ст. 57 ТК АР); изменение трудовой функции допускается только с взаимного согласия сторон. Не допускается изменение трудовой функции, уменьшение или увеличение ее круга в одностороннем порядке (ч. 3 ст. 57 ТК АР).

Принцип определенности трудовой функции, закрепленный в ст. 57 ТК АР, обязывает работодателя предоставить работнику работу по обусловленной трудовой функции и дает ему право требовать ее выполнения (п. «с» ч. 1 ст. 11 ТК АР; п. «а» ч. 1 ст. 12 ТК АР).

**Ключевые слова**: труд, работник, трудовой договор, трудовая функция, право, правовое регулирование, принципы, принципы права, принципы трудового права, принципы правового регулирования трудовой функции.

## ABOUT THE PRINCIPLES OF LEGAL REGULATION OF LABOR FUNCTION

**V.A.HUSEYNLI**

### SUMMARY

The article examines the principles of legal regulation of an employee's labor functions as one of the main conditions of an employment contract. The provisions of general theories of law and scientific labor law on the principles of law, taking into account modern trends in the development of the world of work, highlight the following principles of legal regulation of the employee's labor function:

1) the principle of the contractual nature of creating a labor function on the basis of the mutual expression of will of the employee and the employer, enshrined in the employment contract;

2) certainty (sustainability) of the labor function, which allows for effective use of personnel capabilities;

3) the principle of using employees in accordance with their profession, position, qualifications.

These principles require distinctions between each other and interdependent ones. As a result of this labor legislation, these principles are enshrined in the current Labor Code of the Republic of Azerbaijan and are conditioned by constitutional and additional principles of labor law.

The article also reveals the essence of restrictions on freedom of labor, equality, contractual nature, definition of labor function, etc.

In our opinion, the content of the principle of certainty of the employee's labor function is revealed in the following norms of the Labor Code of the Republic of Azerbaijan: 1) the employee's right to payment for the performance of work and services that are not included in the labor function established by the employment contract is secured, and when performing such work and services, additional conditions are required . wages (clause "ə" of Article 9 of the Labor Code of the Azerbaijan Republic); 2) - the

employer must accurately and unambiguously determine the circular labor functionality of the employee provided for in the employment contract, the corresponding work that he must perform according to one or preferred characteristics, specialties or professions, or services that must be provided (Part 1 of Article 57 of the Labor Code) AR); Changing the labor function of the law only with mutual agreement of the parties. Do not allow changes in the labor function, reduction or increase in its scope unilaterally (Part 3 of Article 57 of the Labor Code of the Azerbaijan Republic).

The principle of certainty of the labor function, enshrined in Art. 57 of the Labor Code of the AR, obliges the employer to pay for work according to the established labor function and gives him the right to demand its implementation (clause “c”, part 1, article 11 of the Labor Code of the AR; clause “a”, part 1, article 12 of the Labor Code of the AR).

**Keywords:** labor, employee, employment contract, labor function, law, legal regulation, principles, principles of law, principles of labor law, principles of legal regulation of the labor function.

## İQTİSADİYYAT

UOT 519

# BEYNƏLXALQ İQTİSADİ FƏALİYYƏTDƏ VİRTUAL DİPLOMATİK TƏHLÜKƏSİZLİYİN TƏHLİLİ

**[1]N.D.ALLAHVERDİYEVA, [2]D.ALLAHVERDİYEV**
***[1]Bakı Dövlət Universiteti, [2]ARETN-nın İqtisadiyyat İnstitutu***
***dagbeycahani@gmail.com***

*Məqalədə virtual iqtisadi diplomatiya anlayışı, onun nüansları və ənənəvi təcrübənin fərqləndirici cəhətləri tədqiq edilir. İqtisadi informasiyanın təsiri, tənzimlənən istehsalın qlobal qarşılıqlı əlaqəsi və siyasi-iqtisadi metodları araşdırılmışdır. Tədqiqatda əsas istiqamət virtual iqtisadi diplomatiya kontekstində kibertəhlükəsizliyin mövcudluğu, səbəb və nəticə əlaqələrinin mahiyyəti, həmçinin əhəmiyyəti təhlil edilmişdir. Beynəlxalq iqtisadi fəaliyyətdə istehsal və istehlak əlaqələri, eləcə də innovasiyalı təsirlər şərh edilmişdir.*

**Açar sözlər:** innovasiyalı iqtisadiyyat, kibertəhlükəsizlik, virtual iqtisadi diplomatiya, iqtisadi məzənnə, virtual mənzərə.

## Giriş

Beynəlxalq iqtisadi fəaliyyətdə diplomatiya innovasiyalı texnika və strategiyalardan istifadə nəticəsində həyata keçirilən siyasi-iqtisadi və dövlətlər arası konfliktlərlər, ziddiyyətlərin fərqli tənzimlənməsi səciyyəvidir. Belə ki, Morgenthaunun 1947-ci ildən diplomatiyaya dair fikirlərində qeyd edilir ki, cəmiyyətin müəyyən mənafeləri uğrunda iqtisadi maraqlar naminə həyata keçirilən fəaliyyət metodu iqtisadi tərəqqini formalaşdırır (7). Beləliklə, iqtisadi diplomatiya xalqların mənafeyi üçün daxili məsulların istehsalı nəticəsində makroiqtisadi sabitliyin tənzimlənməsini zəruri hesab edir. Bu istiqamətdə Morgentau I və II Dünya müharibəsində və əvvəlki dövrdə də yeni iqtisadi diplomatiya ideyaları ifadə etmiş, dünya müharibəsindən əvvəl və sonrakı diplomatiyanı fərqləndirmişdir. Belə elmi-nəzəri fikirlər Davudun "Dövlətlər arası siyasət, güc və sülh uğrunda mübarizə" adlı əsərində öz əksin tapmışdır (5). Belə ki, iqtisadi realizm beynəlxalq münasibətlərdə siyasi-iqtisadi təzahürlərin fundamental meyarı kimi şərh edilir. Eləcə də, iqtisadi realizmin tənqidçiləri üçün, "Dövlət və siyasət" əsəri beynəlxalq siyasi-iqtisadi münasibətlərdə mühüm əhəmiyyəti və dünyanın mövcud siya-

si-iqtisadi mənzərəsində əks olunan insan rifahının tərəqqisi ilə şərtlənir. Belə ki, Morgentaunun siyasi-iqtisadi fikirləri müxtəlif ölkələrin politoloq və iqtisadçıların diqqətini cəlb etməklə, beynəlxalq iqtisadi fəaliyyətin dünyada innovasiyalı və virtual diplomatiyanın əsas hədəfi beynəlxalq terrorçuluğu neytrallaşdırmaqla insan rifahın təminatı ilə xarakterikdir.

Belə ki, dünyanın siyasi-iqtisadi mənzərəsi planetar xarakterli meyarlar bütün sahələrində sosial-iqtisadi və humanitar-məsələlər iqtisadi diplomatiyada ərzaq təhlükəsizliyi ilə şərtlənir. Belə ki, Ümumdünya Ticarət Təşkilatına (ÜTT) bərabərhüquqlu tərəfdaşlar, beynəlxalq ticarət əlaqələrinin intensivlənməsində və dünya ticarət sistemində mövcud olan ərzaq təhlükəsizliyi təcrübəsi iqtisadi diplomatiyada mühüm faktor kimi xarakterizə edilir. Bu səbəbdən də ərzaqla təminatı siyasəti və qarşılıqlı faydalı ticarətə əsaslanan üstünlüklərin səmərəli şəkildə əlaqələndirilməsi, ölkəyə keyfiyyətsiz, aşağı növlü məhsulları, habelə yerli istehsal hesabına təmin edilə biləcək məhsul növlərinin idxalı əsasında ərzaq müstəqilliyi iqtisadi diplomatiyanı zəruri etmişdir.

Beləliklə, 1945-ci illərdə ənənəvi diplomatiyanı yeni iqtisadi diplomatiya ifadəsini gizli ittifaqlarla həyata keçirən siyasi-iqtisadi diplomatiya meyarı həmrəyliklə əvəz olunduğu, iqtisadi qanunlar kimi mühüm istiqaməti əks etdirmişdir (2). Belə şəraitdə iqtisadi diplomatiya növləri sahə, məkan metod kimi müxtəlif faktorlara əsaslanan fərqli konseptual istiqaməti ifadə edir. Belə ki, ənənəvi, yeni, xalq diplomatiyasında yumşaq, ağıllı, məcburi, mədəni və açıq, qapalı, müvəqqəti iqtisadi diplomatiya əhəmiyyətli hesab edilmişdir. Bu mənada mövcud siyasi-iqtisadi şərait, tənzimlənən iqtisadi diplomatiya kimi fərqli nüanslar xarici məsulların idxalına qarşı olmaqla yerli məhsullar əsasında tərəqqi meyarları aktuallaşdırmışdır.

Beləliklə, beynəlxalq iqtisadi fəaliyyətdə Soyuq Müharibənin yekunlaşması ilə geosiyasi müəyyənliklər və qeyri-dövlət aktorlarının artan diversifikasiyası, qloballaşma, innovasiya texnologiyanın formalaşması ilə siyasi-iqtisadi dalğaya təsiri müəyyən edilmişdir (3). Belə ki, bu istiqamətdə iqtisadi diplomatiyanın metodu kimi mətbəə, kütləvi informasiya vasitələri və internet müasir kommunikasiyanın real mənzərəsində səciyyələnmişdir. Bu səbəbdən də iqtisadi diplomatiya əsasında səbəb və nəticə əlaqələri innovasiyalı subyeklərin mövcud fəaliyyətin şərhini zəruri etmişdir. İqtisadi diplomatiyanın məzmunu, forma və əhatə dairəsi bir çox faktorlarlar kimi istehsal və istehlak mübadiləsindən təsirlənmişdir. Beləliklə, beynəlxalq iqtisadi fəaliyyətdə virtual diplomatik təhlükəsizlik bu elmi istiqamətə daxil olmuş meyarlar kimi xarakterizə edilir.

Belə ki, beynəlxalq iqtisadi fəaliyyətin tənzimlənməsində sərvət meyarı və təbii sərvətin qorunması ilə şərtlənir. Bəzi iqtisadçılar, sərvəti hər bir ölkənin iqtisadi gücü və imkanlarından biri hesab edirlər. Lakin sərvət, bü-

tün insan əməyilə formalaşan və ölkənin ərazisində olan nemətlər kimi investisiya əmtəələri, istehlak meyarları, təbii sərvətlərin məcmusu kimi ifadə edilir. Beləliklə, dünya iqtisadiyyatında sərvət, əsasən ətraf mühitin mühafizəsi, habelə təbii ehtiyatların gələcək nəsillər üçün qorunması ilə səciyyələnir. Bu səbəbdən də iqtisadi sərvətin davamlı artımı dövlətin tərəqqisinə xidmət edir və vətəndaşın sosial-iqtisadi rifahını gücləndirir.

Bu konteksdə təbii ehtiyatlar cəmiyyətin təbii sərvətini təşkil edir. Fikirimizcə, təbii ehtiyatların tarazlığı zəruridir və iqtisadi proseslərdə torpağın iqtisadi münbitliyinin yüksəlməsi, meşələrin salınması ekoloji təhlükəsizliyin nəticəsi kimi səciyyələnir. Belə şəraitdə həmin ehtiyatların iqtisadi təbiəti, xarici iqtisadi fəaliyyətin obyekti deyil, həm də onun nəticəsi və istehsalda əmtəə insan əməyi ilə yaradılan sərvətin müəyyən hissəsi kimi xarakterikdir.

Belə ki, iqtisadi fəaliyyətin əsasını təşkil edən sərvəti bəzi tədqiqatçılar «məhsul-sərvət» və ya «sərvət-məhsul», kimi müqayisə etmişlər. Belə müqayisə formasında sərvət istehsal və təkrar istehsal kimi mühüm əhəmiyyəti ilə səciyyələnir. Beləliklə, beynəlxalq iqtisadi fəaliyyətin əmtəə istehsalı və sərvətin iqtisadi tərəqqisi tənzimlənərək istehlak olunmuş əmtəə hissəsində artımı şərtləndirir.

Belə ki, beynəlxalq iqtisadi fəaliyyətin tənzimlənməsinin elmi təhlilində virtual diplomatiyanın innovasiyalı subyektləri sərvəti əsasən dəyər ifadəsi ilə hesablanmasını səciyyələndirir. Bu konteksdə elmi mühakimə hesab edir ki, insan əməyinin məhsulu olmayan innovasiyalı əmtəələrin qiymətləndirilməsi ixtiyaridir. Bu səbəbdən də virtual iqtisadi diplomatiya riyazi təhlillərdə müxtəlif kəmiyyətləri qeyri-müəyyən olduğu üçün iqtisadi hesablamalarda da ixtiyari qiymətlərə istinadı xarakterikdir.

Beləliklə, virtual iqtisadi diplomatiya ümümilikdə dövlətin siyasi-iqtisadi mənzərəsində tərəqqini səciyyələndirən iqtisadi meyarların nüfuz etdirmə tempi real sosial-iqtisadi rifah mənzərə ilə adekvatdır. Bəzi iqtisadçılar bu mənzərəni makroiqtisadi göstəricilər kimi səciyyələndirirlər. Belə ki, sərvət, xalis milli məhsul, Ümumi Milli Məhsul, Ümumi Daxili Məhsul dövlət və cəmiyyətin sosial-iqtisadi rifah təminatı ən mühüm meyarlar kimi xarakterizə edilir. Belə şəraitdə ölkənin təbii sərvəti və iqtisadi potensial imkanı yetərliliyi və dövlətin antiinhisar siyasəti xüsusi innovasiyalı subyektlərin xalqın adət ənənəsinə zidd iqtisadi fəaliyyəti müəyyənləşdirir (5). Burada əsas istiqamət sosial-iqtisadi tarazlıq və onun tərəqqisi cədvəl 1-də əhatəli təsvir edilmişdir.

Cədvəl 1

**Sosial-iqtisadi tərəqqisinin makroiqtisadi meyarları**

| Meyarlar | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Ümumi daxili məhsul, milyon manat** | **109,6** | **135,9** | **15 51,9** |
| **Əhalinin hər nəfərinə hesablanan ÜDM, manat** | **105,9** | **109,5** | **1 55,19** |
| **Sənaye məhsulu, milyon manat** | **98,19** | **98,19** | **6 19,5** |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon, man** | **103,9** | **109,8** | **261,9** |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **103,9** | **103,9** | **1 55,19** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **150,9** | **155,9** | **3 97,19** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **150,9** | **159,9** | **751,9** |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **159,7** | **159,19** | **978,9** |

***Mənbə***: DSK-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təhlilərdən məlum olur ki, 2022-ci ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri 3 milyard 591,9 milyon manat təşkil edib, büdcənin icrasında 1 milyard 951 milyon manatlıq və ya ümumi daxili məhsulun 10,5 faizi qədər profisit yaranıb. 2023-cü ildə isə dövlət büdcəsinin gəlirləri dövlət borcu və zəmanətli öhdəliklərin təminatından daxilolmalar da nəzərə alınmaqla 2 milyard 759,5 milyon manat təşkil edib. Büdcə vəsaitlərinin 27,9 faizi sosial müdafiə və sosial təminatın, 19,9 faizi müdafiə və milli təhlükəsizlik tədbirləri, 12,7 faizi ümumi dövlət xidmətləri təşkil etmişdir.

Beləliklə, nemətlərdə maddiləşmiş sərvətlərlə yanaşı cəmiyyət həm də mənəvi sərvətlərə elmi, təhsil, mədəni istiqamətlərə malikdir. Sərvətin maddi əsasını istehlak meyarı təşkil edir. Qeyd etmək lazımdır ki, Marks və Keynis iqtisadiyyatın əsas meyarlarını maddi istehsalda yaranmış mənfəət əsasında təhlilini əsaslandırmışlar. Belə yanaşma Davudun təlimində də mövcud iqtisadi pirinsiplərlə şərh edilmişdir (5). Lakin Davud hesab edir ki, təsərrüfata sərf olunan qüvvə istehsal məhsuldarlığında maddi mənfəət yaradır. Bu konteksdə məlum olur ki, sərvət iqtisadi formaya malikdir və belə şəraitdə sərvət kəmiyyəti Davudun iqtisadi riyazi metodları ilə tənzimlənməni şərtləndirir (3). Burada, sərvətin tərkibi iqtisadiyyatın bütün istiqamətlərində mənfəətə, əmtəə, pul kapitalı, dövlət tənzimlənməsinin müxtəlif forması kimi maddi, sığorta, qızıl, əhatə edən ehtiyatları, təbii ehtiyatlar isə torpaq, meşələr, faydalı qazıntılar, ehtiyatlar kimi səciyyələnir.

## Beynəlxalq virtual iqtisadi diplomatiyada ərzaq təminatı

Tarixən dünya miqyasında mühüm siyasi-iqtisadi inqilabların və əks-inqilabların mövcudluğu nəticədə mütərəqqi iqtisadi tərəqqi zərurətindən formalaşmışdır. Belə ki, iqtisadi diplomatiyada siyasi-iqtisadi müqavimət artımı insan rifahının təminatında real tətbiqi şərtləndirir.

Virtual iqtisadi diplomatiya reallıqda müəllifin obrazlı fikirləri əsasında xəyali iqtisadi tərəqqi səmərəliliyinin təsviri məqsədilə vizual effektliliyi təmin edən kompleks sistem vəhdətidir. Belə ki, iqtisadi tərəqqinin real təsviri mənzərəsini formalaşdıran və iqtisadi diplomatiya müxtəlif metodlarla təsirlərin hərəkətini hiss etdirən və vizual əlaqələndirən dəqiq vasitə kimi xarakterizə edilir.

Beləliklə, mövcud siyasi-iqtisadi mənzərədə dünya ölkələrini düşündürən əsas istiqamət ərzaq təhlükəsizliyi və innovasiyalı subyeklərin iqtisadi tərəqqiyə baxışlarının müəyyənləşdirilməsidir. Belə ki, mövcud ərzaq təminatı əsasında istehsal və istehlakda generativ süni intellektin təsirlərinin iqtisadi əməliyyatlarda tədqiqi və qiymətləndirilməsi səciyyəvidir. Bu kontekstdə ərzaq təminatı innovasiyalı süni intellekt texnologiyası cəmiyyətin bütün sahələrdə yaşam tərzinə təsir etməsi kainatın ərzaq təminatı və siyasi-iqtisadi təhlükəni daha qlobal formada virtual təzahür etməsi ilə müəyyənləşir. Belə ki, innovasiyalı süni intellekt sistemləri inkişaf etdikcə ərzaq və iqtisadi təhlükəsizlikdə məxfilik qaydaları adiləşir, qərəzlilik və məsuliyyətli baxışlar, virtual təminatı getdikcə daha da aktuallaşdırır. Bu konteksdə süni intellekt, innovasiyalı sistem ərzaq təminatı, bank və pul-kredit siyasətində insan hüquqları sahəsində müxtəlif virtual metodlarla təsirləri müəyyən edilir ki, belə hallarda ölkənin makroiqtisadi sabitliyini pozur, insanlarda dövlət siyasətinə və dövlət hakimiyyətinə inamsızlıq formalaşdırır. Bu konteksdə ölkənin siyasi-iqtisadi müqaviməti innovasiyalı subyeklərin fəaliyyətinə nəzarəti gücləndirməklə, həmin xidmətdə olan şəxslərin siyasi-hüquqi məsuliyyətin artırılmasını şərtləndirir.

Belə ki, virtual istiqamətdə müəyyən təcrübəyə və elmi nəzəri biliklərə, analtik təfəkkürə malik olan hər bir şəxs bu tendensiyanı cəmiyyət, qrup və fərdlərin hərəkət davranışında, eləcə də innovasiya subyeklərinin qərarlarında qərəzlilik riskini müşahidə edə bilir. Beləliklə, innovasiyalı subyektlərin qərəzli fəaliyyətləri xalqın adət-ənənəsinə zidd, ailə dəyərlərinə yad mentalitetin nüfuz etdirilməsi kimi "xidmətlər" Azərbaycan Respublikasının cinayət məcəlləsində təsbit edilmiş dövlətə və xalqa xəyanət kimi qiymətləndirilir. Eləcə də innovasiya subyeklərinin "xidməti fəaliyyət", süni intellekt mütəxəssisləri mövcud siyasi-iqtisadi miqyasda "Robortlaşdırma" cəmiyyəti formalaşdırır ki, bunlar da bəşəriyyət üçün təhdid kimi səciyyələnir. Belə suni intelekt və innovasiyalı subyeklərin fəaliyyət nəticəsi müxtəlif ta-

rixi rəvayətlərlə və əfsanələrlə şərh edilsə də, reallıqda bəşəriyyət üçün təhlükəli təsirlər kainat üçün narahatedici faktorlarla şərh edilir. Belə tendensiyaları virtual iqtisadi əməliyyatların tədqiqi əsasında qiymətləndirilməsi əhəmiyyətlidir, lakin bu fəaliyyət insan rifahının tərəqqisinə xidmət edirsə məqbul hesab edilir (5).

Bu istiqamətdə xüsusi məlumata və biliyə malik olan Heydər Əliyev qeyd edirdi ki, "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə qəbul edə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlər sırasında xüsusi hörmətə malikdirlər (6). Çünki görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini dünyaya nümayiş etdirir. Ziyalıların, mədəniyyət və elm xadimlərinin cəmiyyətdə nüfuzun qaldırmaq lazımdır. Ziyalı kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist bunlar fitri istedada malik olan adamlardır". Bu səbəbdən də ölkə prezdentimiz İlham Əliyev qeyd edir ki, "Dövlətin tərəqqisi üçün elm inkişaf etməlidir". İsa peyğəmbər də qeyd edirdi ki, "Dünyaya bəxş olunan ilk nemət elmdir".

Virtual iqtisadi diplomatiyada əməliyyatların tədqiqi, təhlili layihədə, biznes təşəbbüsündə və qərar tələb edən, iştirak edən güclü, zəif tərəfləri, imkanları və təhdidləri qiymətləndirmək üçün istifadə edilən strateji planlaşdırma vasitəsidir. Bu metodologiya virtual iqtisadi diplomatik missiyaların üstünlüklərini və çatışmazlıqlarını qiymətləndirmək üçün istifadə edəcəkdir. Beləliklə, iqtisadi əməliyyatların tədqiqi və təhlili metodologiyasından istifadə bizə virtual diplomatik missiyaların xassələrinə daha ətraflı formada nəzər etmək təsvirin meyarları əsasında müəyyən edilir.

| SİYASİ-İQTİSADİ TƏHLİL | |
|---|---|
| **GÜCLÜ TƏRƏFLƏRİ** | İqtisadi rifah<br>Məlumatlandırıcı<br>Dəqiqlik<br>Mövcudluq |
| **SİYASİ-İQTİSADİ TƏRƏFLƏRİ** | Şəxsiyyət məmnunluğunun təmin edilməsi.<br>Əlavə təsirlər.<br>Məhdudlaşdırma |
| **ÜSTÜNLÜKLƏR** | Beynəlxalq mövcudluq,<br>Yeni bazar imkanları,<br>Reklam üçün əlavə vasitə |
| **TƏHLÜKƏLƏR** | Məlumatın yanlış təfsiri |

***Təsvir***: Müəllif tərəfindən tərtib edilmişdir.

Virtual iqtisadi diplomatik münasibətlərə, kibercinayətkarların təsiri və yersiz müdaxilələri neytrallaşdırmaq üçün siyasi-iqtisadi müqavimətin

gücləndirilməsi istiqamətində beynəlxalq dəstəyi şərtləndirir. Belə ki, iqtisadi diplomatik müzakirələr innovasiya subyeklərin məsuliyyətinin artırılması və onlarla təlim-tərbiyəvi işin təşkili, etik qaydalara riyayət normaların yaradılması ilə səciyyələnir.

## Virtual iqtisadi diplomatiyada innovasiya

Belə ki, iqtisadi diplomatik nümayəndəliklər üç əsas istiqamətdə təsnifləşir, səfirliklər, konsulluqlar və daimi nümayəndəliklərdən ibarətdir. Bu konteksdə virtual iqtisadi diplomatik fəaliyyətin missiyası təsvir edilmiş və onların xidməti funksiyal vəzifə səlahiyyətləri çərçivəsində təhlili səciyyəvidir. Belə virtual iqtisadi diplomatik fəaliyyətin ənənəvi missiyası tədricən digər şəxsi mənafelərin istiqamətlənməsini müəyyən etməyi şərtləndirir. Beləliklə, müşahidələrə əsasən iqtisadi diplomatik mənzərə proteksionizmi pirinsiplərinə əsasən xarici malların ölkəyə gətirilməsini məhdudlaşdırmaqla yerli məhsullara dəstək zərurətini əks etdirir. Yəni daxili bazarın xarici təsirlərdən qorunması ilə şərtlənir.

Beləliklə, virtual iqtisadi diplomatiyaya müxtəlif təsirlər və innovasiyalı əsrdə təqdim olunan texnologiya ilə iqtisadi əlaqələrin tərəqqi istiqamətli tənzimlənməsini səciyyələndirir. Belə iqtisadi diplomatiyada məsafədən izləmə proqramı inteqrasiya etməklə virtual missiyaların niyyətini müəyyən edir. Bu konteksdə Davud, iqtisadi diplomatik proqramların nə dərəcədə zəngin olmasına baxmayaraq, yaradanın da tənzimləyici missiyasının mövcudluğunu xarakterizə etmişdir.

Bununla belə virtual diplomatik nümayəndəliklərin mütərəqqi fəaliyyəti iqtisadi tərəqqi və əlverişli iqtisadi münasibətlər konteksində insan rifahı ilə şərtlənir. Belə ki, dünyanın müxtəlif ölkələrində internetdən istifadənin intensivliyi virtual diplomatik nümayəndəliklərin fəaliyyətində iqtisadi səmərəliliyi formalaşdırmaqla səciyyələnir. Bu konteksdə sosial şəbəkələrdən əldə edilən mənfəət virtual iqtisadi diplomatiya dünyanın siyasi-iqtisadi şəraitində mövcud reallıqlar kimi səciyyələnir. Lakin sosial şəbəkələrdən əldə edilən mənfəət meyarı fiziki diplomatik missiyaları əvəz edə bilmir, bu tarazlıq həm virtual, həm də fiziki iqtisadi diplomatik missiyalar birlikdə tənzimlənməni şərtləndirir.

## Virtual iqtisadi diplomatiya və sosial şəbəkə təhlükəsizliyi

İqtisadi diplomatik fəaliyyət yeni siyasi-iqtisadi mövzuları formalaşdırır və innovasiyalaşmanın qlobal idarəetməyə daha da çox təsir etməsinə səbəb olur. Beləliklə, siyasi-iqtisadi meyarların ənənəvi sərhədlərini aşdığı və ümumi beynəlxalq səylər tələb edən, yeni dövrün virtual iqtisadi diplo-

matik təhlükəsizlik meyarı kimi xarakterizə edilir. Belə aktual mövzularda kibertəhlükəsizlik mühüm meyar milli təhlükəsizliyə və qlobal sabitliyə ciddi təhdidlər kimi səciyyələndirilir. Belə ki, iqtisadi diplomatiyada infrastrukturu hədəf alan kiberhücumlar siyasi-iqtisadi təhlükə mənbəyi kimi süni intellekt texnologiyalarının etik davranışını zəruri edir və yeni aktuallaşan siyasi-iqtisadi mövzularında tədbirləri şərtləndirir.

Beləliklə, virtual iqtisadi diplomatiyada innovasiya texnologiyaların yaratdığı ticarət qlobal ticarətin təməl pirinsipi kimi istehlakçıların müdafiəsi və innovasiya bazarda haqsız rəqabətin aradan qaldırılması üçün tənzimlənməni zəruri edir. Virtual iqtisadi diplomatiyada cəmyyət üçün təhlükə hesab edilən e-ticarət meyarında qeyri-bərabərlikləri tənzimləyən və tarazlığı zəruri edən alqı satqısı olmayan sədaqət pirinsipi ilə şərtləndirir.

## İqtisadi diplomatik fəaliyyətdə tarazlığın tənzimlənməsi

İnternet və innovasiya texnologiyaları diplomatik fəaliyyəti insan rifahının tərəqqisi üçün yeni imkanların formalaşdırılması ilə səciyyələnir. Bu meyarlar innovasiyalaşma diplomatiyasında, eləcə də müxtəlif maraqlı tərəflərin daha intensiv ünsiyyət qurmağa şərait formalaşdırılması ilə mümkünləşir. Bu, iqtisadi diplomatik münasibətlərdə informasiyanı, əməkdaşlığı, şəffaflığın keyfiyyətini və kəmiyyətini daha da aktuallaşdırır. Belə şəraitdə iqtisadi diplomatlar dəyişən mühitə uyğunlaşmalı və onların effektivliyini, səmərəliliyini artırmaq üçün innovasiyalaşmanın yaratdığı riskləri və çətinlikləri idarə etməlidirlər.

Ümumiyyətlə, internet və innovasiya texnologiyaların yaranması diplomatiyanın fəaliyyət mənzərəsini dəyişərək qlobal miqyasda siyasi, sosial və iqtisadi qarşılıqlı əlaqələri yenidən formalaşdırmışdır. Təkmilləşdirilmiş kommunikasiya vasitələri və platformaları ani əlaqəni asanlaşdırmaqla diplomatlara coğrafi sərhədləri ötməyə və real siyasi-iqtisadi şəraitə uyğun müzakirələr təşkil etmək üçün diplomatik dialoqun tempini tarazlaşdırmaqla tənzimlənir.

İnnovasiya iqtisadi tənzimləmədə məlumatın ötürülməsində diplomatik prosesləri, ictimai nəzarəti şəffaflaşdırır və bərabərlik hissini gücləndirir (1). Bununla yanaşı, sosial-iqtisadi konteksdə diplomatların vətəndaşlarla ünsiyyət səlahiyyəti formalaşdırır və ictimai iştiraka, xarici siyasi qərarları real şəraitə uyğun balanslaşdırır. Belə ki, innovasiya vasitələrin yayılması diplomatik üstünlüklər, texnoloji naliyyətlərdən istifadə etmək üçün ölkələr arasında rəqabətin artmasına səbəb olur.

Beləliklə, innovasiya texnologiyaların sürətli təkamülü diplomatik münasibətlərdə qeyri-müəyyənlikləri tənzimlənməsini şərtləndirmişdir. Belə ki, kibertəhlükəsizlik, məlumat məxfiliyi və dezinformasiya ilə əlaqəli mə-

sələlər diplomatik kommunikasiyaların təhlükəsizliyini təmin etmək üçün aktual tendensiyaların tənzimlənməsini zəruri etmişdir. Diplomatik qurumları hədəf edən kiberhücumların əhəmiyyəti təhlükə mənbəyi kimi xarakterizə edilir. Bu konteksdə siyasi-iqtisadi məlumatlar diplomatik əlaqələri qorumaq üçün güclü kibertəhlükəsizlik tədbirlərinin tənzimlənməsi ilə səciyyələnir. Bununla da, innovasiya iqtisadi diplomatiyada beynəlxalq əməkdaşlıq üçün əhatəli imkanları formalaşdırır ki, bu şəraitdə iqtisadi səmərəlilik üçün istehsal və istehlakçı tarazlığını tənzimləyir. İnnovasiyalı meyarlar iqlim dəyişikliyi, kibertəhlükəsizlik təhdidləri və sağlam mühiti balanslaşdırmaqla iqtisadi səmərəliliyin formalaşmasına imkan yaradan çoxtərəfli dialoqları və diplomatik əlaqələrin tarazlığını zəruri edir.

Beləliklə, ümumilikdə innovasiyanın iqtisadi diplomatiyaya təsiri əhatəliliyi və çoxcəhətliliyi ilə səciyyələnir. Belə ki, dövlətlər və xalqlar arasında ünsiyyəti, şəffaflığı, iqtisadi əməkdaşlığı intensivləşdirməklə yanaşı qlobal siyasi-iqtisadi diplomatik münasibətlərdə artan rəqabəti və qeyri-müəyyənliklər də daxil olmaqla problemlərin tənzimlənməsi ilə şərtlənir. Belə siyasi-iqtisadi mənzərə innovasiyalı iqtisadi diplomatiyada ehtimal edilən riskləri neytrallaşdırmaqla iqtisadi effektliyin təmin edilməsi ilə tənzimlənir. Beləliklə, iqtisadi diplomatiya innovasiyalı əsrdə sülhə, əməkdaşlığa və qarşılıqlı anlaşmaya kömək edən və beynəlxalq əlaqələrdə davamlı iqtisadi tərəqqini təmin etməyi tələb edir.

## Virtual iqtisadi diplomatiya anlayışında innovasiya

Belə ki, qabaqcıl kommunikasiyalar iqtisadi diplomatiya siyasi-iqtisadi şəraitdə insan rifahının tərəqqisini şərtləndirir. Bu səbəbdən də iqtisadi diplomatiya innovasiyalı əsrdə tədricən yeni iqtisadi rifahı tələb edir. Beləliklə, innovasiyalı iqtisadi diplomatiyada fiziki mövcudluğu tələb edən bir çox meyarları virtual formada mövcud rifah artımı ilə tarazlaşır.

Belə ki, hələ teleqrafın icad edilməsi ilə iqtisadi diplomatiya sənaye inqilabdan qaynaqlanaraq məlumatları bir neçə dəqiqədə daha keyfiyyətli qiymətə əldə edilməsi ilə səciyyəvidir. Beləliklə, mobil görünüşlü ünsiyyət virtual iqtisadi diplomatiyada yeni imkanlar formalaşdır ki, ani səsli, görüntülü ünsüyyət innovasiyalı siyasi-iqtisadi tərəqqini şərtləndirmişdir. Belə innovasiyalı siyasi-iqtisadi tərəqqi virtual diplomatiyada qısa müddətdə böyük məsafələri qət etmək imkanı yaratmış və beynəlxalq əlaqələrin intensivliyini formalaşdırmışdır.

Beləliklə, telefon rabitəsinin tətbiqi diplomatik müzakirələri daha da intensivləndirdi və dövlət nümayəndələri ilə daha sürətli dialoqa imkan yaratmışdır. Belə şəraitdə internetin meydana gəlməsi virtual diplomatik münasibətlərdə əsaslı inkişafa səbəb olmuşdur. Belə ki, e-poçt rabitəsi sürətlə

diplomatik yazışmalar üçün nümunəvi vasitəyə kimi qəbul edildi. Eləcə də sosial media diplomatiyada rol oynamağa başladı, ictimai diplomatiya və qlobal auditoriya ilə əlaqə üçün yeni imkanlar təklif etdi. Diplomatlar bu platformalardan məlumat yaymaq, vətəndaşlarla ünsiyyət qurmaq və ölkələrinin xarici siyasəti haqqında ictimai təsəvvürləri yaratmaq üçün əlverişli şərait formalaşdırdı.

Bu səbəbdən də innovasiya və kommunikasiya texnologiyaların intibahı virtual iqtisadi diplomatiyada informasiya inqilabını səciyyələndirmişdir. Beləliklə, beynəlxalq münasibətlərin tərəqqisinə uyğunlaşmalar xarici siyasi-iqtisadi fəaliyyətdə yeni dalğaların formalaşmasını zəruri etmişdir.

Belə şəraitdə virtual innovasiyalı iqtisadi diplomatiya tərəqqisi informasiyanı iqtisadi güc və siyasi-iqtisadi təsir vasitəsi kimi səciyyələndirdi. Beləliklə, beynəlxalq güc mövcud dünyanın kommunikasiya infrastrukturuna əlçatanlıq və ölkələrin texnologiya baxımından üstünlüyü kimi müəyyən edilir. Belə ki, ənənəvi hərbi və maliyyə gücləri yumşaq siyasi-iqtisadi güclə əvəzlənməsi səciyyəvi hesab edilirdi. Bu səbəbdən də virtual iqtisadi diplomatiya "Yumşaq güc beynəlxalq münasibətlərdə məcburiyyətdən fərqli olaraq inandırma yolu ilə istənilən nəticələrə nail olmaq bacarığı kimi xarakterizə edilir. İqtisadi diplomatiya planlaşdırılan davranışın norma və pirinsiplərə əməl etməklə, innovasiya şəraitdə duyğuların məlumatın bilgisinə diqqət yetirməklə yumşaq gücü daha effektli edir". Beləliklə, innovasiyalı əsrin təkamülü iqtisadi diplomatiyaya əhəmiyyətli təsir edən informasiya inqilabının formalaşma mərhələsi kimi mövcud siyasi-iqtisadi şəraitdə yeni virtual diplomatiya növünü şərtləndirdi.

Belə ki, virtual iqtisadi diplomatiya 1997-ci ildə ABŞ-ın Sülh İnstitutunun (USIP) prezidenti Riçard H. Solomon virtual diplomatiyanı "canlı ünsiyyətdən daha çox elektron vasitələrlə vasitəçilik edilən sosial, siyasi-iqtisadi qarşılıqlı əlaqələr" kimi müəyyən etmişdir.

İqtisadi tərəqqidə innovasiya texnologiyaların əhəmiyyətini təhlil etmək üçün Birləşmiş Ştatların Sülh İnstitutu tərəfindən irəli sürülən və təşviq edilən "Virtual İqtisadi Diplomatiya Təşəbbüsü" aşağıdakı kimi müəyyənləşmişdir.

Qlobal mənada virtual iqtisadi diplomatiya şəbəkələşmiş qlobusun yaranması ilə əlaqəli siyasi-iqtisadi reallığı əks etdirən termin kimi qəbul edilir. Bu termin beynəlxalq münasibətlərdə innovasiya, informasiya və kommunikasiya texnologiyalarının köməyi ilə həyata keçirildiyi qərarların qəbul edilməsi, əlaqələndirilməsi, ünsiyyəti və təcrübəsini əhatə edir (ABŞ-ın Sülh İnstitutu, 2006).

Virtual iqtisadi diplomatiya reallaşan ictimai münasibətlər anlayışıdır. Davud tərəfindən Virtual Diplomatiya Təşəbbüsünə verdiyi hesabatda diplomatiyanın tərifi bu aspektə istinad edilir. Belə ki, virtual diplomatiya hələ

qədim dövrlərdə də, iqtisadi siyasət kimi qəbul edilən, lakin mövcud şəraitdə iqtisadi fəaliyyətin reallığını əks etdirir.

Virtual iqtisadi diplomatiya ənənəvi siyasi funksiyaların təkmilləşməsi əsasında nümayəndəlik, danışıqlar, hesabat, asanlaşdırma və koordinasiyanı təşkil edir. Belə ki, virtual iqtisadi diplomatiya yerli ictimaiyyəti birləşdirir, qlobal media və informasiya texnologiyaları vasitəsilə həyata keçirilməsi iqtisadi təhlükəsizlik riskini tənzimləyir.

Bu səbəbdən də Heydər Əliyev Azərbaycanın müstəqilliyi naminə qeyd edirdi ki, "Bizim əsas məqsədimiz, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirməkdir. Biz bunu etmişik və artıq Azərbaycan dövlətinin müstəqilliyi sarsılmazdır, dönməzdir və əbədidir". Beləliklə, virtual iqtisadi diplomatiya mənzərəsində Azərbaycan çox mühüm mövqeyə malikdir, beynəlxalq təşkilatların tərəfdaşıdır və bütün dövlətlər tərəfindən qəbul edilir.

Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi Azərbaycanın gələcəyinə, onun beynəlxalq miqyasda inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəltməsi diplomatik məharətinin nəticəsi kimi xarakterikdir. Belə xidmətlər əsasən beynəlxalq virtual iqtisadi diplomatiyada, davamlı iqtisadi tərəqqini və insan rifahını əhatə etmişdir. Azərbaycanın dövlət müstəqiliyyinin təmin olunmasına sosial, siyasi-iqtisadi sahədə xidməti və insan rifahının tərəqqisi Prezident İlham Əliyev tərəfindən beynəlxalq diplomatiya mənzərəsində yüksək məharətlə təmin edilmişdir. Bu siyasətin təməlində Azərbaycanın müstəqilliyinin qorunması, iqtisadi tərəqqisi və xalqın maddi rifah təminatı təşkil edir. Belə ki, Azəbaycanın ərazi bütövlüyü uğrunda müharibədə əldə edilən naliyyət, zəfər hərbi-diplomatik qələbə kimi səciyyələnmişdir. Beləliklə, İlham Əliyevin siyasi-ideolojiyasının hədəfi iqtisadi diplomatiya və beynəlxalq münasibətlərdə mühüm əhəmiyyəti kimi ölkənin ərazi bütövlüyü konteksində iqtisadi tərəqqini şərtləndirmişdir. Belə iqtisadi diplomatiya nəticələri;

Azərbaycana qarşı məkrli siyasi-iqtisadi məhdudiyyətləri aradan qaldırdı, Azərbaycan Cənubi Qafqazda iqtisadi güc faktoru ilə yanaşı siyasi güc faktoru kimi qəbul edildi, Azərbaycanın dünya ölkələrində və Avrasiya məkanında həlledici nüfuzu qəbul edildi.

Beləliklə, ənənəvi diplomatik təcrübədən virtual diplomatik təcrübəyə keçid təkamülü, əsasən qlobal sərhədləri keçən məktubların daşıdığı qədim dövrləri əhatə edən beynəlxalq iqtisadi münasibətlər tarixində əks edilir. Belə ki, virtual iqtisadi diplomatiya dövlət münasibətlərində siyasi-iqtisadi əlaqələrdə qarşılıqlı fəaliyyətə və siyasi yazışmalara, fiziki səfirlikləri əhatə edən protokol və formallıqlarla zəngin olan metodlarla xarakterizə olunur.

Mövcud şəraitdə virtual iqtisadi diplomatiya mərhələsi bütün dünya ölkələrində siyasi diplomatik əlaqələrin təhlükəsiz mübadilələrin intensivliyi

xüsusi diplomatik innovasiyalı şəbəkələrin yaradılması ilə səciyyələnir. Belə ki, iqtisadi diplomatiyada virtual görüşlər, telekonfranslar və video diplomatiya tədricən iqtisadi ünsiyyəti əvəz edərək beynəlxalq danışıqlar üçün səmərəli və alternativ forma kimi xarakterikdir. Belə virtual diplomatiya beynəlxalq münasibətlərdə çeviklik və əlçatanlığın təşkilində səmərəliliyi iqtisadi diplomatiyanın zəruri istiqaməti kimi şərtlənir.

## Nəticə

Virtual iqtisadi diplomatiya təcrübəsi xalqların siyasi-mədəni əlaqələri formalaşdırır və innovasiyalı makroiqtisadi səmərəliliyin davamlılığını təşkil edir. Belə ki, iqtisadi diplomatiya qarşılıqlı fəaliyyətin sürətini, əhatə dairəsini və siyasi-iqtisadi şəraiti tənzimləməklə innovasiyalı diplomatiyada effektlik yaradır.

Beləliklə, bərpa olunan enerji tarazlığı iqtisadi səmərəliliyin təşkilində keyfiyyətli və davamlı qiymət artımı ilə şərtlənir. Belə ki, Lütvizadənin qeyri-səlis məntiqi mühakiməsinə əsasən iqtisadi tarazlıq siyasi hüquqi tənzimlənmənin zəruri keyfiyyət qiyməti ilə ƏDA III formulunun şərti əsasında makroiqtisadi səmərəliliyi əks etdirir. Bu konteksdə iqtisadi müqavimət bərpa olunan enerji təminatında ixtiyari ədədlərdə fokuslaşaraq, Dİ formulunda sabitləşərək tənzimlənən enerjinin ƏDA balansında tarazlaşır.

Beləliklə, ƏD iqtisadi müqavimətə davamlı qoşulmuş, ƏDA müqaviməti ilə ƏDA III qrupunda qərarlaşmanı şərtləndirmişdir. Belə ki, NAD müqavimətində bərpa olunan enerji təminatını idarə etmək və onun maksimal qiymət artımını təşkil etmək iqtisadi səmərəliliyi formalaşdırır. Bu konteksdə iqtisadi tarazlıq balanslaşır və ƏDA qiymət artımına uyğun olaraq NDA müqavimətində formalaşan enerji təminatı siyasi-iqtisadi gərginliyi tənzimləyir. Belə ixtiyari yanaşmanın ƏDA müəyyənliyi əsasında iqtisadi səmərəliliyin qiymət tarazlığı, davamlı sosial-iqtisadi rifah təminatını şərtləndirir.

Qəbul edilmiş iqtisadi təhlillər mövcud müqaviməti ilə müəyyən olunmuş qiymət artımı ƏDA iqtisadi effektliyi formalaşdırır. Belə tarazlıq virtual diplomatiyada siyasi-iqtisadi səmərəliliyi və insan rifahında bərpa olunan enerjinin artımını şərtləndirir.

Beləliklə, iqtisadi diplomatiya qlobal effektiv fəaliyyəti tənzimləyir. Bu konteksdə virtual diplomatiyanın təkamülü əhatəli iqtisadi tərəqqi ilə reallaşır və insan rifahında innovasiyalı mütərəqqi perspektivin təşkilini şərtləndirir. Belə virtual iqtisadi diplomatiya coğrafi maneələri fəth edərək daha çevik siyasi-iqtisadi səmərəlilik formalaşdırır və diplomatik fəaliyyətdə iqtisadi mənafeləri təmin etmək potensialına malik hesab edilir.

Beləliklə, innovasiyalı virtual iqtisadi diplomatiya təcrübə təklif, diplomatik konfransların, danışıqların və mədəni mübadilələrin canlı ünsüyyətini və siyasi-iqtisadi tarazlığı gücləndirməklə səciyyələnir. Belə şərait

aşağıda qeyd edilən müddəaları şərtləndirir.

Virtual iqtisadi diplomatiyanın intensivliyi qarşılıqlı əlaqələrin reallığını intensivləşdirir.

Fərqlənən iqtisadi diplomatiyada virtual məkanların mədəni həssaslığı qorunması ilə şərtlənir.

Mədəniyyətlərin siyasi-iqtisadi təlim innovasiyalı şərait diplomatiya üçün zəruri hesab edilir.

Virtual iqtisadi diplomatiyanın naliyyətləri ənənəvi siyasi bacarıqlar əsasında yenidən müəyyənləşir.

Nəticədə innovasiyalı subyektlər etik prinsipləri tənzimləməli və ənənəvi iqtisadi diplomatik təcrübələr əsasında siyasi-iqtisadi fəaliyyəti güclənməklə tərəqqili gələcəyin fokuslaşmasını şərtləndirir.

## ƏDƏBİYYAT


1. Əliyev İ.H. İnkişaf məqsədimizdir. – Bakı, - 2019.
2. Məmmədov N.İ. Geosiyasətə giriş. – Bakı, - 2021.
3. Əlirzayev Ə. Sosial-iqtisadi rifah və idarəetmənin əsas prinsipləri. - Bakı, - 2019.
4. Əliyev İ.H. Milli iqtisadi tərəqqinin formalaşması və pirinsipləri. – Bakı, - 2019.
5. Allahverdiyev D.İ. Dünya iqtisadiyyatı: İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər. – Bakı, - 2022.
6. İsmayılov M.H. Azərbaycanın iqtisadi əməkdaşlığı yeni müstəvidə. - Bakı, - 2015
7. Əliyev F.Ə. Azərbaycan elminin inkişaf Perspektivləri. - Bakı, - 2015


## АНАЛИЗ ВИРТУАЛЬНОЙ ДИПЛОМАТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В МЕЖДУНАРОДНОЙ ЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ


**Н.Д.АЛЛАХВЕРДИЕВА, Д.АЛЛАХВЕРДИЕВ**


### РЕЗЮМЕ


В статье рассматриваются концепция виртуальной экономической дипломатии, ее нюансы и отличительные особенности от традиционных практик. Исследовано влияние экономической информации, глобального взаимодействия регулируемого производства и политико-экономических методов. Основным направлением исследования было существование кибербезопасности в контексте виртуальной экономической дипломатии, а также анализ природы и важности причинно-следственных связей. Были интерпретированы отношения производства и потребления в международной экономической деятельности, а также инновационные эффекты.



**Ключевые слова:** инновационная экономика, кибербезопасность, виртуальная экономическая дипломатия, экономический обменный курс, виртуальный ландшафт.

## ANALYSIS OF VIRTUAL DIPLOMATIC SECURITY IN INTERNATIONAL ECONOMIC ACTIVITY

**N.D.ALLAHVERDIYEVA, D.ALLAHVERDIYEV**

**SUMMARY**

The article examines the concept of virtual economic diplomacy, its nuances and distinctive aspects of traditional practices. The influence of economic information, the global interaction of regulated production, and political-economic methods has been investigated. The main direction in the study was the existence of cyber security in the context of virtual economic diplomacy, and the nature and importance of cause and effect relationships were analyzed. The relations of production and consumption in the international economic activity, as well as the innovative effects, were interpreted.

**Keywords:** innovation economy, cyber security, virtual economic diplomacy, economic exchange rate, virtual landscape.

**UOT 33**

# KƏND TƏSƏRRÜFATINDA BAZAR İNFRASTRUKTURUNUN FORMALAŞMASININ BƏZİ XÜSUSİYYƏTLƏRİ

**M.Ü.ƏLİYEV**
***Odlar Yurdu Universiteti***
***muzaffaraliyev1976@gmail.com***

*Tədqiqatın məqsədini – müasir şəraitdə kənd təsərrüfatının bazar infrastrukturunun formalaşması xüsusiyyətlərinin elmi-nəzəri baxımdan araşdırılması təşkil edir. Məqalədə bazar infrastrukturu kateqoriyasının mahiyyəti haqda yerli və xarici ölkə alimlərinin yanaşmaları təhlil edilir, bazar infrastrukturunun funksiyaları, kənd təsərrüfatı məhsulları bazarının tərkib elementləri, onun formalaşmasına təsir edən amillər açıqlanır. Eyni zamanda, kənd təsərrüfatı xammalı və ərzaq məhsullarının malik olduğu özünəməxsus xüsusiyyətlərin bazar infrastrukturunun formalaşmasına olan təsiri araşdırılmaqla, bu sahədə səmərəli modelin yaradılması üçün nəzərə alınması vacib olan prinsiplər öyrənilir.*

**Açar sözlər:** kənd təsərrüfatı, bazar infrastrukturu, aqrar bazar, yarmarkalar.

İqtisadiyyatın bir çox sahələrində olduğu kimi kənd təsərrüfatında da bazar infrastrukturunun formalaşdırılması və inkişafı etdirilməsi Azərbaycan iqtisad elmi qarşısında duran aktual problemlərdəndir. Belə ki, hazırda dünya iqtisadiyyatının qloballaşması və informasiya-kommunikasiya texnologiyalarının inkişaf meylləri kontekstində bu problemin nəzəri-metodoloji cəhətdən hələ də lazımi səviyyədə öyrənilməməsi praktikaya da nüfuz edir, bir çox çətinliklər yaradır.

Kənd təsərrüfatında bazar infrastrukturunun formalaşması xüsusiyyətlərinin öyrənilməsi üçün həm də kənd təsərrüfatının ölkə iqtisadiyyatının sahə strukturundakı yerinin araşdırılması vacibdir. Çünki ayrı-ayrı ölkələrdə bu sahədə müşahidə edilən müxtəlifliklər kənd təsərrüfatının formalaşması xüsusiyyətlərini müəyyən edə bilir.

Kənd təsərrüfatı müasir dövrdə istənilən dövlətin iqtisadiyyatının aparıcı sahələrindəndir. Bu sahə əhaliyə mövcudluq və həyat fəaliyyəti üçün zəruri olan ərzaq məhsulları və bir çox istehlak mallarının (mebel, geyim) istehsalı üçün xammal təqdim edir. Müxtəlif ölkələrdə iqtisadiyyatın strukturundan asılı olaraq kənd təsərrüfatı məhsulları səksəndən çox istehsal sahələrində istifadə edilir. Hazırda kənd təsərrüfatını əlahiddə, milli iqtisadiyyat-

dan və beynəlxalq əmək bölgüsündən təcrid olunmuş şəkildə inkişaf edən sahə kimi təsəvvür etmək mümkün deyil [4].

Şəkildən də görünür ki, kənd təsərrüfatı əsasən 2 sahəni əhatə edir:

1. Bitkiçilik (taxıl, çuğundur, kartofçuluq, tərəvəzçilik, bağçılıq, digərləri);

2. Heyvandarlıq (donuzçuluq, qoyunçuluq, quşçuluq, maldarlıq, digərləri).

Bu sahələr həm ölkə iqtisadiyyatındakı xüsusi çəkisi, həm əhalinin məşğulluğu, həm də gəlir səviyyəsi baxımından müxtəlif ölkələrdə fərqli göstəricilərə malikdir.

Kənd təsərrüfatı istehsalı ölkənin ümumi (əmtəə) mal istehsalının əsas hissəsini özündə birləşdirir. Buna görə də müasir dövrdə kənd təsərrüfatını ölkənin aqrar-sənaye kompleksinə aid müəssisələr və müvafiq infrastruktur elementləri olmadan təsəvvür etmək doğru olmazdı.




**Şək.** Aqrar-sənaye kompleksinin sahə strukturu [1].

Ölkənin aqrar-sənaye kompleksinin mühüm tərkib elementi kimi, kənd təsərrüfatının əsas məqsədi - mübadilə üçün məhsul istehsal etməkdən ibarətdir, daha doğrusu, istehsal olunan məhsulun əsas kütləsi mütləq şəkildə əmtəə formasını alır. Beləliklə də kənd təsərrüfatında istehsal olunaraq bazara çıxarılan əmtəələrin başlıca təyinatı insanların bu və ya digər maddi və mənəvi tələbatını təmin etməkdən ibarətdir

Beləliklə də bazarın, o cümlədən kənd təsərrüfatı məhsulları bazarının əsas ünsürləri olan tələb, təklif və qiymət istehsalçı ilə istehlakçı arasındakı əlaqələrin xarakterini, onların forma və xüsusiyyətlərini müəyyən edir. Eyni zamanda, ölkə iqtisadiyyatında baş verən dəyişikliklər həm də onun ayrı-ayrı sahə və bölmələrinə xidmət edən və onları qarşılıqlı surətdə əlaqələndirən təşkilatlarına, qurumlarına, o cümlədən bazarın infrastruktur elementlərinə təsir edir.

Dövlətin, xalqın sərvəti olan əкin sahələri, meşələr, su ehtiyatları, neft, qaz və sair yeraltı və yerüstü sərvətlərdən istifadə etməк üçün dövlət nəzarətində olan istehsal, sosial кommunal-məişət, bazar infrastruкturlarının yüкsəк səviyyədə olması zəruri şərtdir. Bu isə bazarın, eləcə də kənd təsərrüfatı məhsulları bazarının inkişaf etdirilməsinin xeyli dərəcədə təsərrüfat subyektlərin sayının çoxaldılması və yeni şəraitə uyğun daha müasir bazar infrastrukturunun yaradılmasını zəruri edir.

Bazar münasibətləri şəraitində fəaliyyət göstərən iqtisadi qanunlar obyektiv xarakterə malik olduqlarına görə istehsal və istehlak arasında nisbəti özləri tənzim edirlər. Belə ki, əmtəə-pul münasibətləri şəraitində dəyər qanunu, tələb və təklif qanununun rolu daha qabarıq şəkildə özünü büruzə verir.

Bazar münasibətlərinə keçidin və onun formalaşmasının ümumi prinsipləri mahiyyətcə eyni olsa da, hətta eyni ölkə daxilidə ayrı-ayrı regionların səciyyəvi şəraiti həmin prinsiplərin reallaşmasında özünə xas olan cəhətləri açıq-aşkar büruzə verir. Bilavasitə təbii şəraitdən asılı bir sahə olduğunu nəzərə alaraq bazar münasibətinə keçid şəraitində kənd təsərrüfatı sistemində bu cəhətətlərin nəzərə alınması vacibdir.

Məlumdur ki, kənd təsərrüfatında bir çox iqtisadi resursların məhdudluğu eyni vaxtda onların bir neçə sferada istifadəsinə imkan vermir. Belə ki, ayrı-ayrı ölkələrin sərhədləri daxilində məhdud olan torpaq ehtiyatlarının hər bir hissəsi eyni vaxtda yalnız bir sahə altında (ya bağçılıq, ya tərəvəzçilik, ya da əkinçilik) istifadə edilə bilər. Məhdudiyyətlik kənd təsərrüfatının digər resurslarına, maddi-texniki, əmək ehtiyatlarına da aiddir. Məsələn, taxılyığan kombaynı eyni zamanda, kənd təsərrüfatının digər sahələrində istifadə etmək olmaz [1].

Bazar resursların səmərəli təyinatını, elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadəni, dəyişən şəraitə yüksək və çevik adaptasiya olmağı,

cəmiyyətin tələbini tam ödəməyi, yüksək səmərəli təsərrüfat fəaliyyətini təmin edir. Bununla yanaşı, bazarın neqativ tərəfləri (məs., istifadə olunmayan resursların qorunması və ətraf mühitin müdafiəsi üçün iqtisadi mexanizmin olmaması, bütün insan cəmiyyətinə mənsub olan resurslardan istifadənin tənzimlənməməsi və s.) də mövcuddur. Bütün bunlar, xüsusilə müasir dövrdə aqrar bazarın, o cümlədən də kənd təsərrüfatı məhsulları bazarının fəaliyyətində dövlətin iştirakının vacibliyini göstərir. Dövlət qanunvericilik və digər formalarla bazar münasibətlərini tənzimləyir, eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalçılarını himayə edir və bazarın neqativ tərəflərini hamarlayır.

Tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində dövlətin iştirakı əhəmiyyətli səviyyədə qalmaqda davam edir. Ancaq dövlətin sənaye və ticarət sahələrində qalmaq səviyyəsinə görə fərqlənir. Buna baxmayaraq bazar iqtisadiyyatı şəraitində mübadilə prosesində iştirakda qalma zəruriliyində iqtisadi sərbəstlik daha genişdir. Burada kənd təsərrüfatı mallarının istehsalçısı istehsal edəcəyi məhsulun tərkibini və strukturunu, material-texniki resurslarla təchiz edənləri və satış qiymətlərini, alıcı isə mal göndərəni seçir [1].

Bazar iqtisadiyyatı şəraitində bütün digər funksional bazarlarda olduğu kimi kənd təsərrüfatı məhsulları bazarlarında da istehsalçılarla istehlakçılar arasında münasibətlər tələb və təklifin təsirinə, bazarın konyunkturasına əsaslanır. Müvafiq ədəbiyyatlarla tanışlıq belə nəticəyə gəlməyə əsas verir ki, kənd təsərrüfatı məhsulları bazarının səmərəli fəaliyyət göstərməsi çoxsaylı amillərin, o cümlədən bazar infrastrukturunun təşkilinin səviyyəsi kimi vacib amilin təsiri altında həyata keçir [2].

Kənd təsərrüfatı xammalı və ərzaq məhsulları müəyyən xüsusiyyətlərə malikdir:

1. Təklifin hava şəraitindən asılılığı kəmiyyət və keyfiyyətə nəzarət imkanını məhdudlaşdırır.

2. Zəmanətli tələb - neqativ təsirlərin müəyyən mənada kompensasiyasıdır. Kənd təsərrüfatı məhsulu istehsalçısı hər il eyni məhsulu istehsal etmək məcburiyyətində deyil və yeni, daha xeyirli malların istehsalını inkişaf etdirə bilər.

3. Tez xarab olan böyük miqdarda məhsulun xarakteri, bir tərəfdən soyuducu anbarların olmasını (xüsusilə tərəvəz, kartof, meyvələr üçün) tələb edir, digər tərəfdən çox qısa müddətdə realizə edilməsini tələb edir ki, bu da müəyyən qədər yetişdirilmiş məhsulun itkisindən və istehsalın gəlirinin azalmasından yan keçməyə imkan verir.

4. Kənd təsərrüfatı məhsullarının istehlakçılarının şəhərlərdə cəmlənməsi, məhsulun tədarükünün vasitəçilərlə təşkil olunmasını əmələ gətirir. Bu müəyyən miqdar əmtəə istehsalçılarının gəlirlərinin itirilməsinə səbəb olur,

ona görə də onlar “vasitəçi” ilə məhsulun dəyərinin bir hissəsini bölüşməyə məcburdurlar.

5. Kənd təsərrüfatı məhsullarının qiymətinin mövsümlə əlaqədar tərəddüd etməsi, onun il boyu qeyri - bərabər təklif edilməsi ilə əlaqələndirilir.

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı xammalı və ərzaq malları elə xüsusiyyətə malikdir ki, qiymətlərin tam sərbəst buraxılmasına imkan vermir. Bu, ölkənin ərzaq təminatının zəmanətçisi öhdəliyi ilə əlaqədardır. İstehsalın təbii - iqtisadi şəraitlə bağlı və kənd təsərrüfatının yüksək kapital tutumlu olmasını nəzərə almaq vacibdir. Bunun üçün şaxələnmiş və çevik qiymət tənzimləmə sistemindən istifadə edilir.

Bazar münasibətləri məhsulun rəqabətli, ancaq maneəsiz şəkildə istehsalçıdan istehlakçıya hərəkətini təklif edir. Bu sistem özündə birləşdirməlidir:

- müəyyən hissə kənd təsərrüfatı məhsulları və ərzağın satışına zəmanət verən kvotalaşdırma mexanizmini;
- respublika və regional ərzaq fondu və ehtiyatının yaradılmasını;
- əmtəə (mal) məhsullarının dövlət tədarükünün həyata keçirilməsini (müəyyən müdaxilələr nəticəsində defisit yaranarsa onun ləğv edilməsi üçün sabitləşdirmə və qiymətlərin səviyyəsinin aşağı salınması məqsədilə istifadə edilsin);
- ölkə daxilində məhsulların sərbəst hərəkətinin təmin edilməsini.

Kənd təsərrüfatı məhsulları bazarının uğurlu fəaliyyətinin başlıca atributlarından biri də onun infrastrukturunun təkmilləşdirilməsidir.

Bir sıra tədqiqatçıların fikrinə görə, aqrar ərzaq bazarının infrastrukturunun yaxşılaşdırılması regional və xalq təsərrüfatı pillələrində həyata keçirilməlidir. Bu zaman bazar infrastrukturu səmərəli modelinin qarşıya qoyulan məqsədlər nəzərə alınmaqla aşağıda qeyd edilən prinsiplər əsasında yaradılmalı olduğu göstərilir [3]:

1. Bazar infrastrukturunun formalaşması və inkişafı proseslərinin dövlət tənzimlənməsi (qanunverici və iqtisadi mexanizmlər – çevik vergi mexanizmi, maliyyə-kredit alətləri, qiymət siyasəti);

2. Tamamlama: bazar infrastrukturu iqtisadiyyatın bütün tələbatlarını tam şəkildə ödəyə bilmədiyindən müəyyən dövr ərzində dövlət infrastrukturunu tamamlamalıdır;

3. Varislik;

4. Sinergetik effektin (kompleksliliyin) əldə olunması;

5. Zəruri və kifayət qədər rəqabətin mövcudluğu;

6. İnformasiya bolluğu;

7. Ehtiyatların sərbəst axını;

8. Bazarların indikativliyi – bazar infrastrukturu yalnız iqtisadiyyatda

baş verən dəyişikliklərə reaksiya verməli deyil, o həm də fəaliyyət sferasının perspektiv istiqamətlərini göstərməlidir.

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında bazar infrastrukturunun formalaşmasının xüsusiyyətlərinin öyrənilməsi ilə paralel olaraq əsasən aqrar bazarın iqtisadi mahiyyəti və iqtisadi mexanizmlər, aqrar bazarın formalaşmasında dövlətin aqrar siyasətinin rolu və dövlət tənzimlənməsinin xüsusiyyətləri, aqrar bazarı formalaşdıran istehsal sahələri, aqrar bazarın qorunması və s. kimi məsələlərin öyrənilməsi də vacib hesab edilir.

Bazar infrastrukturunun formalaşması və inkişafı zamanı sadalanan prinsiplərdən istifadə edilməsi, bir qayda olaraq, təsərrüfatçılığın bir formasından digərinə keçidin nisbətən ağrısız yerinə yetirilməsinə, həmçinin yeni yaradılan təşkilatların fəaliyyətinin optimallaşdırılmasına imkan yarada bilər.

## ƏDƏBİYYAT


1. Quliyev E.A. Aqrar İqtisadiyyat. Ali məktəb tələbələri üçün dərslik. – Bakı: Kooperasiya, - 2015, - s. 32.
2. Попова Е.А., Полунина Н.Ю. Совершенствование инфраструктуры агропродовольственного рынка региона // Российское предпринимательство № 7’2018 (июль), - с. 2012.
3. Стукач В.Ф. Инфраструктура агропродовольственного комплекса региона: новые вызовы. Mpra. [Электронный ресурс]. URL: https://mpra.ub.uni-muenchen.de/73933/1/MPRA_paper_73933.pdf. С. 40-41.
4. Тимошенко М.А. Рыночная инфраструктура как основа роста конкурентоспособности аграрной экономики России // Российское предпринимательство. – 2014. – Том 15. – № 20. – С. 70.


## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ РЫНОЧНОЙ ИНФРАСТРУКТУРЫ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

**М.У.АЛИЕВ**

### РЕЗЮМЕ


Цель исследования - изучить особенности формирования рыночной инфраструктуры сельского хозяйства в современных условиях с научно-теоретической точки зрения. В статье анализируются подходы отечественных и зарубежных ученых о природе категории рыночной инфраструктуры, объясняются функции рыночной инфраструктуры, составные элементы рынка сельскохозяйственной продукции, а также факторы, влияющие на его формирование. В то же время, исследуя влияние уникальных характеристик сельскохозяйственного сырья и продуктов питания на формирование рыночной инфраструктуры, изучаются принципы, которые важно учитывать для создания эффективной модели в этой сфере.


**Ключевые слова:** сельское хозяйство, рыночная инфраструктура, аграрный рынок, товарные биржи, ярмарки.

## SOME FEATURES OF MARKET INFRASTRUCTURE FORMATION IN AGRICULTURE

**M.U.ALIYEV**

**SUMMARY**

The aim of the research is about investigation of the features of the form of market infrastructure of agriculture from a scientific- theoretical aspect in a modern condition. In this article native and foreign scientists' approaches about the importance of market infrastructure category are analyzed. The function of market infrastructure, composition elements of market of agricultural products and factors which influence to its formation are explained. Simultaneously, the essential principles for making of efficient model are learned in this field with the researching of impact of peculiar features of agriculture raw materials and food production on formation of market infrastructure.

**Keywords:** agriculture, market infrastructure, agrarian market, commodity exchanges, fairs.

UOT 336.714 336.2

# BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ XARİCİ İQTİSADİ SİYASƏTİN MALİYYƏ STRATEGİYASI

**E.H.HƏSƏNZADƏ**
***Bakı Dövlət Universiteti***
***esmira.hesenzade@mail.ru***

*Beynəlxalq təhlükəsizlik sahəsində ölkənin maliyyə təhlükəsizliyi özünün milli maraqlara uyğun maliyyə iqtisadi siyasətini müstəqil yerinə yetirmək qabiliyyətinin əsas şərti kimi qəbul edilir. Bizim zənnimizcə dövlətin maliyyə təhlükəsizliyi əsas maliyyə iqtisadi parametrləri ödəmə və hesablama sistemini təmin etmə qabiliyyətindən ibarətdir. Eyni zamanda xaricə irihəcmli kapital axınının qarşısını almaq qabiliyyətindədir. Bunun üçün təhlükəsizlik istiqamətində qloballaşma dövründə hər bir ölkənin özünü beynəlxalq səviyyədə öz təhlükəsizliyini təmin etmək üçün özünün maliyyə strategiyası olmalıdır.*

**Açar sözlər:** beynəlxalq təhlükəsizlik, iqtisadi təhlükəsizlik, maliyyə strategiyası, maliyyə siyasəti.

Beynəlxalq təhlükəsizlik sahəsində öz tədqiqatlarımızı aparmağa çalışsaq, onda görərik ki, ölkənin beynəlxalq təhlükəsizliyinin təmin edilməsində ilk növbədə bu gün qaz və neft hasilatı əsas yer tutar. Düzdür, biz qeyd etməliyik ki, bu gün Azərbaycan hökümətinin qeyri-neft sektorunun inkişaf siyasəti də ölkənin beynəlxalq təhlükəsizlik sahəsində maliyyə strategiyasını bir növ xarici valyutanın ölkəyə axınını gücləndirib. Əlbəttə ki, bu maliyyə siyasəti bir növ Azərbaycanın imicini beynəlxalq səviyyədə artmasına baxmayaraq neft və qaz hasilatı bu gün beynəlxalq səviyyədə ölkənin büdcəsinə valyuta axını kimi 70%-ə qədər gəlir gətirir. Eyni zamanda bu faktor Azərbaycan neft və qaz hasilatı,xüsusən də Rusiyanın Ukraynaya qarşı ədalətsiz bir müharibə apardığı zaman Azərbaycanın beynəlxalq təhlükəsizliyi sahəsində bir çox ölkələrə neft və qaz ixracı öz maliyyə strategiyası beynəlxalq təhlükəsizlik səviyyəsində daima nəzarət altında saxlamalıdır. Bu gün Rusiya kimi nəhəng bir dövlətin Yer kürəsinin 1/8 ərazidə yerləşdiyi bir dövlət öz apardığı aqressiv, demək olar ki, faşizm siyasəti ona qarşı bütün dünyanın sanksiyaları ilə üzləşmiş və özünün əsas maliyyə mənbəyində, yeni neft, qaz və digər xammal ixracından uzaqlaşdırılmış və öz maliyyə strategi-

yasına beynəlxalq səviyyədə ciddi zərbə vurmuşdur. Əlbəttə ki, məntiq onu göstərir ki, Rusiya bu gün beynəlxalq səviyyədə öz maliyyə strategiyasına ciddi zərər vurmuşdur. Bu faktor Rusiyanın daima hərbi, siyasi, iqtisadi avantürist siyasəti onu da düşünür ki, MDB dövlətlərindən Qazaxıstan, Azərbaycan, Türkmənistan və Özbəkistanı öz çirkin siyasətinə qoşmaq istəyində qalaraq bu dövlətləri də öz vəziyyətinə salmaq, digər tərəfdən beynəlxalq təhlükəsizlik nöqteyi-nəzərində dünya bir çox ölkələrdə, xüsusən də Avropa Birliyində iqtisadi vəziyyəti daha da gərginləşdirsin və bu ölkələrin maliyyə strategiyasına ciddi zərbə vursun.Bu gün nəinki Azərbaycan, hətta Qazaxıstan, Özbəkistan, Türkmənistan da bu vəziyyəti nəzərə almalıdır. Belə bir vəziyyətdə ölkənin beynəlxalq təhlükəsizliyi nöqteyi-nəzərindən öz maliyyə strategiyasının metodiki əsaslarla işlənilməsinə və onun səmərəliliyini yenidən nəzərdən keçirməlidir. Çünki, yaranmış vəziyyətlə əlaqədar bu gün düzgün qurulmuş maliyyə strategiyası nəzərə almalıdır ki, dövlətin bazar proseslərinin və maliyyə bazarının konyekturasının tənzimlənməsində bir çox anlaşılmazlıqla üz-üzə qalır. Bu ciddi faktorları nəzərə almaqla beynəlxalq təhlükəsizlik nöqteyi-nəzərindən dövlətin maliyyə fəaliyyətinin idarə olunmasında səmərəli, perspektiv alətlərdən istifadə olunmalıdır.

Maliyyənin strateji idarəetmə konsepsiyası metodoloji prinsiplər əsasında dövlətin maliyyə strategiyası üzərində qurulmalıdır. Məsələn, maliyyə strategiyası xarici iqtisadi siyasətin beynəlxalq təhlükəsizliyi dövlət səviyyəsində digər strategiyalardan seçilməlidir. Çünki bu strategiya dövlətin bütün sahələrini əhatə edir, nəqliyyatı, sənayeni, kənd təsərrüfatını və digər sahələri investisiya, innovasiya kimi beynəlxalq təhlükəsizlik baxımından bu strategiyanın həyata keçirilməsi ciddi elmi praktik nəzəri cəhətdən qiymətləndirilməlidir. Çünki həm investisiya, həm də xaricdən gətirilən hər bir innovasiya maliyyə cəhətdən qiymətləndirilir və dövlətin zəmanəti altında bir qayda olaraq həyata keçirilir. Bu maliyyə faktorunun səmərəliliyini bir neçə üsulla təmin etmək olar. Dövlətə təklif olunan investisiyanın hər bir sahəyə aid özünəxas qiymətləndirilməsi:

- Texniki-iqtisadi cəhətdən elmi praktiki nöqteyi-nəzərindən ciddi şəkildə qiymətləndirilməsinin əsası;
- Hər bir investisiya qoyulan sahələrin həmin investisiyaların qoyulan sahə tərəfindən qaytarılmasına zəmanət;
- Dövlət tərəfindən investisiya zəmanəti yalnız strateji sənaye sahələrinə yönəldilən investisiyalara zəmanət verilə bilər, yəni dövlət investisiyasının maliyyə dəyərini dövlət büdcəsindən ödəyəcək.

Digər bütün xarici investisiyalar bazar iqtisadiyyatı şəraitində xarici investor və sənaye şirkətinin sahibkarları ilə müqavilə əsasında həyata keçirilməldiir. Ortaya sual çıxa bilər: Nə üçün müəllif belə bir nəticəyə gəlir?

Bunun əsasını investisiyanın maliyyə mənbəyi kimi harada və necə formalaşmasını tələb edir. İnvestisiyanın maliyyə mənbəyi çirkli pullar əsasında qurulduqda onun sahibləri bir qayda olaraq hər hansı bir sahədə olursa olsun ora qoymağa hazırdılar. Çünki investisiya kimi qoyulan bütün amillərin maliyyə qiymətini dövlət ödəyəcək və onun səmərəliliyi həmişə şübhə altında olacaq. Buna dünyada bir sıra ölkələrdə mövcud korrupsiya halları bir əsas yaradır. İkincisi, özəl şirkətlərin istəyi ilə qoyulan investisiya vasitələrinin qaytarılmasına, özəl sənaye şirkətlərinin başçıları zəmanət verməlidirlər. Belə hal həm investorun, həm də şirkətin investisiya qoyuluşunu texniki-iqtisadi əsaslarla əsaslandırsın. Bu da ki, həm investorun, həm də investisiya qoyulan sahənin bir-biri qarşısında cavabdehliyini yüksəldir və uğursuzluğu minimuma endirir. Eyni ilə innovasiya sahəsində də bütün qoyuluşlar texniki-iqtisadi cəhətdən əsaslandırılmalı və onun maliyyə və iqtisadi cəhətdən səmərəliliyini sübut etməlidir:

- Hər bir innovativ təklif ən azı 4-5 texnoloji tələblərə uyğun olmağı ;
- Yeni innovasiya tətbiqi nəticəsində istehsal olunan məhsula daxili və beynəlxalq bazarlarda tələbatı.

Məhz bundan irəli gələrək müəllif bu sahədə dövlətin beynəlxalq təhlükəsizlik sahəsində xarici iqtisadi siyasətinin maliyyə strategiyası qurulması missiyası şəklini tərtib etmişdir.




**Şək. 1.** "Dövlətin beynəlxalq təhlükəsizlik sahəsində xarici iqtisadi siyasətinin maliyyə strategiyası qurulması missiyası" ***Mənbə***: Müəllifindir.

Beynəlxalq təhlükəsizliyin xarici iqtisadi siyasətində maliyyə strategiyasının dövlət missiyası ölkə iqtisadiyyatını gücləndirir, sosial tələbləri ödəyərək yeni iş yerlərinin açılmasının əsasını qoyur. Elmin və texnikanın yerli potensialının yüksəlməsinə şərait yaradır. Əlbəttə ki, burada dövlətin maliyyə strategiyasının səmərəliliyi fikrimizcə, iqtisadiyyatın danılmaz qanunlarındandır.

İ.ə.g.a + İ t.s = İ i ⟶ İ t.t.o ⟶

İ ə.g.a – İnvestisiya əsasında gəlirin artması

İ t.s – İnvestisiyaların texniki səviyyəsi (4-5 səviyyəsi)

İ.i – İqtisadiyyatın inkişafı

İ t.t.o – İqtisadi təhlükəsizliyin təmin olunması

Xarici iqtisadi siyasətin maliyyə strategiyasını bu prinsiplərlə qurulması ölkənin iqtisadi və milli təhlükəsizliyin yüksəlməsinə və beynəlxalq təhlükəsizliyin dünya səviyyəsində artmasına səbəb ola bilər. Əlbətdə ki, burada iki faktora xüsusi diqqət yetirilməldir:

1. Dövlətin maliyyə siyasətinin zəif və güclü tərəfinin qiymətləndirilməsi;
2. Dövlətin maliyyə strategiyasının kompleks şəkildə qiymətləndirilməsi.

Burada Azərbaycanın təsərrüfat fəaliyyəti iqtisadi nöqteyi-nəzərindən maliyyə vəsaitlərinin bu sahədə innovasiya və investisiyaya dair yanaşması çox ciddi bir faktor kimi beynəlxalq təhlükəsizliyin və siyasi iqtisadi siyasətin maliyyə strategiyasına çox ciddi yanaşmasına bir sübut kimi qəbul edilə bilər. Bu da ki, ölkəmizin innovasiya və investisiya siyasətinin şəffaflığını ortaya qoyur və innovasiya və investisiya axınını ölkəmizə dair sürətlənməsinin əsasını qoyur. Beləliklə, bu gün nəzərə alsaq ki, MDB ölkələrinə qoyulan 70% investisiyaların texniki səviyyə tələbinə uyğunsuzluğu və 65% investisiya qoyuluşlarının nəticəsiz, səmərəsiz və gələcəyi bilinməyən taleyi problemləri Azərbaycanda özünə yer tapmayacaq. Belə vəziyyətin yaradılması ölkəmizə inamı artırır və onun beynəlxalq səviyyədə bütün əməkdaşlığına, dayanıqlığına zəmanət verir.

Apardığımız tədqiqatlar onu göstərir ki, dövlətin maliyyə strategiyası xarici iqtisadi siyasətinin ən vacib istiqamətidir:

1. Dövlətin maliyyə strategiyası bütün sənayenin canlanmasına təkan verir;
2. Sənaye sahələrinin yenidən bərpa olunmasına şərait yaradır;
3. Sənayenin ölkə ərazisindəki xammalın işlənilməsinə onu son məhsula çevrilməsinə və daxili və xarici bazara çıxarılmasına zəmanət yaradır;
4. Ölkə ərazisində istehsal olunan məhsulların istehlakçıların diqqətini özünə cəlb etməsi inkişafına yönəldilməsi kimi təyin edilə bilər.

Bu da bir növ hökümətin bu istiqamətdə atdığı addımlarının qiymətləndirilməsinə əsas verir. Bu göstəricilərin müsbət nəticələri daha da iri həcmdə investisiya fəaliyyətinə və layihələrin həyata keçirilməsinə əsas ve-

rir. Dövlətin investisiya və maliyyə fəaliyyətinin nəticələri bir ildə onun maliyyə təsərrüfat sahəsində əldə etdiyi nəticələrin maliyyə vəsaitlərinin həcmini və dinamikasını əks etdirir. Maliyyə strategiyası bu gün hər bir dövlətin beynəlxalq səviyyədə əsas strategiyalarından birinə çevrilmişdir. Çünki bazar iqtisadiyyatı inkişaf edən dövlətlərdə iqtisadiyyatın güclənməsi məhz hər bir dövlətin yaratdığı maliyyə strategiyasından keçir.

Apardığımız tədqiqatlar onu göstərir ki, bir çox bazar iqtisadiyyatına keçən MDB dövlətləri öz maliyyə strategiyasını, ölkənin xammal resursları üzərində qururlar. Bunu demək olar ki, apardığımız tədqiqatlar da sübut edir. Kifayət edər ölkəyə gələn ÜDM gəlirin bu gün ən azı 70%-i neft, qaz, pambıq və digər xammalın ixracı təşkil edir. Əlbəttə ki, maliyyə strategiyasını düzgün quran dövlətlər öz maliyyə mənbələrini xammal üzərində qurmaqla ölkənin əqli potensialına kifayət qədər diqqət yetirməklə get-gedə elm və təhsilə ciddi fikir verməklə güclü intellektual potensial yaradır. Məhz belə ölkələr sonradan ciddi şəkildə öz sənayesinin güclənməsinə nail olur və iqtisadi yüksəlişə addım atır. Bunu XXI əsrin Çin kimi böyük bir dövlətin 2000-ci ildə atdığı addımlar sübut edir. Çinin elm və təhsil sahəsinə ilk dəfə 2000-ci ildə 56 milyon dollar maliyyə ayırmasının nəticəsini görürük. Çinin iqtisadiyyatı bütün sahələrdə özünü bu gün göstərməkdədir. Çin bütün sahələrdə kənd təsərrüfatında, sənayedə, xidmət sahələrində ciddi sıçrayışa nail olmuşdur.

Dövlətlərin maliyyə strategiyasının səmərəli şəkildə qurulmasına dair ciddi tədqiqatlar 30-55 illərdə aparılmışdır. Bu öz əksini tanınmış dünya alimləri R.Akof, İ.Ansot, İ.A.Blank, P.F.Druker, D.Targetin, M.Porterin elmi əsərlərində özünə yer tapmışdır. Dövlətin strateji idarəetmə sistemi dövlətin maliyyə strategiyası kimi başa düşülür. Çünki bu maliyyə strategiyası ilk növbədə dövlətin iqtisadiyyatının inkişafı kimi başa düşülür və qəbul edilir. Dövlətin maliyyə strategiyası bir qayda olaraq özündə 5 əsas faktoru birləşdirir:

1. Menecment
2. Maliyyə
3. Elm
4. Texnologiya
5. Sənayenin hər bir istiqamətinə aid personalın hazırlığı.

Müəllifin fikrincə, maliyyə strategiyasının bu faktorlar üzərində qurulması hər bir dövlətin iqtisadi inkişafının əsasını qoyur və bu, ümumi ölkə iqtisadiyyatının strateji formalaşmasından asılıdır. Bunun elmi-nəzəri əsaslarını bu cür başa düşmək lazımdır:

1. Dövlət siyasətinin fərqli bazarların tələbatını nəzərə almaqla iqtisadi sənaye fəaliyyətinin diversifikasiyasının maliyyə ehtiyaclarını təmin etmək;
2. Bu istiqamətdə dövlətin strateji sənaye layihələrinin tətbiq edilməsində

maliyyə strategiyası;

3. Dövlətin beynəlxalq səviyyədə təhlükəsizliyini təmin etmək üçün sənaye iqtisadiyyatında maliyyənin səmərəliliyi.

Dövlətin maliyyə strategiyası iqtisadi kateqoriya kimi qəbul edilməklə maliyyə sahəsində maliyyə bazarları arasında fərqli münasibətləri xarakterizə edir. Qeyd etmək lazımdr ki, bir sıra maliyyə strategiyasının anlaşmasına dair tətdqiqatların olmasına baxmayaraq, maliyyə strategiyası anlaşmasına dair vahid bir fikir elmi ədəbiyyatlarda yoxdur. Bir sıra tanınmış alimlərdən T.Qrandi, D.V.Korepanov, K.Vard, İ.P.Xominin fikrincə maliyyə strategiyası ümumi fikirləri cəmləşdirsək, belə səslənir: "Maliyyə strategiyası dövlətin öz məqsədlərinə çatmaq üçün sistemdir və bu sistem maliyyənin toplanılmasını və bölüşdürülməsinə dair planı nəzərdə tutur". Digər tərəfdən maliyyə strategiyası dövlətin iqtisadi inkişafına dair təyin olunmuş maliyyə resurslarının xarici mənbələrinə uyğun həyata keçirdiyi bir prosesdir. Bu alimlərin söylədiyi fikirlərdən belə bir qərara gəlmək olar ki, maliyyə strategiyası iqtisadi strategiyanın bir hissəsi kimi qəbul edilə bilər.

Müasir dövrdə dövlətin maliyyə strategiyasının işlənilməsi metodoloji prinsiplər üzərində qurulur. Beynəlxalq təhlükəsizliyin mövcudluğunu nəzərə alaraq maliyyə strategiyası dövlətin bir sıra vacib planlarının yerinə yetirilməsini təmin edir. Buraya sənayenin biznes strategiyasının göstəricilərini və qiymətləndirilmə kateqoriyalarını aid etmək olar. Dövlətin maliyyə strategiyası istehsal qüvvələrinin inkişafında vacib rol oynayır.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycanın büdcə sistemi və maliyyə strategiyası ölkənin bütün iqtisadi tələbatını sosial sferalarının bütün tələbatlarının ödəmək qadirində qurulmalıdır, özünü uzun sürən istismar effektivliyi yeni sənaye sahəsində ortaya qoymalıdır. Bunu da qeyd etmək lazımdır ki, ölkənin iqtisadi sənaye potensialını sürətli şəkildə inkişaf etdirmək üçün Azərbaycan Respublikasının ildən-ilə yenilənmiş güclü rəqabət qabiliyyətli maliyyə strateji sisteminin işlənilməsi lazımdır. Dövlət bu istiqamətdə investisiya və innovasiya baxımı nöqteyi-nəzərindən öz maliyyə strategiyasını və kredit sistemini yenidən nəzərdən keçirməlidir. Bu siyasətin aparılması ilk növbədə Qarabağda ardı görünməyən sonsuz sosial, iqtisadi, təsərrüfat və digər insanların bütün tələbatının ödənilməsi üçün problemlərin həllini tələb edir.

Dövlət tərəfindən işlənmiş maliyyə strategiyası dünyada iqtisadiyyatın inkişafının müasir tendensiyalarını nəzərə almaqla, o cümlədən, ölkənin özünün maliyyə vəziyyətini nəzərdə saxlamaqla Azərbaycanda bütün sənaye sferasının inkişaf siyasəti planlı şəkildə və ardıcıllıqla aparılmalıdır. Beləliklə, maliyyə strategiyası yuxarıda qeyd etdiyimiz kimi iqtisadi strategiyanın əsas bir hissəsi olmaqla ölkənin sosial-iqtisadi inkişafına dair öz təyinatını ortaya qoyur. Tədqiqatlar onu göstərir ki, Azərbaycanın yeraltı və yer-

The study of gender differences has been the subject of considerable interest and debate in a variety of disciplines, including psychology, sociology, and gender studies. While biological and cognitive factors have traditionally been central to understanding gender differences, social-psychological approaches offer valuable insights into the complex interplay between social, cultural, and psychological factors that contribute to the development and maintenance of gender differences. This article reviews key social-psychological perspectives on gender differences, emphasizing the role of socialization, stereotypes, and identity in shaping individuals' gender-related behaviors and attitudes. In addition, the influence of social structures and cultural norms on the formation of gender roles is investigated.

**Keywords**: Gender relations, stereotypes, theories, cognitive, emotional, norms

**UOT 71.0**
**Orcid:0000-0001-5906-9588**

# MULTİKULTURALİZM FƏLSƏFİ DƏYƏR KİMİ (PROBLEMƏ SOSİAL-FƏLSƏFİ YANAŞMA)

**Z.Q.ƏSGƏROVA**
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***zaminacahan2012@gmail.com***

*Elmi məqalədə multikulturalizm fəlsəfi dəyər kimi sosial- fəlsəfi aspektdən araşdırılmışdır. Müəllif multikulturalizm terminin yaranması, klassik fəlsəfi konsepsiyalarda əks olunması, müxtəlif alimlərin problemə yanaşmasını hərtəfərli tədqiq etmişdir. Qeyd olunmuşdur ki, elmlərarası tədqiqat obyekti olan multikulturalizm daha çox fəlsəfə elmi tərəfindən konseptual və metodoloji cəhətdən əsaslı öyrənilmişdir. Fəlsəfə multikulturalizmin məzmununu daha ətraflı, hərtərəfli araşdıraraq onu konseptual əsasda, bütöv, tam şəkildə dərk olunmasına kömək edir, multikulturalizmin ayrı-ayrı aspektlərini öyrənən elmlərə yardım edərək onlara metodoloji yol göstərir.*

**Açar sözlər:** multikulturalizm, fəlsəfə, multikultural cəmiyyət, tolerantlıq, mədəni müxtəliflik, mədəni demokratiya, fəlsəfi dəyər, fəlsəfi konsepsiya.

**Giriş.** Müasir dövrdə Azərbaycanda multikulturalizmin Azərbaycan modeli hərtərəfli təhlil olunur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və müasir dövrdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasətinin əsas göstəricisi Azərbaycanda etnik və dini zəmində heç bir qarşıdurmanın olmaması, ölkədə ictimai-siyasi sabitliyin və davamlı milli-mənəvi həmrəyliyin hökm sürməsidir. Məhz belə bir uğurlu və düşünülmüş siyasətin nəticəsidir ki, Azərbaycan dünyada multikulturalizmin əsas mərkəzlərindən birinə çevrilmişdir. Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri nəzərdən keçirilir, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı məlumat verilir.

Müasir dövrdə multikulturalizm prosesi özünün aktuallığı, nəzəri və praktiki əhəmiyyətilə diqqəti cəlb edir. Qloballaşma və miqrasiya amilləri multikulturalizm proseslərini daha da fəallaşdırır. Cəmiyyətdə sosial və mə-

dəni müxtəlifliyin artması şəraitində multikulturalizm probleminin sosial-fəlsəfi təhlilinin zəruriliyini önə çıxarır. Hər bir multikulturial cəmiyyətin milli inkişafı bir çox mürəkkəb problemlərlə müşayiət olunur. Belə cəmiyyət özündə vahid sosiomədəni məkanda mövcud olan müxtəlif mədəniyyətləri və vahid ərazi çərçivəsində yaşayan insanların milli, dini və mədəni münasibətlərindəki müxtəlifliyi əks etdirir. Bununla əlaqədar olaraq mədəniyyətlərin qarşılıqlı əlaqəsi, eləcə də multikultural cəmiyyətdə ayrı-ayrı mədəniyyətlərin multikultural cəmiyyət çərçivəsində yeri və rolu, onların bir-birilərinə təsiri mexanizmləri və dərəcəsi məsələləri diqqəti cəlb edir.

XX əsrin 60-cı illərində dünya politologiya, sosiologiya, mədəniyyətşünaslıq və fəlsəfə elmində artıq multikulturalizm problemi tədqiqat obyektinə çevrilmişdir. Bundan sonra xarici tədqiqatçılardan J.L.Amsell, R.Beristayn, M.Vyevorka, H.Qleyzer, E.Qiddems, R.Kastel, E.Moren, Ç.Teylor və başqaları multikulturalizmin ayirı-ayrı aspektlərini araşdırmışlar. Rusiyada A.İ.Kuropyatkin, A.A.Borisov, T.P.Volkov, S.M.Qavrov, V.V.Malaxov, V.A.Mamonov, S.Çukin və başqaları multikulturalizm problemini müxtəlif nöqteyi-nəzərlərdən tədqiq etmişlər. Azərbaycanda multikulturalizmə dövlət səviyyəsində diqqət ayrılmış, bir çox tədqiqatçılar İ.R.Məmmədzadə, Z.Quluzadə, Ə.Həbibbəyli, E.Nəcəfov və başqaları bu məsələni araşdırmaqla məşğuldurlar. Son vaxtlar millətlərarası, mədəniyyətlərarası münasibətlər, multikulturalizmin ayrı-ayrı aspektləri, müxtəliflik, fərq, ayrı-seçkilik, millətçilik, münaqişə, tolerantlıq, ayrı-seçkilik əleyhinə praktika tədqiqatçıların müzakirə obyektinə çevrilmişdir.

Şübhəsiz ki, multikulturalizm məsələsi müxtəliflik və mədəniyyətlərarası dialoq, mədəni plüralizmlə bağlı problemdir. Multikulturalizm diskursu birmənalı deyildir və onun həyatda təəccümü bir çox ziddiyətlərlə müşayiət olunur. Multikulturalizm qlobal problemi olan mədəni plüralizmin universallığını ifadə edən fəlsəfi kateqoriya və müasir ictimai həyatın fenomenidir.

Multikulturalizm müxtəlif elmlərarası tədqiqat obyekti olan tarix, politologiya, sosialogiya, psixologiya, etnologiya, kulturologiya, ədəbiyyatşünaslıq həm də fəlsəfənin tədqiqat obyekti olan mürəkkəb bir problemdir.

Qərbdə 1980-1990-cı illərdə multikulturalizmin qızğın müzakirəsi başlandı. “1988-ci ildə əsas mətbu nəşri olan Nexis bu terminin işlədilməsi zamanı heç bir istinad verməmişdi. 1989-cu ildə artıq 33 istinad var idi. Yalnız 1990-cı ildən sonra bu terminin işlədilməsi sürətlə artdı. 1990-cı ildə 100-dən artıq istinad verildi. 1991-ci ildə 600-dən artıq, 1992-ci ildə 900, 1993-cü ildə 1200, 1994-cü ildə 1500 istinad verilmişdir. 1990-cı ilin ortalarında multikulturalizmə həsr olunmuş nəşrlər minlərlə hesablanırdı [1]”. Bu faktlar multikulturalizmin tədqiqinə dünyada marağın artmasını göstərir.

Ümumiyyətlə, multikulturalizm probleminin fəlsəfi rakursu az öyrə-

nilmişdir. Ona görə də, problemə fəlsəfi aspektdən yanaşarkən qovuşuq elmlərin potensialından, kompleks metodlardan istifadə etmək lazımdır.

Bu gün multikulturalizm termininin anlaşılması və şərhində plüralizm, fikir müxtəlifliyi özünü göstərir. Polietnik məkanın məhsulu olan multikulturalizm müasir gerçəklikdə qloballaşma şəraitində yeni məna kəsb edir və fəlsəfi aspektdən dərkolunma tələb edir. Tədqiqatçılar arasında həmin terminin harada yaranmasına münasibətdə də fikir ayrılığı hökm sürür. Bəziləri belə hesab edirlər ki, bu termin 1960-1970-ci illərdə üç böyük "inqilabdan" - vətəndaş hüquq və azadlıqları, gənclik və seksual "inqilabdan" sonra ABŞ-da təşəkkül tapmışdır. Digərləri isə "multikulturalizm" termininin XX əsrin 60-cı illərində Kanadada etnomədəni, irqi, dini müxtəlifliyi bildirmək üçün yarandığını iddia edirlər.

Multikulturalizm ideyasının cox sayda tərəfdarı və əleyhdarı vardır. Qərbi Avropada "multikulturalizm " termininin sinonimi kimi "mədəni müxtəliflik", "mədəni mozaika", "mədəni plüralizm" anlayışları da işlədilir.

Uzun müddət ensiklopediya və lüğətlərdə "multikulturalizm" termini xüsusi olaraq nəzərdən keçirilməmişdir. Məsələn, XX əsrin 70-80-ci illərində çap olunmuş Böyük Britaniya, Avstraliya, Amerika ensiklopediyalarında multikulturalizm haqqında konkret məlumat verilməmişdir. Yalnız, 1993-cu ildə nəşr olunan Kolumbiya Ensiklopediyasında multikulturalizm və ya mədəni plüralizm irqçiliyin, seksizmin və digər ayrı-seçkilik formalarının aradan qaldırılması vasitəsi olan, fenomen, polimədəni cəmiyyət çərçivəsində mədəniyyətlər arasında qarşılıqlı anlaşma və qarşılıqlı təsir yollarının dərk olunması cəhdi kimi müəyyənləşdirilmişdir.

Böyük Oksford fəlsəfi lüğətində göstərilir ki, praktiki olaraq bütün müasir ciddi ölkələr məhz multikulturaldır. Artıq onların ərazilərində "çoxlu müxtəlif etnomədəni qruplar" [2, s.634] yerləşmişdir. Müəlliflər bu etnik qrupların mövcudluğunu heç də alqışlamırlar. "Qlobalistika" adlı dünyanın müxtəlif ölkələrindən olan 500 nəfər alimin hazırladığı beynəlxalq ensiklopedik lüğətdə isə multikulturalizmin başqa cür anlaşılmasına təsadüf edilir. "Multikulturalizm müasir mədəni plüralizm şəraitində ontoloji plüralizm statusu qazanır... Mədəni identiklik insan azadlığının mahiyyətini, onun formalaşması və reallaşmasını ifadə edir. Mədəni identikliyin düzgün anlaşılması müxtəlifliyə və plüralizmə, zəifliyə deyil güclü olmağa, münaqişəyə səbəb olmağa deyil, əməkdaşlıq vasitəsi olmağa imkan verir. Dəyərli plüralizm şəraitində ədalətin mənası dəyişir, fərdlərin, sosial qrupların tarixi, dini, həyat tərzi fərqlərinə diqqət artır" [3, s.580]. Multikulturalizmin belə şərhi müsbət xarakter daşıyır, multikulturalizm yalnız mədəni müxtəlifliyin və mədəniyyətlərin bərabərliyinin deyil, artan mədəni müxtəlifliyin, mədəniyyətlərin avtonomluğunun qəbul edilməsi hesab olunur.

Rusiya tədqiqatçısı P.S.Qureviç XX əsrin sonları XXI əsrin əvvəllə-

rində multikulturalizm ideyalarının tənəzzülə uğradığından bəhs edərək yazır: "Millətlərin və dövlətlərin bərabərliyi kəskin tənqidə məruz qalmışdır. Budur bəzi mühüm yerlərdə gözlərimiz önündə etnik və mədəni münaqişələr artır" [4, s.42]. Deməli, XXI əsrin əvvəllərində multikulturalizm müxtəlif mədəniyyətlərə, dinlərə, irqlərə, etniklərə hörmət praktikası kimi səciyyələndirilir.

Fəlsəfi aspektdən yanaşdıqda görmək olar ki, multikulturalizm daha geniş məna kəsb edir. Bunu multikulturalizm probleminin tədqiqatçısı V.S. Malaxov da təsdiq edir. O, multikulturalizmi "çoxluğun azlığa hörməti, müxtəlif mədəni ənənələrin bərabər statusa, fərdlərin öz identiklərini seçmək hüququna malik olması" [5, s.51] kimi səciyyələndirir. Müəllif problemə siyası, fəlsəfi nöqteyi-nəzərdən, konseptual yanaşır.

A.İ.Kuropyatnik özünün multikulturalizmə aid yazdığı fundamental əsərində göstərir ki, multikulturalizmdə:

"1. Müxtəlif təfəkkürlü, şüurlu, mədəniyyəti anlayan, hazırlayan və hasıl edən insanlar iştirak edir. Bu, mədəni assimilyasiyanın forma, üsul və vasitələrinin qorunub saxlanmasını tələb edir.

2. Mədəniyyətlərarası qarşılıqlı əlaqənin subyektləri yalnız etnik və mədəni sosial təsisatlar deyil, həm də insandır. İnsan ... mədəni identik, şəxsi, vətəndaş, etnik, dini, peşə, gender və s. müxtəlifliyin daşıyıcısıdır. İnsanın subyekt yetkinliyi sosial zamanla ölçülür.

3. Multikulturalizmə şəxsiyyət və mədəniyyətin qarşılıqlı əlaqəsi kimi dialoq xasdır" [6, s.17]. Beləliklə, multikulturalizm fəlsəfi kateqoriya kimi etnik və mədəni müxtəlifliyi, bərabərliyi, demokratikliyi, etnomədəniliyi, sərbəst özünüifadəliyi tolerantlığı əks etdirir.

Multikulturalizm fəlsəfəsinin formalaşdırılması və inkişafı Kanada filosofu Carlz Teylorun adı ilə bağlıdır. Onun konsepsiyasının əsasında öz fərdi meyarını qoruyub saxlayan insan durur. Müəllif şəxsiyyətin identikliyini onun daxil olduğu mədəniyyəti qəbul edib-etməməsilə əlaqələndirir. Avropa maarifçilik ənənələrinə müraciət edən kanadalı filosof göstərir ki, insan başqalarını qəbul etməsi prosesində formalaşır. Onun multikulturalizmi özünütəstiqin ifadəsidir. Ç.Teylor yazırdı: "Biz mədəni plüralizmi qəbul etmək vasitəsilə mədəni demokratiyanı əldə edirik" [7, s.27]. Müəllif mədəni demokratiyaya nail olmağın yolunun multikulturalizmdən keçdiyini göstərir. Onun multikulturalizm fəlsəfəsində multikultural mühitdə qarşılıqlı münaqişəsiz mövcudluğun əxlaqi şəraitinə diqqət yetirilir.

Multikulturalizm fəlsəfi konsepsiya kimi uzun müddət liberalizm və komuntarizm nümayəndələri arasında diskussiya nəticəsində meydana gəlmişdir. Bu problemin müzakirəsi iki fəlsəfi konsepsiyanın təşəkkülünə səbəb olmuşdur. Bunlardan biri ABŞ filosofu Uilla Kimliki multikultural vətəndaşlıq nəzəriyyəsi, digəri isə filosof komuntarist Maykl Uoltserin tole-

rantlıq nəzəriyyəsidir. Bu konsepsiyalar əslində liberal və komuntaristlərin fərqli baxışlarını əks etdirir. Öz əsərlərində liberal filosof U.Kimlik, M.Uoltserin nəzəriyyəsini tənqid etmişdir. M.Uoltser siyasətin millətdən və dindən ayrılmamasına iddia edirdi. U.Kimlik onunla razılaşmırdı.Onun fikrincə "dövlət etnik problemlərdən ayrı ola bilməz. Çünki dövlət yardımı olmadan bir çox milli azlıqlar məhv ola bilər, öz mədəni identiklərini itirə bilərlər" [8, s. 255]. Bununla da alim haqlı olaraq dövlət və cəmiyyətin mədəni müxtəlifliyə yardım etməsi məqsədini önə çəkir. Eyni zamanda o, inteqrasiya prosesinin güclənməsi üçün mühacirlərin öz dillərilə yanaşı, dövlət dilini də bilmələrinə, vətəndaşlığın tolerantlıq, dözümlük problemilə bağlılığının zəruriliyinə də diqqəti cəlb edir.

Azərbaycan tədqiqatçıları multikulturalizmi fəlsəfi kateqoriya kimi səciyyələndirirlər. Bu baxımdan fəlsəfə üzrə elmlər doktoru, professor İ.R.Məmmədzadənin "Multikulturalizm fəlsəfi problem və ideologiya kimi" məqaləsi diqqəti cəlb edir. Müəllif göstərir ki, multikulturalizm fəlsəfi problem kimi beynəlxalq münasibətlər, demokratiya, millət, vətəndaş cəmiyyəti və dövlətlərin inkişafı problemlərinin tədqiqatının güclənməsini cəlb edir:" ...biz başa düşürük ki, multikulturalizmin fəlsəfi problem olması, onun fəlsəfi təhlilinin isə müvafiq rasional, məqsədəuyğun və humanist ideologiya və siyasətin yaranmasına kömək etməsi təəccüb doğurmamalıdır" [9]. İ.R.Məmmədzadə multikulturalizmin bir problem kimi fəlsəfi dərkinin yeniliyini bir çox səbəblərlə əlaqələndirir. Bunlar aşağıdakılardan ibarətdir: "əvvəla onunla bağlıdır ki, xarici aləmlə qarşılıqlı informasiya və digər təsir formaları ilə getdikcə artan qarşılıqlı mübadilə zamanı istifadə olunan anlayışların məzmun və məntiqinin meydana çıxarılmasını tələb edir. İkincisi, hər bir ideologiya yalnız məntiqi ayarlanmış və müasirliyə adekvat konseptual aparat vasitəsilə keçmiş, indiki və gələcək zaman arasında, zahiri və batini, universal, lokal (yerli) və fərdi olan arasında, məqsəd və vasitələr və s. arasında qarşılıqlı təsir kimi ifadə və izah edilə bilər" [9]. Müəllif haqlı olaraq göstərir ki, bu problemin fəlsəfi dərki və təhlili olmadan bütün digər elmlər başqa məsələləri də düzgün təhlil edə bilməzlər.

Qocaman tədqiqatçı, fəlsəfə üzrə elmlər doktoru Z.Quluzadə "Multikulturalizmin tədqiqatının metodikası" məqaləsində qeyd edir ki, "son onilliklər ərzində belə qənaətə gəldim ki, ümumdünya tarixinə komparativist yanaşma və müasir elmlərin nailiyyətləri əsasında yeni ümumfəlsəfi metodologiyadan istifadə etmək mümkündür" [10, s.5]. Müəllif multikulturalizmin də ümumfəlsəfi metodologiyaya uyğun təhlil edilməsini tövsiyə edir.

Multikulturalizm fəlsəfi dəyər kimi fəlsəfənin tədqiqat obyektidir. Fəlsəfə multikulturalizmin məzmununu daha ətraflı, hərtərəfli araşdıraraq onu konseptual əsasda, bütöv, tam şəkildə dərk olunmasına kömək edir, multikulturalizmin ayrı-ayrı aspektlərini öyrənən elmlərə yardım edərək onlara

metodoloji yol göstərir.

**Nəticə.** Multikulturalizm ilk növbədə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığını, etnik- mədəni qrupların maraqlarının tanınmasını və həyata keçirilməsi ideyasına əsaslanır. Bu qrupların tələblərinin əsasında dil və din məsələsidir.

İctimai inkişafda mədəniyyətin aparıcı roluna dair qeyd olunan elmi müddəa müasir dövrdə xalqların həyatında mədəniyyətin mühüm rol oynadığını göstərməklə cəmiyyətdə etnik-mədəni müxtəlifliklərin qalxmasının səbəbini izah edir. Belə olan bir şəraitdə etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin ən optimal vasitəsi kimi multikulturalizm özünü büruzə verir. Buna görə də multikulturalizmin tədqiq olunmasında mədəni-sivilizasion yanaşmanın böyük metodoloji əhəmiyyəti vardır.

**ƏDƏBİYYAT**


1. Сущностные характеристики и особенности « мултикультурализма // https://knowledge.allbest.ru/culture/
2. The Oxford Companion to Pillosophy /Edit.by T. Honderich-Second Edition -New York. Oxford University Press. 2005.10.56 p.
3. Глобалистика: Международный междисциплинарный энциклопедический словарь. / гл. ред. И. И. Мазур, А. Н. Чумаков - Москва - Санкт Петербург: И.В. «Елима» ИД Питер. - 2006, - 1160 с.
4. Гуревич П.С. Актуальные проблемы этнопсихологии. Мир образования - образование в мире, - 2009, - №7 (33), - с. 32-43.
5. Малахов В.С. Парадоксы мультикультурализма и трансформация постсоветских обществ. под. ред. В.С. Малахов и В.А. Тинекова. – Москва: АСТ, - 2002. - с. 48-60.
6. Куропятник А.И. Мультикультурализм проблемы социальной стабильности политических обществ. – СПБ: Питер, - 2000, - 380 с.
7. Тейлор Ч. Демократическое исключение (и «лекарство» от него? // Мультикультурализм и трансформация постсоветского общества. - Москва: АСТ, - 2002, - с. 19-36.
8. Волкова Т.П. Классические философии концепции мультикультурализма и толерантности. //Вестник МГДУ, том 14, - 2011, - с. 254-259.
9. Məmmədzadə İ.P Multikulturalizm fəlsəfi problem və ideologem kimi.// Xalq qəzeti 15.08.2014 // http://www/xalqqazeti/com/news/culture/ 47445
10. Кулузаде З. Мультикультурализм: методология иследования //"Şərq fəlsəfəsinin problemləri" beynəlxalq jurnal. - 2016. 14.01. - N-2, - s. 4-6.


**МУЛЬТИКУЛЬТУРАЛИЗМ КАК ФИЛОСОФСКАЯ ЦЕННОСТЬ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ ПОДХОД К ПРОБЛЕМЕ)**

**З.Г.АСКЕРОВА**

**РЕЗЮМЕ**


В статье мультикультурализм как философская ценность, исследован в социально-философском аспекте. Автор подробно изучил происхождение термина мультикультурализм, его отражение в классических философских концепциях, подход

различных ученых к проблеме. Отмечено, что мультикультурализм, являющийся объектом междисциплинарных исследований, концептуально и методологически всесторонне изучен наукой философией. Рассматривая содержание мультикультурализма более подробно и всесторонне, философия помогает понять его на концептуальной основе, целостно, обеспечивает методологическое руководство наукам, изучающим отдельные аспекты мультикультурализма.

**Ключевые слова:** мультикультурализм, философия, мультикультурное общество, толерантность, культурное разнообразие, культурная демократия, философская ценность, философская концепция

## MULTİCULTURALİSM AS A PHİLOSOPHİCAL VALUE (A SOCİO-PHİLOSOPHİCAL APPROACH TO THE PROBLEM)

**Z.G.ASGAROVA**

### SUMMARY

In the article, multiculturalism as a philosophical value is studied in the socio-philosophical aspect. The author studied in detail the origin of the term multiculturalism, its reflection in classical philosophical concepts, the approach of various scientists to the problem. It is noted that multiculturalism, which is the object of interdisciplinary studies, is conceptually and methodologically comprehensively studied by scientific philosophy. Considering the content of multiculturalism in more detail and comprehensively, philosophy helps to understand it on a conceptual basis, holistically, and provides methodological guidance to the sciences studying individual aspects of multiculturalism.

**Keywords:** multiculturalism, philosophy, multicultural society, tolerance, cultural diversity, cultural democracy, philosophical value, philosophical conception

**UOT 66.2**
**Orcid:0009-0009-8088-4830**

# AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA STRATEJİ ƏMƏKDAŞLIQ

**G.Ə.ABBASOVA**
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***multikultural@mail.ru***

*Azərbaycan Qərbi və Şərqi türk xalqlarını birləşdirən coğrafi məkanda yerləşir. Türkiyə Cümhuriyyəti Azərbaycan vasitəsi ilə Şərq türkləri ilə hərtərəfli əlaqələr qura bilər. 1993-cü ildən keçirilən "Türk Dövlət və Toplumlarının Dostluğu, Qardaşlıq İşbirliyi" qurultayları etnik köklərin mədəni yaxınlaşmasında və tarixi yaxınlıqda mühüm rol oynayır. Türk xalqının birliyi türk ruhunu gücləndirir, ortaq maraqların birliyi strateji əlaqələri gücləndirir.*

**Açar sözlər**: tarixi soykök birliyi, dil birliyi mədəniyyət birliyi, geosiyasi mövqe birliyi

**Giriş.** Ötən il həm Ümummilli Lider H.Əliyevin, həm də Türkiyə Cümhuriyyətinin 100-cü ildönümünü qeyd etdik. Heydər Əliyev siyasi irsinə maraq illər keçdikcə daha da artmaqdadır. Xüsusilə də türk xalqları arasında Heydər Əliyevin şöhrəti, nüfuzu hər zaman diqqət çəkici olmuşdur və SSRİ hökumətinin rəhbərliyindəki yüksək məqamında rəhbərlik etdiyi çox mühüm sahələrdə gördüyü ölçüyəgəlməz işlərlə, həyata keçirdiyi layihələrlə, eyni zamanda güclü iradəsi və cazibədar şəxsiyyəti ilə O, ümumxalq ehtiramını qazanmışdı.

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir.

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin ya-

radıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan saymışdır. Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən biridir.Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var, çünki Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi.

Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır. Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Hər birimizə məlumdur ki.Türkiyə Respublikasının geosiyasi strategiyasında Azərbaycan əsas yer tutan ölkədir. Türkiyə Azərbaycanın müstəqilliyini 1991-ci il noyabr ayının 11-də tanımışdır. 1992-ci ilin mart ayından diplomatik əlaqələr yaranmışdır. Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə geosiyasi mənafeyə üstünlük verilir. Azərbaycan vasitəsilə Türkiyə Orta Asiyanın türkdilli xalqları və Qafqaz ilə əlaqələri genişləndirə bilir. Z.Bjezinski "Türkiyəni siyasi regionun fəal dövləti" [1] adlandırır.

Həmçinin A.Dugin də Türkiyəni geostrateji cəhətdən əhəmiyyətli, dünyəvi dövlət hesab edir. Azərbaycan Türkiyə üçün həm Qərbə, həm də Şərqə açılan "sanitar koridor" [2] adlandırılır.

Türkiyə ilə Azərbaycanın yaxın münasibətlərinin əsas amillləri hər kəsə məlumdur: tarixi soykök birliyi; dil birliyi; mədəniyyət birliyi; geosiyasi mövqe birliyi.

Hər iki dövlətin xarici siyasətinin əsas istiqamətini sülh, sabitlik, demokratiya təşkil edir. Xarici siyasət vətən, bölgə, iqtisadi, mənəvi dəyərlər əsasında qurulur.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr bütün istiqamətlərdə inkişaf edir: Türkiyə beynəlxalq aləmdə Azərbaycanın milli mənafeyini müdafiə edir; informasiya, nəqliyyat, rabitə, bank, ticarət, tikinti sahələrində əməkdaşlıq; təhsil, elmi tədqiqat, mədəniyyət sahələrində əməkdaşlıq; iqtisadi,

sərmayə qoyuluşu sahəsində əməkdaşlıq; təhlükəsizlik sahəsində əməkdaşlıq.

S.İlhan yazır: "Türk tarixi boyunca qurulan dövlətləri bir digər özəlliyini, coğrafi bütünlüyü saxlamaqla qarşılaşan sıxıntılar təşkil edir. Coğrafi qohumluq eyni millət, eyni soyköklərin coğrafi əlaqələrini dövlətin gücü hesab edilir" [3].

Bu baxımdan Türkiyə dövləti yalnız dünyanın böyük, güclü dövlətləri ilə deyil, həm də türk dünyası ilə, o cümlədən müstəqil Azərbaycan dövləti ilə əlaqələr saxlayır. Azərbaycanla əlaqə Türkiyə dövlətinin siyasi strategiyasına, milli mənafeyinə xidmət edir.

Azərbaycan Türkiyə münasibətlərinin strateji əhəmiyyəti böyükdür. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə strateji müttəfiq və dayaqdırsa, Azərbaycanın güclü dövlət olması Türkiyə dünya siyasətində gücünün və rolunun olması deməkdir.

Türkiyə dövləti Azərbaycan vasitəsilə Qafqaz və Orta Asiya ilə əlaqələr saxlayır.

Azərbaycan Turanın altun körpüsü hesab edilir. Türkiyə geosiyasətinin mənfi amili neftin olmamasıdır. Onu kənardan gətirməyə məcburdur.

Neft amilinin həll edilməsi Türkiyə Azərbaycan münasibətlərini inkişaf etdirir. «Bakı-Ceyhan» neft magistralının çəkilməsi başa çatdıqdan sonra neftə olan tələbatın ödənilməsi həll edildi.

Azərbaycan qərb və şərq türk xalqlarını birləşdirən coğrafi məkanda yerəşir. Azərbaycan vasitəsilə Türkiyə Respublikası şərq türkləri ilə hərtərəfli əlaqələr yarada bilir.1993-cü ildən başlayaraq keçirilən «Türk dövlətlərinin və toplumlarının dostluq, qardaşlıq iş birliyi» qurultayları etnik soykök, tarixi yaxınlığın mədəniyyətin yaxınlaşmasında mühüm rol oynayır. Türk xalqlarının birliyi türk ruhunu möhkəmləndirir, ümumi mənafe birliyi strateji əlaqəni gücləndirir.

Türkiyə Respublikası Ə.N.Sezərin Azərbaycana ilk rəsmi səfəri (iyul 2000) hər iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynadı. Dövlət başçıları tərəfindən indiyə qədər olan strateji yaxınlaşmanı qiymətləndirməklə yanaşı, əlaqələrin gələcək inkişaf planının həyata keçməsi siyasəti hazırlanmış və əsas istiqamətlər müəyyənləşdirilmişdir.

Azərbaycanla Türkiyənin gələcək münasibətlərindən bəhs edən Ə.N.Sezər demişdir: "Azərbaycan xalqının öz iradəsi ilə qəbul edəcək qərarların altına imza atmağa hazırıq" [4].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan xalqına «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» müraciətində deyilir: "Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə öz töhfəsini verir" [5].

Azərbaycanın Türkiyə ilə əməkdaşlığında hər iki dövlət arasında bağlanan müqavilələr mühüm rol oynayır.1992-ci ildə Azərbaycanla Türkiyə arasında 21, 1994-cü ildə 17, 1995-ci ildə 4, 1996-cı ildə 4, 1997-ci ildə 12, 1999-cu ildə 3, 2000-ci ildə 6 protokol saziş bağlanmışdır. Bağlanan sazişlər iqtisadi, elmi-texniki, təhsil, vizasız gediş-gəliş, investisiya qoyuluşu, televiziya-radio əlaqələri, kredit əlaqəsi, ticarət əlaqəsi,mütəxəssis kadrların hazırlanması, turizm əməkdaşlığı, nəqliyyat əlaqəsi, konsulluq əlaqəsi, təbiəti mühafizə sahəsində əməkdaşlıq, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq, gömrük sahəsində, hərbi strateji sahələrdə əməkdaşlığı əhatə edir. Hər iki dövlət arasında bağlanan müqavilələrdə hərbi strateji sahədə əməkdaşlıq mühüm yer tutur.

Türk xalqı qardaş Azərbaycanın müstəqilliyinə özünün müstəqilliyi kimi baxır. Türkiyə dövləti xarici siyasətdə Azərbaycanın milli mənafeyini müdafiə edir. Türkiyə dövləti Qafqazda Mərkəzi Asiyada nüfuzunu saxlamaq üçün Azərbaycana təbii müttəfiq kimi baxır.

Türk dünyasının İstanbulda keçirilən II zirvə toplantısında (oktyabr 1999) ipək yolunun bərpası, Bakı-Ceyhan magistral xəttinin, transxəzər beynəlxalq ticarət xəttinin əhəmiyyəti, təhlükəsizlik haqqında ümumi razılıq müzakirə edilmişdir. Azərbaycan ilə Türkiyə arasında iqtisadi sahədə əməkdaşlığın genişlənməsində «Əsrin müqaviləsi» mühüm rol oynayır. Xəzərin enerji yataqlarının işlənilməsində, neft magistrialının çəkilişində Türkiyənin neft şirkətləri aparıcı yer tuturlar. «Bakı-Tbilisi-Ceyhan» neft magistralının çəkilməsi haqqında qərarın qəbul edilməsi hər iki dövlətin iqtisadi əlaqələrində yeni mərhələ açır. Neftə olan tələbatının ödənilməsi Türkiyənin strateji təhlükəsizlik məsələsidir. Bakı-Supsa kəməri vasitəsilə aparılan neft qərb istiqamətində gəmilər vasitəsilə Bosfor boğazından keçir. Türkiyə dövləti Bosfordan neft daşınmasını təhlükəli hesab edir. Buna görə də Bakı-Tiflis-Ceyhan magistralına üstünlük verir.

Qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə müttəfiqliyini, birliyini və qardaşlığını, bir-birinə verdiyi güclü dəstəyi dünya təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşması, Vətən müharibəsi zamanı görməyib. İki qardaş dövlətin birliyi və müttəfiqliyi tarix boyu hər bir dövrdə, bütün məsələlərdə hiss olunub və hər iki ölkə mənəvi, siyasi və digər baxımdan bir-birini daim dəstəkləyib.

"Türkiyə və türk dünyası" kitabında yazılmışdır: "Türkiyə ilə Azərbaycan arasında çox zəngin və çeşidli sahələri olan iş birliyi imkanları mövcuddur" [6].

Ulu Öndərin hakimiyyəti dövründə Türkiyənin 800-ə yaxın firması Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymuşdur. Həmin firmalarda 3 min nəfərə yaxın Türkiyə, 10 min nəfərdən çox azərbaycanlı çalışır.

Azərbaycan ilə Türkiyə əlaqələrini yaxınlaşdıran dəyərlər aşağıdakılardır; iqtisadi dəyərlər; tarixi yaxınlıq; dil və mədəniyyət yaxınlığı; beynəlxalq münasibətlərdə geosiyasi yaxınlıq.

Azərbaycan-Türkiyə münasibətlərində mənafeləri aşağıdakı, aydada qruplaşdırmaq olar: qlobal mənafe; regional mənafe; siyasi, iqtisadi mənafe; təhlükəsizlik mənafeyi.

Azərbaycanın milli dövlət, sülh və sabitlik yaratmaq siyasətini Türkiyə dəstəkləyir. Atatürkün Azərbaycanın kədəri bizim kədərimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir sözləri bu gün daha aktual səslənir.

Hər iki dövlətin BMT Nizamnaməsində nəzərdə tutulan prinsip və məqsədlərə, Helsinki Yekun Aktına, Yeni Avropanın Paris xartiyasına və ATƏT-in digər sənədlərə tərəfdar olduğu bildirilir. İki xalq arasında soykök və dil yaxınlığı, tarixi ənənə nəzərə alınır. Müqavilədə qeyd edilir ki, məhəlli və beynəlxalq məsələlərdə qarşılıqlı əlaqələr yaradılmalı, Xarici İşlər Nazirlikləri səviyyəsində məsləhətləşmələr aparılmalıdır. Türkiyə ilə Azərbaycan arasında müqavilə digər ölkələrin mənafeyinə qarşı çevrilmir. Müqavilənin digər şərtləri iqtisadi, elmi-texniki, mədəniyyət, informasiya sahəsində əməkdaşlığı nəzərdə tutur.

Türkiyənin siyasi mənafeyi ilə Azərbaycanın siyasi mənafeyi üst-üstə düşür. Məhz buna görə də Türkiyə dövləti Azərbaycanın müstəqilliyini öz müstəqilliyi hesab edir.

Xalqlarımız arasındakı doğmalıq, dostluq, qardaşlıq duyğuları bu əlaqələri daha da möhkəmləndirir. Türkiyə ilə Azərbaycan arasındakı sıx əlaqələr təkcə xalqlarımız üçün deyil, dünya üçün də mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələr regional əməkdaşlıq üçün başlıca şərtdir.

Türkiyə və Azərbaycan dostluğundan danışarkən S.Dəmirəl demişdir: "Türkiyə ilə Azərbaycan qardaş iki dövlətdir və bir millətdir. Azərbaycanın ələmi bizim ələmimizdir. Sevinci bizim sevincimizdir – bununla Türkiyənin Azərbaycanla ilgili politikası, qardaşlığı, dostluğu, qonşuluğu, bərabərliyi ifadə edilmişdir" [7].

Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qurulmuş dostluq və qardaşlıq münasibətləri bu gün Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir. Fərəh və iftixar hissləri ilə vurğulanmalıdır ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək zirvəsinə ucalıb.

Otuz illik işğala son qoyulmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpasında Türkiyənin mənəvi-siyasi dəstəyini dövlətimiz və xalqımız yüksək qiymətləndirməklə heç vaxt unutmayacaq. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı tarixi bağlara malik olmağımız ölkələrimizi daha da yaxınlaşdırır və xalqlarımızın sevincli, kədərli günlərdə hər zaman bir-birinin yanında olmalarını şərtləndirir. Qardaş ölkənin Prezi-

denti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qururumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə biz də sevinərik sözləri hər birimizə qürur və iftixar verir. Azərbaycan-Türkiyə münasibətləri kifayət qədər çoxşaxəli və genişmiqyaslıdır. Yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, Azərbaycan-Türkiyə qardaşlığa, dostluğa və strateji müttəfiqliyə əsaslanır. Əminliklə söyləmək olar ki, son zamanlar iki ölkənin müxtəlif sahələrdə birgə həyata keçirdikləri layihələr Azərbaycan ilə Türkiyə arasında münasibətləri daha yüksək səviyyəyə yüksəldəcək.

Şanlı qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının ən böyük meydanı olan "Azadlıq meydanı"nda möhtəşəm Zəfər Paradı keçirildi. Xüsusi vurğulamaq lazımdır ki, Rəcəb Tayyib Ərdoğanın Bakıda azadlıq meydanında keçirilən Zəfər Paradında prezident İlham Əliyev ilə çiyin-çiyinə dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi.

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir. Bu baxımdan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son səfəri iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə şərait yaradacaq, həmçinin regional inkişafın, eləcə də təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətli olacaqdır. İnanırıq ki, Azərbaycan və Türkiyə bundan sonra da hər zaman bir-birinin yanında olacaq, bir-birinin uğurlarına sevinəcəklər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə-Azərbaycan münasibətlərini dünyanın digər ölkələri üçün nümunə adlandırıb.

**Nəticə.** Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun Zəfər qazanaraq 30 illik işğala son qoymaqla beynəlxalq ədaləti bərpa etməsi böyük bir coğrafiyada əməkdaşlıq, qarşılıqlı faydalı münasibətlər kontekstindən yeni mənzərə yaradıb. Bu siyasi təntənənin təməlində Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri, qarşılıqlı faydalı əməkdaşlıq, liderlərimizin birgə qərarları və davamlı olaraq həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr dayanır. Qarabağ Zəfəri iki qardaş dövlətin və xalqın birlik təntənəsidir. Bu Zəfər qardaş dövlətlərimizin tarixi səhifələridir.

**ƏDƏBİYYAT**

1. Бжезинский З. Великая шахматная доска. – Москва, - 1999.
2. Дугин А. Основы георолитики. – Москва, -1999.
3. İlhan S. Türkiyenin və Türk dünyasının jeopolitiki. – Ankara, - 1993
4. Zaman qəzeti.13-14 iyun 2000.
5. Əliyev H. Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. – Bakı, - 2001.
6. Türkiye və Türk dünyası. – Ankara, - 1997.

7. Büyük Gelecek jurnalı. Mart, 1999.
8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin məlumatı.
9.Türkiyenin 21-ci yüzyıla ilişkin Milli qüvenlik stratejisi. – İstanbul, 1999.
10 .Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. – Bakı, - 1996.
11. Nəsibli N. Azərbaycanın geosiyasəti və neft. – Bakı, - 2000.

## СТРАТЕГИЧЕСКОЕ СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

**Г.А.АББАСОВА**

### РЕЗЮМЕ

Азербайджан расположен в географическом пространстве, соединяющем западные и восточные тюркские народы. Через Азербайджан Турецкая Республика может установить всесторонние отношения с восточными тюрками. Важную роль в культурном сближении этнических корней, исторической близости играют конгрессы «Дружба, братское сотрудничество турецких государств и общин», проводимые с 1993 года. Единство турецкого народа укрепляет турецкий дух, единство общих интересов укрепляет стратегические отношения.

**Ключевые слова:** историческая корневая ассоциация, языковое единство, культурное единство, единство геополитического положения

## STRATEGIC COOPERATION BETWEEN AZERBAIJAN AND TURKEY

**G.A.ABBASOVA**

### SUMMARY

Azerbaijan is located in the geographical space connecting the western and eastern Turkic peoples. Through Azerbaijan, the Republic of Turkey can establish comprehensive relations with the Eastern Turks. "Friendship, fraternal cooperation of Turkish states and communities" congresses, held since 1993, play an important role in the cultural convergence of ethnic roots, historical closeness. The unity of the Turkish people strengthens the Turkish spirit, the unity of common interests strengthens the strategic relationship.

**Keywords:** historical root association, language unity, cultural unity, unity of geopolitical position.

## PEDAQOGİKA

**UOT 37.013**
**UOT 01**
**Orcid.org/0009-0007-5075-5531**

# ƏNƏNƏVİ VƏ MÜASİR BİBLİOQRAFİYA TƏHSİL VƏ TƏDQİQAT MÜHİTİNİN ELEMENTİ KİMİ

**N.İ.XƏLİLOVA**
***Bakı Dövlət Universiteti***
*nebiyeva.namiye@mail.ru*

*Məqalədə elmi kommunikasiyanın elementi kimi biblioqrafik informasiyanın tarixi təkamülü və müasir vəziyyəti tədqiqata cəlb olunmuşdur. Biblioqrafik informasiya təhsil və elm sahəsində çalışan istifadəçilərin informasiya tələbatının ödənilməsi vasitəsi kimi şərh edilmişdir. Məqalədə tədqiqatçılara ədəbiyyat seçərkən biblioqrafik dəstəyin zəruriliyindən və onun alətlər sistemindən bəhs edilir. Biblioqrafik fəaliyyətin mahiyyəti, inkişafı və tədqiqatçılar üçün müstəsna əhəmiyyəti izah edilir.*

**Açar sözlər:** ənənəvi biblioqrafiya, elektron biblioqrafik məhsul, elektron kataloq, biblioqraf-informasiya təhlilçisi

Sənədlər (çap əsərləri ) haqqında məlumat verən və onların müəyyən ictimai məqsədlər üçün fəal təbliğini həyata keçirən elmi və praktik fəaliyyət sahəsini ifadə edən söz Biblioqrafiyadır. Biblioqrafiya bir mövzuya dair nəşrlərin bütün məcmusudur. Bu termin yunan dilində βιβλιογραφία "biblio-kitab" və "grapho-yazmaq" sözlərindən əmələ gəlib, təsvir etmək deməkdir. Biblioqrafiya sözü ilk dəfə eramızdan əvvəl 3-cü əsrdə yunanlar tərəfindən kitabların əl ilə köçürülməsi mənasında istifadə edilmişdir. Təxminən eramızdan əvvəl 5-ci əsrdə Yunanıstanda kitabları köçürən insanları biblioqraflar adlandırmağa başladılar (2, 3).

Tarixən biblioqrafik informasiyanın ilkin formaları qədim dövrlərdə yaranmışdır. Beləliklə, biblioqrafik informasiya ilə yanaşı, biblioqrafik fəaliyyət də yaranmışdır. Əvvəlcə biblioqrafik fəaliyyət qeyri-peşəkar, təsadüfi və epizodik xarakter daşıyırdı. Alimlər, yazıçılar, rahiblər, kitabxanaçılar,

naşirlər və kitabçılar təsadüfən və əsas məşğuliyyətləri ilə əlaqədar bu fəaliyyətlə məşğul olurdular. Lakin zaman keçdikcə biblioqrafiya özünü təcrid etməyə, kitabların biblioqrafik təsviri üçün öz texnika və qaydalarını inkişaf etdirməyə başlayır və nəhayət, peşəkar insan fəaliyyətinin xüsusi sahəsi kimi formalaşır. Bu proses tarixən uzun və mürəkkəb olmuşdur.

Antik dünyanın süqutundan sonra biblioqrafiya sözü uzun müddət istifadə edilməmişdir. Bu söz kitab çapının ixtirasından az sonra yenidən xatırlandı və o dövrdə bəzən biblioqrafları mətbəəçi adlandırırdılar. Biblioqrafiya xüsusilə Avropada inkişaf etməyə başlayan və tarixin hər dövründə ehtiyac duyulan bir fəaliyyət olmuşdur. Ölkəmizdə bu sahə ilə bağlı ilk sınaqlar orta əsrlərdə həyata keçirilmişdir. Antik dövr və orta əsrlərdə kitab siyahıları hazırlanırdı. Lakin əsl biblioqrafiyanın hazırlanması zərurəti 15-ci əsrin sonu 16-cı əsrin əvvəllərində yarandı. `

Yalnız XVII əsrin birinci yarısında fransız alimləri Qabriel Node və Lui Yakob öz əsərlərinin adlarında ilk dəfə "biblioqrafiya" sözünü işlətmişlər. Tezliklə o, daha geniş mənalar kəsb etmişdir. Biblioqrafiya terminindən istifadənin uzun tarixi təcrübəsi zamanı o, açıq-aydın çox dəyərlilik xüsusiyyətlərini əldə etdi.

Avropada biblioqrafiyaya sürətli maraq 18-ci əsrədək davam etdi. Xüsusi biblioqrafiyalar bu dövrdə ən yüksək səviyyəyə çatdı. Bütün Avropada bir peşə olaraq başlayan biblioqrafiya, nəhayət, 1789-cu ildən Fransada "Kitabşünaslığ"-ın yerini aldı və "Kitabxanaçılıq", "Kitab kolleksiyası", "Kitabxana tarixi" və s. kimi müxtəlif sahələri də əhatə etdi.

1895-ci ildə Brüsseldə Beynəlxalq Biblioqrafiya İnstitutu yaradıldı. Bu qurumun məqsədi XV əsrdən bəri bütün ölkələrdə və bütün mövzularda çap olunan nəşrlərin siyahısını hazırlayan bir mərkəz olmaq idi. Birinci Dünya Müharibəsinə qədər biblioqrafiyanın çox məhsuldar dövrü olmuşdur. Lakin müharibədən sonrakı yeni iqtisadi şərait bu dövrə son qoydu.

Biblioqrafiyanın müstəqil elmi fənn kimi formalaşması XX əsrin ikinci yarısında baş vermişdir və bu biblioqraf alimlərin (nəzəriyyəçilərin) nailiyyəti idi. Dönüş nöqtəsi 1960-1970-ci illər idi. Məhz bu zaman xüsusilə rus biblioqrafları nəzəri müzakirələr zamanı əksər biblioqrafik ictimaiyyəti inandırdılar ki, biblioqrafiyanın əsl predmeti kitablar (çap əsərləri) deyil, biblioqrafiyanın özüdür və o, kitabla oxucu arasında vasitəçi rolunu icra edir. Bu, biblioqrafiyanın müstəqil elmi istiqamət kimi formalaşmasının başlanğıcı oldu.

Biblioqrafiyaşünaslıq praktik biblioqrafik fəaliyyətdən xeyli sonra yaranmış gənc elmi fəndir. Biblioqrafiya haqqında elmi fikirlərin yaranması və inkişafı biblioqrafların öz peşə fəaliyyətlərinin praktiki təcrübəsini dərk etməsi və ümumiləşdirməsi nəticəsində baş vermişdir. Biblioqrafiya kitabların təsviri və identifikasiyasından ibarətdir. Bu elmin məzmunu əsərlərin

varlığı və dəyəri haqqında məlumat verməkdir. Biblioqrafiya nəşr olunan çap əsərlərinin fihristidir (yəni göstəricisidir).

Biblioqrafik fəaliyyətin tarixi mürəkkəbləşməsi zamanı onun vəzifə və funksiyaları, təşkilati forma və üsulları getdikcə rəngarəngləşir və biblioqrafik fəaliyyətin öz daxilində istər-istəməz əmək bölgüsü prosesi başlayır. Biblioqrafik informasiyanın yaradılması fəaliyyəti biblioqrafik məlumatın istehlakçılara çatdırılması fəaliyyətindən ayrılmağa başlayır. Bu, biblioqrafik fəaliyyətin iki əsas prosesini fərqləndirir: biblioqrafiyalaşdırma və biblioqrafik xidmət.

Artıq biblioqrafiyaşünaslıq ilə biblioqrafiya (biblioqrafik fəaliyyət) arasında fərq hamılıqla tanınmışdır.

Biblioqrafiya biblioqrafik informasiyanın hazırlanması və informasiya istehlakçılarına biblioqrafik xidmətin göstərilməsini təmin edən praktik fəaliyyət sahəsidir; biblioqrafiyaşünaslıq – bu fəaliyyəti öyrənən elmi fəndir. Biblioqrafik məhsulları, biblioqrafiyanın tarixini və nəzəriyyəsini, biblioqrafik fəaliyyətin təşkili və metodologiyasını öyrənən elmə biblioqrafiyaşünaslıq deyilir. Biblioqrafiyanın inkişafı biblioqrafik xidmət əsasında təmin edilir ki, bunun nəticəsi olaraq biblioqrafik məhsullar yaranır.

Biblioqrafik fəaliyyət biblioqrafik informasiyaya olan tələbatı ödəyən fəaliyyət sahəsidir. Biblioqrafik fəaliyyətin əsas məqsədi istifadəçilərin (oxucuların) müxtəlif şəxsi, təhsil, peşə və ya sosial ehtiyaclarını ödəmək üçün lazım olan məlumatları təmin etməkdir. Biblioqrafik fəaliyyətin məzmunu biblioqrafik məlumatların hazırlanması və onların tələblərinə uyğun olaraq istehlakçılara çatdırılması üzrə müxtəlif proses və əməliyyatlardan ibarətdir. Biblioqrafik məlumatların hazırlanması prosesinə biblioqrafiyalaşdırma deyilir. İstehlakçılara sənəd haqqında məlumatın çatdırılması üzrə fəaliyyət - biblioqrafik xidmət adlanır. Sonuncuya soraq-biblioqrafiya xidməti (birdəfəlik sorğuların yerinə yetirilməsi) və biblioqrafik informasiya xidməti (cari sorğulara uyğun məlumatların verilməsi) daxildir.

Ölkəmizdə biblioqrafik fəaliyyət kütləvi peşə xüsusiyyətlərini yalnız XX əsrin II yarısından kitabxanaçılıq çərçivəsində əldə etmişdir.

Biblioqrafiya sənədlərin hansı fondda, hansı kitabxanalarda yerləşdiyini bizə bildirmir. Yalnız onlar haqqında məlumatın mənbəyini ehtiva edir. İstifadəçi və sənəd arasında vasitəçi rolunu oynayır. İndiyə qədər bütün elmlərin müxtəlif sahələrində nəşr olunan kitabların məntiqi və aydın şəkildə təşkil olunmuş kataloqu olmaqla həm kitab satıcıları, həm də müəyyən bir mövzuda əsər yazacaq şəxslər üçün çox dəyərli vasitədir. Məsələn, ədəbiyyat tarixini yazmağa hazırlaşan tədqiqatçı müxtəlif əsrlərdə ədəbiyyat tarixi ilə bağlı yaradılmış bütün əsərləri nəzərdən keçirməsə, necə yaza bilər? O vaxta qədər çap olunmuş bütün əsərləri nəzərdən keçirmədən bir mövzuda əsər yazmaq mümkün deyil. Çox güman ki, yazmaq istənilən şeylər o tədqi-

qatçıdan əvvəl başqaları tərəfindən daha mükəmməl yazılıb. Buna görə də, edilən yalnız təkrar olacaq. Əvvəlki əsərləri nəzərdən keçirmədən yeni bir əsər yaranarsa, bəzi vacib məqamları unudub yarımçıq bir əsər yaratmaq da qaçınılmazdır.

Amma biblioqrafiyanın yaradılması, onun üzərində işləmək çox vaxt aparır. Və belə bir vəsaiti tamamlamaq heç vaxt hər kəsin asanlıqla edə biləcəyi bir iş olmayacaq. Biblioqraflar indiyə qədər yalnız müəyyən sahələr üzrə belə göstəricilər yaratmışlar. Lakin bunların heç birini tam hesab etmək olmaz. Çap maşını ixtira olunduqdan sonra kitablar o qədər çoxalıb ki, onlar bir-birinin ardınca sinif və bölmələrə, növ və tiplərə bölünüb. Nəzəri baxımdan biblioqrafiyanın flora və fauna qədər müxtəlif təsnifatını aparmaq olar. Bütün biblioqrafik vasitələr sisteminin genişlənməsi, mürəkkəbləşməsi təsadüf deyil. Bu müyyən zərurətdən yaranmışdır. Tələbat genişləndikcə onun ödənilməsi vasitələri də yaranır. Tarixi inkişaf prosesində mövcud biblioqrafik vasitələr informasiya tələbatını tam ödəyə bilmədiyi üçün yeni tipli biblioqrafik vəsaitlər yaranmışdır. Beləliklə informasiyanın-sənədlərin mühafizəsinin formaları, həm də onun ötürülməsinin vasitələri getdikcə müasirləşmişdir.

Qeyd etmək lazımdır ki, "biblioqrafiyanın növləri" biblioqrafiyaşünaslıqda ən qədim və hələ də tam həll olunmamış təsnifat problemlərindən biridir (9, 129).

Məlumdur ki, informasiya cəmiyyətində insan amili və informasiyanın keyfiyyətinin dəyişməsi ən mühüm məsələdir. İnformasiya həm şəxsi resurs, həm də əsas iqtisadi resurs hesab edilir. Bu gün informasiya cəmiyyətində informasiya yeganə mənalı mənbə kimi qəbul edilir. Ənənəvi istehsal amilləri, yəni təbii ehtiyatlar, əmək və kapital itmir, arxa plana keçir. Bu istehsal amilləri bilik vasitəsilə əldə edilə bilən resurslardır. Burada məlumatın keyfiyyəti də önəmlidir. İnformasiya cəmiyyətinin ən xarakterik xüsusiyyəti ötürülən və əldə edilən informasiyanın həcmindəki radikal artımdır. Son 30 ildə dünyada istehsal edilən informasiyanın ümumi həcmi əvvəlki 5000 ildə istehsal olunan məlumatdan çoxdur. Bu gün yüksək tirajlı gündəlik qəzetin həftəlik sayındakı məlumat XVII əsrdə orta insanın bir ömür boyu əldə edə biləcəyi məlumatdan daha çoxdur. Sözü gedən şəraitdə müəyyən mövzular və görkəmli şəxslərlə bağlı ərsəyə gələn informasiya resurslarının həcmi də sürətlə artmaqdadır. Lakin burada kəmiyyət və keyfiyyət fərqi aydın görünür. Artan bu sənəd kütləsi içərisində ən sanballı və faydalı olanları seçmək və informasiya tələbatçılarına çatdırmaq isə sənədlərlə istifadəçilər arasında vasitəçilik funksiyasını yerinə yetirən biblioqrafiyanın öhdəsinə düşür.

İnsanlar təhsil və iş prosesində, qərar qəbul edərkən, hər hansı bir fəaliyyəti icra edərkən istiqamətləndirici, faydalı və problem həlledici məlumatlara ehtiyac duyurlar. Bu məlumatları ehtiva edən mənbələr soraq

nəşrləri və sənədlər haqqında informasiyanı özündə əks etdirən biblioqrafiyalardır. Bu nəşrlər əvvəldən axıra kimi oxunmaq üçün deyil, fərdin xüsusi tələbatlarına uyğun məlumatları ehtiva edən bölmələr üçün istifadə olunur. Yəni biblioqrafik mənbədən istifadə etməyin qaydası onu oxumaq deyil, ona biblioqrafik baxış keçirməkdir.

Biblioqrafiya insan tələbatlarının müəyyən vasitələrlə ödənilməsini asanlaşdırmaq ideyasının praktiki nəticələrindən biridir. İstifadəçilər özlərinə lazım olan mövzularda sənədlərin adlarını və biblioqrafiyadan istifadə etməklə bu sənədlərin məzmunu ilə bağlı məlumatları bilməyə ehtiyac duyurlar. Əslində biblioqrafiyanın əsas məqsədi müəyyən vasitələrlə insanların həyatını asanlaşdırmaqdır. Biblioqrafiya istifadəçilərin kitabxana-kitabxana gəzərək vaxt itirməsinin qarşısını alır, işin lap əvvəlində istinadların müəyyən edilməsində problemlərin ortaya çıxmasının qarşısını alır, rahatlıq və asanlığı təmin edir, vaxt itirilməsinin qarşısını alır, əmək, pul və vaxta qənaət edir.

Xüsusilə son yüzillikdə nəşriyyat biznesinin inkişafı, sənədlərin çoxalması insanın hansısa mövzu və ya müəllif haqqında hər şeyi bilməsini mümkünsüz edib. Beləliklə, hər bir mövzu üzrə müxtəlif aspektlərdə hazırlanmış biblioqrafiyalar (biblioqrafik vəsaitlər) tədqiqatı asanlaşdıran və səmərəli edən əsas mənbələrə çevrilir.

Biblioqrafik mənbələr birbaşa informasiyanı çatdırmayan, lakin müxtəlif növ informasiya mənbələrinin mövcudluğu barədə xəbərdar olmağa imkan verən ikinci dərəcəli mənbələrdir. Biblioqrafiyalar əhatə etdiyi informasiya mənbələrinin təsviri məlumatlarını/biblioqrafik identifikasiyasını verən və istifadəçini orijinal mənbəni əldə etmək üçün istiqamətləndirən resurslardır. Biblioqrafik vəsaitlər xüsusiyyətləri, tərtib metodları, vaxt və əhatə dairəsi baxımından müxtəlif növlərə ayrılır.

Biblioqrafiya çap və ya elektron ola bilər. Çap formasında olan biblioqrafik resurslar adətən müxtəlif tipli və növlü biblioqrafik vəsaitlərdən ibarətir. Bunlar ehtiva etdikləri informasiya mənbələrinin biblioqrafik identifikasiyasını verir. Verilənlər bazaları da elektron biblioqrafiya və/ və ya kataloqların elektron versiyasıdır. Bəzi verilənlər bazaları istifadəçiləri yalnız biblioqrafik informasiya ilə təmin etdikləri halda digərləri xülasə və/ və ya tam mətni də təqdim edir.

Biblioqrafiya axtarış infrastrukturu kimi böyük təkamül prosesi keçmişdir. Bununla belə, müasir biblioqrafik elmin və təcrübənin elektron informasiya massivlərində biblioqrafik axtarışa hazırlıqsızlığı ilə bağlı mütəxəssislər fikirlər irəli sürür.

Bu gün inkişaf edən texnologiya ilə biblioqrafiya sahəsindəki işlər də kompüter və internet mühitlərinə köçürülür. Bu sayədə tədqiqatçıların vaxt itirmədən olduqları yerdən axtarış aparmalarına imkan yaranır.

Biblioqrafik fəaliyyətlə məşğul olan mütəxəssis biblioqraf-informasiya təhlilçisi adlanır. Biblioqraf kitabxana və informasiya resursları sahəsində mütəxəssisdir. Biblioqraflar informasiya materiallarının sistemləşdirilməsi, biblioqrafik verilənlər bazaları və kataloqların yaradılması ilə məşğul olurlar. Çoxları üçün biblioqrafiya sirli və anlaşılmaz bir sahədir. Bununla belə, elmi işlə məşğul olan hər kəs informasiyanın sürətli və keyfiyyətli axtarışında biblioqrafın rolunun nə qədər mühüm olduğunu mükəmməl başa düşür. Biblioqraflar informasiya biblioqrafik strukturlarının əməkdaşlarıdır və onların işi əsasən intellektual xarakter daşıyır.

**Peşənin xüsusiyyətləri**

Biblioqrafın məsuliyyət dairəsi əslində kifayət qədər genişdir. Lazımi məlumatı müəllif, mövzu, nəşr və digər parametrlər üzrə axtarmağın mümkünlüyünə görə məhz bu peşəkarlara borcluyuq. Bütün bunlar kataloqların əziyyətli tərtibi sayəsində mümkündür. Kataloq, öz növbəsində, biblioqrafik təsvirləri ehtiva edir. Artıq mövcud olan və ya kitabxanaya daxil olan bütün materiallar üçün biblioqraf qəbul edilmiş standartlara uyğun kataloqlar yaradır. Biblioqraf həm də məlumat daycestləri, soraq fondu hazırlaya və müxtəlif ədəbiyyat kolleksiyaları tərtib edə bilər. O, həmçinin istifadəçilərin materiallara olan tələbatını öyrənir; gələcəkdə bu, ən populyar olanlara girişi asanlaşdırmağa kömək edir.

Aydınlaşdırmağa dəyər ki, biblioqrafın işi təkcə kitablarla bağlı deyil. Müasir kitabxanaların və informasiya kolleksiyalarının strukturu və fəaliyyət prinsipləri texnologiyanın inkişafı ilə əhəmiyyətli dəyişikliklərə məruz qalır. Buna görə də, biblioqraflar indi təkcə çap nəşrləri ilə deyil, həm də elektron və hətta internet resursları ilə işləyirlər. Materiallar çox fərqli ola bilər: kitablar, elmi məqalələr, dövri nəşrlər, patentlər və daha çoxu. Biblioqraf müasir texnologiyaları mükəmməl bilən, verilənlər bazası və böyük həcmli məlumatı asanlıqla idarə edə bilən mütəxəssisdir. Biblioqraflar həm kitabxanalarda, həm də nəşriyyatlarda, arxivlərdə, muzeylərdə, kitab ticarəti müəssisələrində və müxtəlif elmi və informasiya fondlarında işləyə bilər.

Milli biblioqrafiya sahəsində tanınmış mütəxəssis Barbara Bell vaxtilə yazırdı: "Cari milli biblioqrafiya bir ölkənin mədəniyyətini, xarakterini və yeni maraqlarını çap məhsullarını sadalamaqla əks etdirən güzgüdür. O, nəinki tarixi qeydə alır, həm də digər ölkələrə paylandıqda həmin ölkəyə "pəncərə" kimi xidmət edir. Cari milli biblioqrafiyanı öyrənməklə bir ölkənin kimliyi haqqında fikir əldə etmək olar... Ölkənin dillərində nəşrlər vasitəsilə kənd təsərrüfatı və texnologiyanın xüsusiyyətləri, o cümlədən cəmiyyətin quruluşu, xalqın həyatında mühüm rol oynayan ayrı-ayrı adət və mərasimlər, təhsilin, ədəbiyyatın və elmin, informasiyanın əhəmiyyəti məşhur müasir yazıçı və siyasətçilər, ölkənin inkişafındakı ictimai və dini cərəyanlar haqqında... Hazırkı milli biblioqrafiya hər bir insanın özünəməxsusluğunu

əks etdirdiyi kimi, ölkənin maraqlarını və özünəməxsus xüsusiyyətlərini əks etdirməlidir”.

Biblioqrafiyanın dünyaya göründüyü ilk real formalar mətnlərdən digər mətnlərə keçidlər, mətn haqqında məlumat (müəllif, sərlövhə və s.), kitabxana kataloqları, müxtəlif növ mətnlərin siyahıları olmuşdur. Onlar bizə biblioqrafiyanın haradan başlaması sualına cavab verməyə imkan verir: mənbə mətnlərini təyin etmək üçün xüsusi simvolik sistemin yaradılması ilə, bu, birbaşa onlara istinad etmədən müxtəlif mətnlər arasında səmərəli naviqasiya etməyə imkan verir və rasional seçim imkanı əldə edir.

Bu simvolik təyinat sistemi sənəd haqqında onun eyniləşdirilməsi (tanınması, identifikasiyası) üçün zəruri (minimum) və kifayət qədər (maksimum) olan məlumatları ehtiva edir. Bu, xüsusi bir informasiya növü – biblioqrafik informasiya yaradır.

Biblioqrafik informasiya sənədin təkcə formasını zahiri xüsusiyyətləri ilə deyil, həm də bütün məzmun zənginliyi ilə mənəvi yaradıcılıq məhsulu kimi əks etdirir.

GOST 7.0-99 "İnformasiya və kitabxana fəaliyyəti, biblioqrafiya" terminoloji standartı biblioqrafik informasiyanın aşağıdakı tərifini verir: Bu "sənədlər haqqında onların identifikasiyası və istifadəsi üçün zəruri olan məlumatdır".

Biblioqraflar dəfələrlə anlayışın ən dəqiq tərifini-"biblioqrafik informasiya"nı formalaşdırmağa çalışmışlar. "Biblioqrafik informasiya" termini təxminən XX əsrin 50-ci illərinin əvvəllərində biblioqrafik elmin və təcrübənin bir hissəsinə çevrildi.

Biblioqrafik informasiya biblioqrafik fəaliyyətin əsası, “mənasıdır”. Bu, müəyyən biblioqrafik üsullarla sənədləri tapmağa, onların mövcudluğu haqqında istehlakçılara məlumat verməyə və ümumi qiymət verməyə kömək edən sənədlər haqqında müəyyən bir şəkildə təşkil edilmiş məlumatdır.

"Biblioqrafik informasiya" anlayışının nəzəri mənası ondan ibarətdir ki, o, biblioqrafik hadisələri qeyri-biblioqrafik hadisələrdən ayırmaq prinsipi kimi xidmət edir və bununla da bizi əhatə edən aləmdə biblioqrafik hadisələri tapmağa kömək edir. Yəni biz harada biblioqrafik informasiyanı tapırıqsa, deməli biblioqrafiya ilə qarşılaşırıq.

Biblioqrafik informasiya anlayışı ətrafında bir çox suallar yaranır: biblioqrafik informasiya hansı növ informasiyalara daxildir?, onun spesifik xüsusiyyətləri nədən ibarətdir?, onun Sənəd Kommunikasiyaları Sistemində yeri və rolu nədir? və.s.

Biblioqrafik informasiya bir növ ikinci dərəcəli sənədli informasiyadır. Biblioqrafik informasiya xüsusi çeşid kimi bilavasitə ikinci dərəcəli sənədli informasiyaya, yəni ilkin sənədlərin analitik və sintetik emalı nəticəsində yaranan informasiyaya daxil edilir. Biblioqrafik informasiya sənədlə

istehlakçı arasında uyğunluğun həyata keçirilməsinə kömək edən informasiyadır. O, sənədin özünü deyil, sənəd haqqında məlumatı çatdırır. Ona başqa sözlə metainformasiya da demək mümkündür.

Biblioqrafik informasiyanın yaranması təbii zərurətdir. Cəmiyyətdə informasiyanın-sənədlərin çoxalması, arxitekturasının mürəkkəbləşməsi onun idarə edilməsini tələb edir. Və müəyyən tarixi dövrdən sonra biblioqrafik informasiya bu məqsədlə yaranmışdır.

Biblioqrafik məlumat informasiya mənbələri haqqında məlumatdır ki, bu da onları effektiv aşkar etməyə və unikal şəkildə müəyyən etməyə imkan verir, eyni zamanda informasiya proseslərində onları əvəz edir və istehlakçı ilə informasiya resursları arasında vasitəçi rolunu oynayır. Biblioqrafik məlumat biblioqrafik yazı toplusu kimi mövcuddur, hər biri ayrıca informasiya resursudur. Biblioqrafik yazı öz növbəsində hər biri informasiya resursunun xüsusiyyətlərindən birini aşkar edən elementlərdən ibarətdir.

Biblioqrafik yazı sənəd haqqında məlumatı sənədli formada qeyd edən, onu müəyyən etməyə, onun tərkibini və məzmununu biblioqrafik axtarış məqsədilə açıqlamağa imkan verən biblioqrafik məlumat elementidir.

Biblioqrafik yazıya sərlövhə, biblioqrafik təsvir, təsnifat indeksləri, mövzu başlıqları, açar sözlər, annotasiya, referat, resurs saxlama kodları, resursun işlənməsinin tamamlanma tarixi, rəsmi məlumat daxil ola bilər.

Biblioqrafik informasiya haqqında yuxarıda deyilənlərin hamısı sosial məlumatın xüsusi növü kimi onunköməkçi (ikinci dərəcəli sənədli) mahiyyətini ortaya qoyur və vurğulayır.

Biblioqrafik informasiya biblioqrafik vəsaitlərdə maddiləşir. Ən çox bilinən və ən qədim biblioqrafik vəsait növü kitabxana kataloqudur.

**Biblioqrafik informasiyanın yaranması**

Qədim Şumer krallığının kitabxanaçıları mixi yazıları olan gil lövhələri böyük qapalı qutularda və ya səbətlərdə saxlayırdılar. İndi təsəvvür edək ki, belə bir kitabxananın "fondu" kifayət qədər böyük olanda nə baş verdi. Onun belə olması dəqiq müəyyən edilmiş faktlarla təsdiqlənir. Belə ki, Nippurdakı sarayda bir neçə min gil lövhə aşkar edilib. Laqaşda arxeoloqlar tərəfindən 20 minə yaxın lövhə tapılıb. Aydındır ki, belə böyük bir massiv içərisində lazımi lövhəni tapmaq asan deyildi. Qədim Şumer kitabxanaçıları vəziyyətdən çıxış yolu tapdılar. Onlar hər qutunu və ya səbəti onun içərisində saxlanılan sənədlərin siyahısını özündə əks etdirən lövhə ilə təmin edirdilər. Əslində, bu siyahılar ilk kitabxana kataloqları idi, bu da mövcud kitabların tərkibini və məzmununu aşkarlamağı asanlaşdırdı. Beləliklə, kitabxanasındakı qutuları və ya səbətləri ilk dəfə xüsusi göstərici lövhələrlə təmin edən, bizə məlum olmayan həmin şumer kitabxanaçısı bununla da kataloq formasında biblioqrafik informasiyanı icad etmişdir. Sonralar biblioqrafik informasiya mənbəyi kimi kataloqlar ən böyük qədim kitab fondla-

rının əvəzsiz hissəsinə çevrildi. Beləliklə, biz Aşşur padşahı Aşşurbanipala məxsus olduğu dövrdə (e.ə. VI əsr) ən böyük çiçəklənməyə çatan Nineviyadakı kitabxananın kataloqunu bilirik. Bu, o dövrdə məlum olan bütün bilik sahələrinə: qrammatika, poetika, tarix, hüquq, təbiət elmləri, coğrafiya, riyaziyyat, dinə aid on minlərlə saxlama vahidindən (əsasən gil lövhələr) ibarət nəhəng bir kitabxana idi. Ölçüsünə görə, yəqin ki, dövrünün bütün digər kitabxanalarını üstələyən kitabxana iki sarayın xüsusi, dəbdəbəli bəzədilmiş binalarını tuturdu (9, 41).

Kataloqlar həmin dövrdən bugünədək mövcudluğunu qorumuş, təkmilləşmiş və OPAC adlandırılan onlayn (elektron) versiyaya qədər təkmilləşmişdir. Elektron kataloq ənənəvi kataloqun rəqəmsallaşdırılmış, genişləndirilmiş və təkmilləşdirilmiş müasir formasıdır.

Biblioqrafik fəaliyyət zamanı biblioqrafik məhsul yaradılır. Biblioqrafik məhsul ənənəvi olaraq biblioqrafik fəaliyyətin sənədləşdirilmiş nəticəsi, həmçinin biblioqrafik informasiyanı öz istehlakçılarına çatdırmaq vasitəsi olan biblioqrafik vəsaitlər toplusudur. Rus biblioqraf alimi Qalina Diomidova biblioqrafik məhsulu həm onun hazırlanması proseslərinin nəticəsi, həm də istehlakçılara xidmət vasitəsi olan sənədləşdirilmiş biblioqrafik informasiya kimi şərh etmişdir. Müasir dövrdə biblioqrafik informasiyanın yaradılması, saxlanması və təqdim edilməsinin kartoçka, çap formaları ilə yanaşı qeyri-ənənəvi, innovativ növləri də yaradılır və geniş istifadə olunur. Elektron kitabxana kataloqları, referativ və biblioqrafik verilənlər bazaları, analitik məlumat bazaları və.s biblioqrafik resursların elektron formalarına aiddir.

XX əsrin sonlarından başlayaraq İKT elektron biblioqrafik mədəniyyətin formalaşmasına imkan yaratdı. Biblioqrafiya münasibətlərinin ənənəvi formadan elektron formaya keçidi sürətləndi. Kitabxanalar biblioqrafik fəaliyyətin bir çox sahəsinin transformasiyasına imkan verən İKT-ni tətbiq etməyə başladılar. Kitabxanalarda elektron mühitin formalaşması, informasiyanın elektron formada saxlanması, onlayn axtarış, informasiyanın telekommunikasiya kanalları vasitəsilə ötürülməsi biblioqrafik məhsul və xidmət modellərinə də ciddi təsir göstərdi. Və artıq "elektron biblioqrafiya" adlandırılan yeni elmi və praktiki fəaliyyət sahəsi formalaşmışdır. Elektron biblioqrafiya təkcə kitabxanaçılığı və biblioqrafiyanı təkmilləşdirməyin bir yolu kimi deyil, həm də ölkənin informasiya sferasının və mədəniyyətinin uğurlu inkişafı üçün ən vacib şərtlərdən biri hesab edilə bilər.

İnformasiya texnologiyalarının və kommunikasiya vasitələrinin sürətli inkişafı informasiya əldə etmək üçün yeni perspektivlər açsa da, bu ilk növbədə informasiyanın "çoxluğu" ilə bağlı bir sıra mənfi nəticələrə səbəb olmuşdur. Məlumatın işlənilməsi imkanları məhdud olduğuna görə ondan tam istifadə oluna bilməz. Müasir insan internetə daxil olarkən müntəzəm

olaraq bununla qarşılaşır. Məhz internetdə insan peşəkar fəaliyyət və şəxsi inkişaf ehtiyaclarının ödənilməsi üçün lazım olan məlumatları axtarır və tapır. Kitabxanalardakı  sabit və idarə olunan nəşrlər və sənədlər fondundan fərqli olaraq, İnternetdə biz idarə edilməsi çox çətin bir proses olan nəhəng və daim dəyişən sistemləşdirilməmiş məlumat toplusu ilə qarşılaşırıq.

Ekspertlər qlobal şəbəkədə müstəqil informasiya axtarışı ilə bağlı mövcud vəziyyəti "ot tayasında iynə tapmaq"la müqayisə edirlər. Çox vaxt böyük dəyərə malik olan məlumatlar, axtarış zamanı yaranan problemlərə görə tapılmır. Ancaq bunun müqabilində bir çox ikinci dərəcəli, tez-tez bir-birini təkrarlayan məlumatlar əldə edilir.

Artan bu sənəd kütləsi içərisində ən sanballı və faydalı olanları seçmək və informasiya tələbatçılarına çatdırmaq isə sənədlərlə istifadəçilər arasında vasitəçilik funksiyasını yerinə yetirən biblioqrafiyanın öhdəsinə düşür.

Biblioqrafiya hal-hazırda üç istiqamətdə inkişaf edir: Elm, tədris və təcrübi fəaliyyət sahəsi kimi.

Biblioqrafiyaşünaslıq müstəqil elmi istiqamət statusuna malikdir və digər elmlərlə eyni qanunauyğunluqlar əsasında inkişaf edir. Biblioqrafiyaşünaslıq biblioqrafiya və onun praktiki və koqnitiv sferaları haqqında elmi biliklərin bütünlükdə formalaşdırılması və inkişaf etdirilməsi fəaliyyətidir.

Ölkəmizdə biblioqrafiyanın tədrisi sahəsində Bakı Dövlət Universtitetinin İnformasiya və Sənəd Menecmenti fakültəsinin Sənəd menecmenti (əvvəlki Biblioqafiyaşünaslıq) kafedrasının müstəsna rolu vardır. Kafedra tələbələrdə biblioqrafik fəaliyyətin əsas vəzifələri, xüsusiyyətləri, qanunauyğunluqları və biblioqrafik elmin inkişaf istiqamətləri haqqında anlayış formalaşdırmaq, yeni metodoloji yanaşmaları, elektron texnologiyaların biblioqrafik proseslərə təsirini, mövcud yerli biblioqrafiya anlayışlarının qiymətləndirilməsini hədəfləyir. Ümumiyyətlə, biblioqrafik fəaliyyətin xüsusiyyətlərini öyrənmək cəmiyyətin bütün SKS mütəxəssisləri üçün də zəruridir.

Ənənəvi biblioqrafik fəaliyyət elektron biblioqrafik fəaliyyətə doğru inteqrasiya edir. Yeni texnologiyalar insanların vaxtına və puluna qənaət edir, bilik səviyyəsini yaxşılaşdırır və davamlı informasiya savadlılığına töhfə verir. İnnovativ texnologiya və tətbiqlər vasitəsilə kitabxana-informasiya müəssisələri uşaqlara, gənclərə, yetkin yaşlılara, tədqiqatçılara və cəmiyyətə dəyər verir. Müasir kitabxana informasiya texnologiyaları informasiya təminatının aparıcı qüvvəsidir.

Elektron biblioqrafiyanın gələcəyi bir çox imkanlara malikdir və informasiya əldə etməklə bağlı qarşılaşdığımız ən böyük problemlərin öhdəsindən gəlməyi təmin etmək üçün texnologiya böyük rol oynayır.

Çox vaxt biz biblioqrafik  işləri çox insan əməyi tələb edən iş hesab edirik; məsələn, biblioqraflar biblioqrafik vəsaitlər hazırlmaq  üçün çoxlu saatlar, hətta günlər və əmək sərf edirlər. Bununla belə, biblioqraflara öz

sahələrində irəliləməyə, daha çox sənədi təhlil edib onlar haqqında məlumat verməyə imkan verən yeni kitabxana informasiya texnologiyalarıdır.

Elektron biblioqrafik fəaliyyətin obyekti elektron mühitdə fəaliyyət göstərən, onun iki əsas elementi - ənənəvi və elektron sənədlər və elektron informasiya istehlakçıları ilə təmsil olunan Sənəd Kommunikasiyaları Sistemidir.

Elektron biblioqrafik fəaliyyət nəticəsində elektron biblioqrafik resurslar yaradılır və rəqəmsal mühitdə istifadəçilərə xidmət göstərilir.

21-ci əsrdə elektron biblioqrafik fəaliyyət ən mühüm məqsədə - istənilən vaxt, istənilən texniki təchiz olunmuş yerdə istənilən biblioqrafik məlumata çıxışı təmin etməyə imkan verir. Beləliklə, biblioqrafların çoxillik arzusu gerçəkləşir – Sənəd Kommunikasiyaları Sistemində məkan və zaman maneələri aradan qalxır.

Tədqiqat prosesində biblioqrafiyalar çox vaxt diqqətdən kənarda qalır, lakin onlar qiymətli vasitədir. Biblioqrafiyanın əsas üstünlüyü ondan ibarətdir ki, o, tədqiqat aparmağın daha yorucu və mexaniki hissəsini - bir çox göstərici və verilənlər bazasında müvafiq məlumatın axtarış prosesini azaldır. Peşəkar tədqiqatçıların sirri ondan ibarətdir ki, onlar araşdırmalarına nəşr olunmuş biblioqrafiyaları axtarmaqla başlayırlar. Bununla belə, qeyd etmək lazımdır ki, insanlar ümumiyyətlə axtarış motoru ilə onlayn biblioqrafiyadan istifadə etməyə daha çox hazırdırlar.

Hal-hazırda tədqiqatçılar ən çox nüfuzlu "impact factor"-lu jurnallarda məqalələr dərc edirlər. Eyni zamanda, tədqiqatçıların nəşr fəaliyyəti hər il faiz nisbəti ilə artır. Bu göstərici Qərbi Avropada daha yüksəkdir. Alimlər fizika və kimya, eləcə də klinik tibb, təbiət elmləri və.s sahələrdə ən çox elmi məqalələr dərc edirlər. Elmi məqalələrin təkcə bir yerdə toplanmadığı, həm də müəyyən meyarlara görə çeşidləndiyi biblioqrafik və referativ verilənlər bazalarından istifadə alimlərin işini xeyli asanlaşdırır. Bu məlumat bazalarının əhəmiyyəti ondan ibarətdir ki, alim bir resursda öz sahələri ilə bağlı lazımi ədəbiyyata baxa, fərziyyə qura, onunla bağlı məlumatları təhlil edə, həmçinin öz işi üçün şərh edə bilər. Verilənlər bazaları qabaqcıl axtarış sistemlərinə, yəni filtrlərə malikdir, onların sayəsində axtarış nəticələrini əvvəlcədən çeşidləmək mümkündür. Verilənlər bazaları axtarış sistemləri alimlərə məlumat toplamaq üçün vaxta qənaət etməyə imkan verir ki, onlar eksperimentlərə və ya fundamental sualların həllinə diqqət yetirsinlər. Məlumat bazaları hazırda ən müxtəlif sahələr üzrə minlərlə məqalənin referatını, təsvirini və tam mətnini ehtiva edir.

**Biblioqrafik dəstək kimlərə lazımdır?**

Müəyyən bir mövzuya maraq varsa alim də, yazıçı da, tələbə də, mühəndis də, fəhlə də biblioqrafiyaya yönəlir. Ancaq bəzən soraq nəşrləri insanları informasiya aclığından xilas etmir. İnformasiya mənbələrindən istifa-

də etməyi bacarmaq lazımdır. Daim tədqiqatla məşğul olan alim zaman keçdikcə material axtarışında təcrübə toplayırsa, təcrübəsiz insan biblioqrafın köməyi olmadan edə bilməz. Biblioqrafiya tədqiqat işinin mühüm elementidir. Hələ qədim zamanlarda da aydın idi: biblioqrafiya biliyin açarıdır.

Beləliklə, bu məlumat bazalarından istifadə etməklə informasiya axtarışı vaxtı digər axtarış vasitələri ilə müqayisədə dəfələrlə azalır. Bu da tədqiqatçıların müxtəlif materialların xassələrini müəyyən etməsinə, strukturlarını öyrənməsinə, digər materiallarla müqayisə etməsinə və təbii ki, eksperimentlər və əsaslı tədqiqatlar aparmaq üçün zəruri materialları axtarmalarına şərait yaradır.

Müasir kitabxana təkcə kitablar, dövri nəşrlər, əlyazmalar və s. toplusu deyil, həm də onun kolleksiyalarını təşkil edən və saxlayan insanlardır. Onların arasında informasiya axınında naviqasiyaya kömək edənlər də var. Bunlar biblioqraflardır. Xüsusilə indi elmin və istehsalın inkişaf sahələrinin genişlənməsi, xidmətində elmin istifadə olunduğu texnika və texnologiyaların təkmilləşdirilməsi ilə tədqiqatların mövzuları da mürəkkəbləşir, baxılan məsələlər dərinləşir. Müvafiq olaraq, məlumat axtarışı çətinləşir və vaxt xərcləri artır.

Belə nəticəyə gəlmək olar ki, biblioqrafiyaya tələbat olub, var və olacaq.

Müasir həyatı elektron sənədlərin və nəşrlərin təsiri altında formalaşan informasiya mədəniyyətinin spesifik kateqoriyalarından - informasiya şəbəkəsindən, elektron (E-mədəniyyət), rəqəmsallıqdan kənarda təsəvvür etmək mümkün deyil. Elektron biblioqrafiya biblioqrafik dildə verilmiş müvafiq məhsullar yaradır.

Qloballaşma dövründə cəmiyyət müasir vasitələrdən, metodlardan və texnologiyalardan istifadə etməklə böyük həcmdə informasiyanın sürətli qavranılmasına və işlənməsinə insan hazırlamalıdır. Yeni şərtlər informasiyadan asılılığa səbəb olur: məlumatı müstəqil mənimsəmək və toplamaq kifayət deyil, onunla işləmək üçün kollektiv biliklərə əsaslanaraq qərarlar hazırlamağı və qəbul etməyi öyrədən texnologiyanı mənimsəmək lazımdır. Başqa sözlə, yeni tip informasiya mədəniyyətinə ehtiyac var.

Lazımi məlumatları tapmaq üçün insanlar vasitəçilərə (kitabxanaçılar və biblioqraflar) müraciət etmək məcburiyyətində qalırlar. İnformasiya maneələri olub, var və olacaq. İnternet və bəzi saytlar (məsələn, onlayn tərcüməçi PROMT) müəyyən maneələri dəf etməyə kömək edir.

Artan sənəd kütləsi içərisində ən sanballı və faydalı olanları seçmək və informasiya tələbatçılarına çatdırmaq isə biblioqrafiyanın öhdəsinə düşür. Müasir biblioqrafiya vasitəçilik funksiyasını yerinə yetirmək üçün təbii ki, internetin imkanlarından istifadə edir. Bu isə yeni bir fəaliyyət sahəsi-elektron biblioqrafik fəaliyyət sayəsində reallaşır.

**Nəticə**

Bəşəriyyətin intellektual inkişafı prosesində sənədlər və istifadəçilər arasında uyğunluq və identiklik münasibətlərinə çatmaq yalnız biblioqrafiya sayəsində əldə edilə bilər. Təkcə onu qeyd etmək kifayətdir ki, dünyada hər il 1 milyon adda kitab nəşr olunur. Bu şəraitdə vasitəçi olmadan yeni yaranan və artıq yaradılmış sənədlərin (elmi, massivlər və axınlar) dənizində effektiv istiqamətləndirmə (vaxtında, dəqiq və tam) mümkün deyil.

Biblioqrafiya sənədlər və istifadəçilər arasında vasitəçi kimi çıxış edir. Onun vəzifəsi bütün mövcud ziddiyyətləri aradan qaldırmaqdır. Bu, onun sosial məqsədidir. Biblioqrafik fəaliyyət hazırda keçid dövrünü yaşayır. Kitabxanaların biblioqrafik fəaliyyəti, şübhəsiz ki, davam edəcək, lakin kitabxananın özündə baş verən dəyişikliklərlə əlaqədar əhəmiyyətli texnoloji dəyişikliklərə məruz qalacaqdır.

**ƏDƏBİYYAT**


1. Əliquliyev, R., Mahmudov, R. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri// İnformasiya cəmiyyəti problemləri, 2016, №2, 3–18.
2. Əliyev, Z.H. Ümumi biblioqrafiyaşünaslıq Dərs vəsaiti, - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2001. -145 s.
3. Kazimi, P., Abdullayeva, A., & Ismayilov, N. (2020). Scientometric analysis of document flow in library science of Azerbaijan (2014-2018). Norwegian journal of development of the international science, (45-2), 66-70.
4. Ismayilov, K., Ismayilov, N., & Mammadova, V. (2019). Library information services in academic libraries of Azerbaijan: a comparative study. Library Management, 40(6/7), 461-477.
5. Nadir, I., & Shahla, G. (2022). Organization and development of document flow on children's literature in Azerbaijan (Second half of the 19th century and the beginning of the 20th century). Technium Soc. Sci. J., 34, 654.
6. İsmayilov, N., & Khudiyeva, V. Analysis and processing of users'information and research requests. Akademik kitabxanaların yeni fəaliyyət istiqamətləri, 36.
7. Ismayilov, N., & Khudiyeva, V. (2022). Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting. Concepts of digitization. Technium Social Sciences Journal, 35, 593-600.
8. Ismayilov, N., & Khudiyeva, V. (2022). Assessment of digital knowledge and research skills and overview of on going work at the national level, forecasting. Concepts of digitization. Technium Social Sciences Journal, 35, 593-600.
9. Коршунов О.П., Лиховид Т.Ф., Новоженова Т.А. К66 Библиографоведение: Основы теории и методологии: Учебник для библиотечно-информационных факультетов вузов / О.П. Коршунов, Т.Ф. Лиховид, Т.А. Новоженова; под ред. О.П. Коршунова. – Москва: ФАИР, - 2009. – 336 с.
10. Хомякова И.Г., Матенкова О.В. Электронная библиографическая деятельность: теоретико-методические аспекты изучения// Культура и образование. - Москва, - 2013, - № 1 (8), - с 3.
11. https://scholar.google.com
12. https://mjl.clarivate.com/

## ТРАДИЦИОННАЯ И СОВРЕМЕННАЯ БИБЛИОГРАФИЯ КАК ЭЛЕМЕНТ ОБРАЗОВАТЕЛЬНОЙ И ИССЛЕДОВАТЕЛЬСКОЙ СРЕДЫ

**Н.И.ХАЛИЛОВА**

**РЕЗЮМЕ**

В статье исследуется историческая эволюция и современное состояние библиографической информации как элемента научной коммуникации. Библиографическая информация интерпретировалась как средство удовлетворения информационных потребностей пользователей, работающих в сфере образования и науки. В статье обосновывается необходимость библиографического обеспечения исследователей при выборе литературы и ее инструментальной системы. Объясняются природа, развитие и исключительное значение библиографической деятельности для исследователей.

**Ключевые слова:** традиционная библиография, электронный библиографический продукт, электронный каталог, библиограф-информационный аналитик.

## TRADITIONAL AND MODERN BIBLIOGRAPHY AS AN ELEMENT OF THE EDUCATIONAL AND RESEARCH ENVIRONMENT

**N.I.KHALILOVA**

**SUMMARY**

The paper includes an examination of the historical development and current status of bibliographic information as a component of scientific communication. Here, bibliographic information is interpreted as a way to meet the information requirements of users in the scientific and educational spheres. The paper discusses the importance of bibliographic support and its tool system for researchers selecting literature. There are explanations of the history, nature, and exceptional importance of bibliographic activity for researchers.

**Keywords:** traditional bibliography, electronic bibliographic product, electronic catalog, bibliographer-information analyst.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səlimova L.K.**
Osmanlı İmperiyasının qanununun tətbiqinin xüsusiyyətləri.
"Göndərmə və köçürmə haqqında" may 1915-ci il ............................................ 5
**Davudov D.R.**
Azərbaycan Respublikasında mülkiyyət hüququnun toxunulmazlığı
və müdafiəsinə dair bəzi mülahizələr ................................................................ 19
**Hüseynli V.A.**
Əmək funksiyasının hüquqi tənzimlənməsinin prinsipləri haqqında ................. 37

## İQTİSADİYYAT

**Allahverdiyeva N.D., Allahverdiyev D.**
Beynəlxalq iqtisadi fəaliyyətdə virtual diplomatik təhlükəsizliyin təhlili .......... 49
**Əliyev M.Ü.**
Kənd təsərrüfatinda bazar infrastrukturunun formalaşmasının
bəzi xüsusiyyətləri ............................................................................................. 63
**Həsənzadə E.H.**
Beynəlxalq təhlükəsizlik sahəsində xarici iqtisadi siyasətin
maliyyə strategiyası ........................................................................................... 70

## SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA

**Əliyeva S.N.**
Gender münasibətlərinin sosial-psixoloji konsepsiyalar və anlayışlar
kontekstində dəyərləndirilməsi .......................................................................... 83
**Əsgərova Z.Q.**
Multikulturalizm fəlsəfi dəyər kimi (Problemə sosial-fəlsəfi yanaşma) ............ 94
**Abbasova G.Ə.**
Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlıq ......................................... 101

## PEDAQOGİKA

**Xəlilova N.İ.**
Ənənəvi və müasir biblioqrafiya təhsil və tədqiqat mühitinin elementi kimi...... 108

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Салимова Л.К.**
Особенности применения закона Османской Империи
«Об отправке и переселении» от 27 мая 1915 года ........................................5
**Давудов Д.Р.**
Некоторые суждения о неприкосновенности и защиты
права на собственность в Азербайджанской Республике ..............................19
**Гусейнли В.А.**
О принципах правового регулирования функций трудового права .............37

### ЭКОНОМИКА

**Аллахвердиева Н.Д., Аллахвердиев Д.**
Анализ виртуальной дипломатической безопасности
в международной экономической деятельности............................................49
**Алиев М.У.**
Некоторые особенности формирования рыночной
инфраструктуры в сельском хозяйстве..........................................................63
**Гасанзаде Э.Г.**
Финансовая стратегия внешнеэкономической политики
в сфере международной безопасности ..........................................................70

### СОЦИАЛЬНЫЕ НАУКИ и ПСИХОЛОГИЯ

**Алиева С.Н.**
Оценка гендерных отношений в контексте
социально-психологических концепций и понятий .......................................83
**Аскерова З.Г.**
Мультикультурализм как философская ценность
(Социально-философский подход к проблеме) ..............................................94
**Аббасова Г.А.**
Стратегическое сотрудничество между Азербайджаном и Турцией ...........101

### ПЕДАГОГИКА

**Халилова Н.И.**
Традиционная и современная библиография как элемент
образовательной и исследовательской среды................................................108

# CONTENTS

## LAW

**Salimova L.K.**
Features of the application of the law of the Ottoman Empire.
"On dispatch and resettlement" dated may 27, 1915 ........ 5
**Davudov D.R.**
Some judgments on the inviolability and protection
of the right to property in the Republic of Azerbaijan ........ 19
**Huseynli V.A.**
About the principles of legal regulation of labor function ........ 37

## ECONOMY

**Allahverdiyeva N.D., Allahverdiyev D.**
Analysis of virtual diplomatic security in international economic activity ........ 49
**Aliyev M.U.**
Some features of market infrastructure formation in agriculture ........ 63
**Hasanzade E.H.**
Financial strategy of foreign economic policy
in the area of international security ........ 70

## SOCIAL SCIENCES AND PSYCHOLOGY

**Aliyeva S.N.**
Evaluation of gender relations
in the context of socio-psychological concepts ........ 83
**Asgarova Z.G.**
Multiculturalism as a philosophical value
(A socio-philosophical approach to the problem) ........ 94
**Abbasova G.A.**
Strategic cooperation between Azerbaijan and Turkey ........ 101

## PEDAGOGICS

**Khalilova N.I.**
Traditional and modern bibliography as an element
of the educational and research environment ........ 108

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 07.05.2021-ci il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunur, disklər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin əlavə 4.1 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. - Bakı: Azərnəşr, - 1994. - 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. - Bakı: Hüquq ədəbiyyatı, - 1999. - 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: [7 cilddə], - Bakı: Elm, - 2000. IV c., - 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, - 2001. № 3. - s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. - Bakı: Nurlan, - 2003. - s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. dis. - Bakı, 2003. - 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi // «Ədəbiyyat və incəsənət» qəz., - Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siyahı №2, iş №26, vərəq.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

Redaktoru: ***Məryəm Qədimova***

Korrektoru: ***Solmaz Babaşova***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

Çapa imzalanmışdır: 06.03.2024
Formatı: 70x100 1/16. Həcmi 8,0 ç.v. Sayı 120.
Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
Tel: (+99412) 538 87 39 / 538 50 16
e-mail: bdumetbee@gmail.com
www.bsu.edu.az